**Səlimzadə Mehdi İldırım oğlu**
**h.ü.f.d. Məmmədov Oruc Cəmil oğlu**
**h.ü.f.d. Xəlilov Qədir Rövşən oğlu**

# BƏLƏDİYYƏLƏRİN STATUSU:
# HÜQUQ VƏ VƏZİFƏLƏRİ

## METODİKİ VƏSAİT

**B A K I – 2 0 1 5**

**Elmi redaktor:** **h.e.d. professor Əfsər Sadıqov**

**Səlimzadə M.İ., Məmmədov O.C., Xəlilov Q.R.** Bələdiyyələrin statusu: hüquq və vəzifələri. Metodiki vəsait. Bakı: "Zaman Stat" MMC , 2015, 178səh.

Metodiki vəsait Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən "Yerli Özünüidarəetmə Proqramı" çərçivəsində həyata keçirilən layihənin tərkib hissəsi olaraq bələdiyyə təmsilçilərinin bilik və bacarıqlarının artırılması məqsədi ilə hazırlanmışdır.

Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü islahatlar sistemində yerli özünüidarəetmənin normativ hüquqi bazasının təkmilləşdirilməsi məsələsi böyük yer tutur. Metodiki vəsaitin əsasını milli və beynəlxalq hüquq normaları və nəzəri müddəalar təşkil edir. Metodiki vəsaitdə nəzərdə tutulmuş məsələlər təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları təcrübi fəaliyyətdə rast gəldikləri məsələlərin hüquqi həllində metodiki vəsaitdən səmərəli faydalana biləcəklər. Bununla yanaşı metodiki vəsaitdən dövlət və bələdiyyə idarəetməsi, hüquqşünaslıq ixtisasları üzrə təhsil alan tələbələr, magistrantlar, doktorantlar, əlavə təhsilə cəlb edilmiş şəxslər, professor-müəllim heyəti, praktiki mütəxəssislər və bu məsələ ilə maraqlanan hər bir şəxs faydalana bilərlər.

İSBN -------------------

# MÜNDƏRİCAT

**Ön söz.................................................................................................4**

**I fəsil- Bələdiyyələrin fəaliyyətinin milli və  beynəlxalq hüquqi əsasları.........................................................................................8**

1.1  Bələdiyyələrin fəaliyyətinin konstitusion təminatları.....................8

1.2  Bələdiyyələrin fəaliyyətinin beynəlxaq-hüquqi əsasları.........................................................................................20

**II fəsil- Bələdiyyələrin hüquqi statusu...........................................36**

2.1  Bələdiyyələrin yaradılmasının prinsipləri...................................36

2.2  Bələdiyyələrin hüquq və vəzifələri.............................................55

2.3  Yerli özünüidarəetmənin iqtisadi və maliyyə əsasları..................60

**III fəsil- Bələdiyyə üzvünün hüquqi statusu.................................115**

3.1 Bələdiyyə üzvünün hüquqları və vəzifələri................................115

3.2 Bələdiyyə üzvünün təminatları..................................................122

3.3 Bələdiyyə üzvünün məsuliyyəti.................................................129

**IV fəsil- Bələdiyyə qulluqçularının hüquqi statusu..........................................................................................150**

4.1 Bələdiyyə qulluqçularının hüquqları və vəzifələri......................150

4.2 Bələdiyyə qulluğu ilə bağlıqadağalar və təminatlar...................163

4.3 Bələdiyyə qulluqçularının etik davranış qaydaları......................167

# ÖN SÖZ

Azərbaycan Respublikasında dövlət quruculuğu prosesinin müasir mərhələsi digər sahələr ilə yanaşı bələdiyyə institutunun hazırki vəziyyəti və inkişaf perspektivləri ilə şərtlənir.

Bu baxımdan müasir Azərbaycan Respublikasında uğurla həyata keçirilən məqsədyönlü islahatlar sistemində yerli özünüidarəetmənin normativ hüquqi bazasının daimi təkmilləşdirilməsi əsas məsələlərdən biridir. Cəmiyyətin inkişafının istənilən mərhələsində əhalinin sosial-hüquqi müdafiəsi dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Əhalinin sosial-hüquqi müdafiəsinin dövləti təminatlarına dair məsələ dövlətin sosiallığını və ya sosial yönümlüyünü şərtləndirən əsas amilərdən və başlıca göstəricilərdən biri hesab olunur.

Ümummilli lider Heydər Əliyev tərəfindən müasir, müstəqil Azərbaycan dövlətinin sosial yönümlüyünün, sivil, mütərəqqi üsullarla sürətli inkişafının, vətəndaş cəmiyyətinin bərqərar edilməsinin, beynəlxalq arenaya inteqrasiyanın, o cümlədən sosial tərəqqiyə, rifah dövlətinə nail olmanın əsas istiqamətləri milli xususiyyətlər nəzərə alınmaqla, özünü doğrultmuş beynəlxalq təcürbəyə əsaslanaraq müəyyən edilmişdir. Bununla yanaşı ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dövlətinin hərtərəfli inkişafının sosila, siyasi, iqtisadi və hüquqi islahatlar yolu ilə həyata keçirlmə modelinin əsası qoyulmuş, hüququn aliliyi prinsipi təmin edilmiş, dövlət siyasətinin ana xətti formalaşdırılmış və inkişaf etdirilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş, müasir dövrdə onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdirilərək həyata keçirilən səmərəli sosila, siyasi, iqtisadi və hüquqi islahatlar vətəndaş cəmiyyətini, demokratik hüquqi dövlətin dayanaqlı və davamlı

inkişafını, insan və vətəndaş hüquqlarının və azadlıqlarının konstitusion təminatını şərtləndirən başlıca amillərdən biri hesab edilir.

1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsasları təsis edilmişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət siyasətinin əsas tərkib hissəsi kimi insan və vətəndaşın konstitusion sosial-iqtisadi hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində dövlət siyasətinin piroritet istiqamətlərini müəyyən edən bir sıra hüquqi aktlar qəbul edilmiş və həyata keçirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin memarı olduğu Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli ilk milli Konstitusiyası vətəndaş cəmiyyətinin bərqərar edilməsi, demokratik prinsiplərə əsaslanan hüquqi dövlət quruculuğu sahəsində, o cümlədən insan və vənəndaşın hüquq və azadlıqlarının təminatı sistemində, onların sonrakı qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi işində, yerli özünüidarəetməyə dair müasir qanunvericiliyin inkişafında öz əhəmiyyətinə görə xüsusi statusa malikdir. Bələdiyyələrin fəaliyyətinin hüquqi təminatları sistemində əsas yeri Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli ilk milli Konstutusiyası tutur.

Azərbaycan Respublikasının Konstitusiyasının ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sferalarını, o cümlədən də yerli özünüidarəetmənin əsaslarını əhatə edən normaları müvafiq islahatların həyata keçirilməsinin əsasını təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası cəmiyyətin və dövlətin demokratik inkişafının əsas istiqamətlərini ali normativ hüquqi səviyyəyə qaldırmışdır. Həmçinin, demokratik, hüququn aliliyi prinsipləri əsasında cəmiyyətin, sosial qrupların, ərazi birliklərinin və ayrı-ayrı vətəndaşların siyasi, iqtisadi, sosial-

mədəni həyatına normativ inteqrasiya mexanizmlərini müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü bölməsi "Yerli özünüidarəetmə" adlanır. Azərbaycan Respublikasının Konstitusiyasının bu bölməsində yerləşən doqquzuncu fəsli "Bələdiyyələr" adlanmaqla 142-146-cı maddələri əhatə edir.

Yerli özünüidarəetmə demokratik tipli siyasi sisteminayrılmaz tərkib hissəsidir. Bununla yanaşı yerli özünüidarəetmə vətəndaş cəmiyyətinin mühüm institutlarından biri hesab olunur. Onun təşəkkülünə və inkişafına daimi xüsusi əhəmiyyət verilir. İnkişaf etmiş sivilizasiyalı cəmiyyətdə dövlət hakimiyyətini vahid mərkəzindən idarə etmək mümkün deyildir və bu məqbul hesab edilmir. Buna görə də, vətəndaşların həyati vacib ehtiyaclarına vaxtında və operativ cavab verən və onları həll edərək səmərəli fəaliyyət göstərən ictimai-siyasi institutun, yəni yerli özünüidarəetmə orqanlarının olması və səmərəli fəaliyyət göstərməsi demokratik cəmiyyət, hüquqi dövlət üçün ən mühüm və vacib məsələlərdən biri hesab edilir.

Müasir Azərbaycan Respublikasında bələdiyyələr haqqında qanunvericilik sisteminin əsasını təşkil edən normativ hüquqi aktlardan biri də "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanunudur.

Avropa Şurası çərçivəsində yerli özünüidarəetmə sahəsində münasibətləri tənzim edən bir sıra hüquqi aktlar qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən yerli özünüidarəetmə sahəsində həyata keçirilən islahatların nəticəsi olaraq "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu böyük siyasi, sosial, hüquqi və tarixi əhəmiyyət kəsb edir. Həmin Qanunla 1985-ci il oktyabrın 15-də Strastburq şəhərində imzalanmış "Yerli özünüidarə haqqında" Avropa Xartiyası müvafiq bəyanatlarla birlikdə təsdiq edilmişdir.

Yuxarıda qeyd edilənlərin kontekstində demək olar ki, müasir dövrdə bələdiyyə təmsilçilərinin bilik və bacarıqlarının artırılması problemi olduqca mühüm və vacib məsələlərdən biridir. Bu baxımdan Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən "Yerli Özünüidarəetmə Proqramı" çərçivəsində həyata keçirilən layihələr təqdirə layiqdir. "Bələdiyyələrin statusu: hüquq və vəzifələri"adlı metodiki vəsait məhz həmin Proqramın tərkib hissəsini təşkil edir. Metodiki vəsait milli və beynəlxalq hüquq normaları və nəzəri müddəalar əsasında hazırlanmışdır. Metodiki vəsaitdə nəzərdə tutulmuş məsələlər təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları təcrübi faliyyətdə rast gəldikləri məsələlərin hüquqi həllində metodiki vəsaitdən səmərəli faydalana biləcəklər.

**Mehdi Səlimzadə**
*Ədliyyə Nazirliyi*
*Bələdiyyələrlə iş mərkəzinin rəisi*

# I FƏSİL

# BƏLƏDİYYƏLƏRİN FƏALİYYƏTİNİN MİLLİ VƏ BEYNƏLXALQ HÜQUQİ ƏSASLARI

## 1.1.Bələdiyyələrin fəaliyyətinin konstitusion təminatları

Bələdiyyələrin fəaliyyətinin hüquqi təminatları sistemində əsas yeri Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli ilk Konstutusiyası tutur.

Azərbaycan Respublikasının Konstutusiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmışdır.

Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş və 1995-ci il 27 noyabr tarixində qüvvəyə minmişdir.

Azərbaycan Respublikasında uğurla həyata keçirilən məqsədyönlü islahatlar ölkənin sürətli inkişafını şərtləşdirmiş, yeni ictimi münasibətlərin meydana gəlməsinə səbəb olmuşdur. Uğurla həyata keçirilən islahatlar nəticə etibarı ilə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş normaların təkmilləşdirilməsinə, bir sıra əlavə və dəyişikliklərin edilməsinə gətirib çıxarmışdır.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasına 2002-ci il avqustun 24-də ümumxalq səsverməsi ilə (referendumla) dəyişikliklər, 2009-cu il martın 18-də ümumxalq səsverməsi ilə (referendumla) əlavələr və dəyişikliklər edilmişdir.

Milli dövlətçilik ideyaları və ənənələri ilə zəngin olan Azərbaycan Respublikasının Konstitusiyasının Preambulasında deyilir:

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunan

prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Azərbaycan Respublikasının Konstitusiyası yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş müddəaları şərtləndirdiyi əsas amillərdən biri də məhz bələdiyyələrin fəaliyyətinin hüquqi təminatlar sisteminin təkmilləşdirilməsi və inkişafıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının "Dövlətin ali məqsədi" adlanan 12-ci maddəsində təsbit edilmişdir ki, İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.[1]

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

Azərbaycan Respublikası Konstitusiyasının “Sosial inkişaf və dövlət” adlanan 16-cı maddəsində isə təsbit edilmişdir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur”.[2]

Ümummilli Lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə müasir dövrdə səmərəli və məqsədyönlü islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş normaların həyat keçirilmə vasitələrindən bir kimi məhz islahatlar yolu seçilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdrilərək həyata keçirilən dövlət siyasətinin nəticəsi olaraq müasir Azərbaycan Respublikasında dayanıqlı və davamlı inkişafın əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir:

- hüquqi dövlət quruculuğu prosesi;
- dövlətin sosial yönümlüyü;
- dövlətin mütərəqqi üsullarla inkişafı;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsi;
- beynəlxalq arenaya inteqrasiya;
- sosial tərəqqiyə nail olma;
- rifah dövlətinə nail olma;

Bunlarla yanaşı ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dövlətinin:

- hərtərəfli inkişafının sosial, siyasi, iqtisadi və hüquqi islahatlar yolu ilə həyata keçirilmə modelinin əsası qoyulmuş;
- hüququn aliliyi prinsipi təmin edilmiş;

---

[2] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

- ictimai sabitliyə nail olunmuş;
- sosial-iqtisadi inkişafın piroritetlərimüəyyən edilmiş;
- dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmiş;
- inkişafın uzunmüddətli strateji xətti formalaşdırılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sferalarını, o cümlədən də yerli özünüidarəetmənin əsaslarını əhatə edən normaları həmin sahə üzrə islahatların həyata keçirilməsinin əsasını təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında cəmiyyətin və dövlətin demokratik inkişafının əsas istiqamətlərini müəyyən edən müddəalar beynəlxalq hüquq normalarına uyğun təsbit edilmişdir. Həmçinin, cəmiyyətin, sosial qrupların, ərazi birliklərinin və ayrı-ayrı vətəndaşların siyasi, iqtisadi, sosial-mədəni həyatına normativ inteqrasiya mexanizmləri demokratik prinsiplər əsasında müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü bölməsi "Yerli özünüidarəetmə" adlanır.

Azərbaycan Respublikasının Konstitusiyasının bu bölməsində yerləşən doqquzuncu fəsli "Bələdiyyələr" adlanmaqla 142-146-cı maddələri əhatə edir.[3]

Yerli özünüidarəetmənin təşklinə dair başlanğıc normalar, əsas müddəalar Azərbaycan Respublikasının Konstitusiyasının 142-ci maddəsində təsbit edilibdir. Azərbaycan Respublikasında yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır. Bələdiyyələrin statusunun əsasları Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir. Bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir. Bələdiyyələrə seçkilərin qaydaları Azərbaycan Respubliakasının Seçki Məcəlləsi ilə müəyyən edilir. Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə, habelə ümumi, bərabər və

---

[3] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən ümumxalq səsverməsində - referendumda öz təzahürünü tapır. Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.

Azərbaycan Respubliakasının Seçki Məcəlləsi Azərbaycan Respublikası parlamentinin - Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin - referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.[4]

Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin yeddinci bölməsində "Bələdiyyə seçkiləri"nə dair normalar təsbit edilmişdir. Bələdiyyə seçkilərinə aid ümumi müddəalar həmin Məcəllənin otuz dördüncü fəslində verilmişdir. Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 210-cu maddəsində bələdiyyə seçkilərinin əsasları aşağıdakı kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

Bələdiyyə üzvlərinin say tərkibi əhalinin sayından asılı olaraq seçki əraziləri üzrə müəyyən edilir. Bələdiyyə üzvləri əhalinin sayından asılı olaraq aşağıdakı say tərkibi üzrə seçilirlər:

1) əhalisi 500-dən az olan ərazilərdə - 5 bələdiyyə üzvü;

2) əhalisi 500-dən 999-dək olan ərazilərdə - 7 bələdiyyə üzvü seçilir;

3) əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə - 9 bələdiyyə üzvü seçilir;

4) əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə - 11 bələdiyyə üzvü seçilir;

5) əhalisi 10.000-dən 19.999-dək olan ərazilərdə - 13 bələdiyyə üzvü seçilir;

---

[4]Azərbaycan Respubliakasının Seçki Məcəlləsi. Bakı, 2015

6) əhalisi 20.000-dən 49.999-dək olan ərazilərdə - 15 bələdiyyə üzvü seçilir;

7) əhalisi 50.000-dən 99.999-dək olan ərazilərdə - 17 bələdiyyə üzvü seçilir;

8) əhalisi 100.000-dən 299.999-dək olan ərazilərdə - 19 bələdiyyə üzvü seçilir.

Göründüyü kimi bələdiyyə üzvlərinin say tərkibi minimum və maksimum say hədi ilə məhdudlaşdırılmışdır. Əhalinin sayından asılı olaraq bir bələdiyyə üzrə minimum 5 bələdiyyə üzvü, maksimum isə 19 bələdiyyə üzvü ola bilər.

Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 211-ci maddəsi ilə bələdiyyələrin səlahiyyət müddəti 5 il müəyyən edilmişdir. Bələdiyyələrin səlahiyyət müddətisəsvermənin keçirildiyi gündən hesablanmağa başlanır. Yeni seçilən bələdiyyələrin birinci iclas günü isə bələdiyyələrin səlahiyyət müddəti başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddəti ilə uzlaşır və yalnız həmin dördə qüvvədə olur.

Ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə 6 aydan az müddət qaldığı halda Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 243.0.2-ci maddəsində ("Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bələdiyyə ərazilərinin dəyişdirilməsi nəticəsində müvafiq bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların sayı 25 faizdən artıq azaldıqda və ya çoxaldıqda) nəzərdə tutulmuş hallarda, habelə yeni yaradılmış, birləşmiş, ayrılmış, yaxud vaxtından əvvəl buraxılmış bələdiyyələrə seçkilər ölkə üzrə blədiyyələrə seçkilər zamanı keçirlir.

Ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə 6 aydan çox qalmış müddətdə isə Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 243.0.2-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə yeni yaradılmış, birləşmiş, ayrılmış, yaxud vaxtından əvvəl buraxılmış bələdiyyələrə keçirilən seçkilər nəticəsində

formalaşan bələdiyyələrin səlahiyyət müddəti ölkə üzrə yeni bələdiyyə seçkiləri nəticəsində formalaşan bələdiyyələrin birinci iclas günü başa çatır.

Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 212-ci maddəsinə əsasən bələdiyyələrə üzv seçilmək hüququ aşağıdakı şərtləri özündə ehtiva edir:

1) seçkilər günü 21 yaşı tamam olan (seçki günü də daxil olmaqla) müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları;

2) yaşı 21-dən yuxarı olan müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları.

Bələdiyyələrə üzv seçilmək hüququ senz baxımından xarakterik xüsusiyyətlərə malikdir. Bələdiyyələrə üzv seçilmək hüququnu senzlər üzrə aşağıdakı kimi təsnifatını aparmaq olar:

1) yaş senzi;

2) oturaqlıq senzi;

3) vətəndaşlıq senzi.

Bu senzlər qanunvericilikdə aşağıdakı kimi ifadə edir:

1) Bələdiyyələrə üzv seçilmək hüququ üzrə yaş senzi dedikdə, seçkilər günü, seçki günü də daxil olmaqla 21 yaşın tamam olması, yaxud yaşın 21-dən yuxarı olması başa düşülür.

2) Bələdiyyələrə üzv seçilmək hüququ üzrə oturaqlıq senzi dedikdə, müvafiq seçki dairəsində daimi yaşamaq anlaşılır.

3) Bələdiyyələrə üzv seçilmək hüququ üzrə vətəndaşlıq senzi dedikdə, Azərbaycan Respublikasının vətəndaşı olmaq başa düşülür.

Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 213-cü maddəsinə əsasən bələdiyyələrin səlahiyyət müddətinin başa çatmasından asılı olaraq bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edir. Bələdiyyə seçkilərinin təyin edilməsi barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasının 143-cü maddəsi ilə bələdiyyələrin işinin təşklinə dair konstitusion normalar müəyyən edilmişdir. Həmin maddəyə əsasən bələdiyyələrin fəaliyyətinin həyata keşirilməsinin əsas təminat vasitəsi kimi aşağıdakılar nəzərdə tutulmuşdur:

1) Bələdiyyə öz fəaliyyətini iclaslar vasitəsi ilə həyata keçirir;

2) Bələdiyyə öz fəaliyyətini daimi komissiyalar vasitəsi ilə həyata keçirir;

3) Bələdiyyə öz fəaliyyətini başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

Azərbaycan Respublikasının Konstitusiyasının 143-cü maddəsinin ikinci hissəsinə əsasən bələdiyyənin iclasları bələdiyyənin sədri tərəfindən çağrılır.

Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsində bələdiyyələrin səlahiyyətlərinə dair normalar təsbit edilmişdir.Bələdiyyələrin iclaslarında həll edilən məsələlərin əhatə dairəsi konstutusion müddəlar əsasında aşağıdakı kimi müəyyən edilmişdir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması;

2) bələdiyyə üzvlərinin qanunla müəyyən edilmiş hallarda səlahiyyətlərinin itirilməsi;

3) bələdiyyə üzvlərinin qanunla müəyyən edilmiş hallarda səlahiyyətlərinə xitam verilməsi;

4) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

5) bələdiyyənin sədrinin seçilməsi;

6) bələdiyyənin sədrinin müavinlərinin seçilməsi;

7) bələdiyyənin daimi komissiyaların seçilməsi;

8) bələdiyyənin başqa komissiyaların seçilməsi;

9) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

10) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

11) bələdiyyə mülkiyyətinə sahiblik edilməsi;

12) bələdiyyə mülkiyyətindən istifadə edilməsi;

13) bələdiyyə mülkiyyəti barəsində sərəncam verilməsi;

14) yerli sosial müdafiə proqramlarının qəbul və icra edilməsi;

15) yerli sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

16) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

17) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Konstitusiya ilə bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlərin verilməsi də nəzərdə tutulmuşdur. Qanunvericilik və icra hakimiyyətləri tərəfindən bələdiyyələrə verilən səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti ayrılır. Belə səlahiyyətlərin həyata keçirilməsinə isə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının 145-ci maddəsi ilə müəyyən edilmişdir ki, bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.Konstitusiyada səs çoxluğu baxımından bələdiyyənin qərarlarının qəbul edilməsinin iki forması təsbit edilibdir:

1) Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir;

2) Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Bələdiyyələrin müstəqilliyinin təminatna dair normalar Azərbaycan Respublikası Konstitusiyasının 146-cı maddəsində təsbit edilmişdir. Bələdiyyələrin fəaliyyətinin əsas təminat vasitələrindən biri onların müstəqilliyidir. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər. Bələdiyyələrin müstəqilliyi bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Lakin nəzərə almaq lazımdır ki, bələdiyyələrin müstəqilliyi onları məsuliyyətdən azad etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam

verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər. Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsi Konstitusiyanın hüquqi qüvvəsini müəyyən edən normaları özündə ehtiva etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında:

- ən yüksək hüquqi qüvvəyə malikdir;
- birbaşa hüquqi qüvvəyə malikdir;
- Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə aşağıdakı normativ hüquqi aktlar daxildir:

1) Konstitusiya;
2) referendumla qəbul edilmiş aktlar;
3) qanunlar;
4) fərmanlar;
5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;
6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab edilir.

Naxçıvan Muxtar Respublikasında isə həm də:

- Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları;

- Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir.

Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır.

Öz səlahiyyətləri daxilində yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər.

Azərbaycan Respublikasının Konstitusiyasının "Normativ hüquqi aktlar" adlanan 149-cu maddəsi ilə müəyyən edilmişdir ki:

- Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır.

- Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

- Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

- Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

- Mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

- Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

- Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməyən normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir.

Bələdiyyə aktlarına dair normalar isə Azərbaycan Respublikasının Konstitusiyasının 150-ci maddəsində təsbit edilmişdir.

Bələdiyyələrin qəbul etdikləri aktlar:

- hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır;
- Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmamalıdır;
- Azərbaycan Respublikasının qanunlarına zidd olmamalıdır;
- Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır;
- Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

Bələdiyyələrin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburi xarakter daşıyır.

Azərbaycan Respublikası beynəlxalq hüquq münasibətləri sistemində müstəqil subyekt kimi çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyasının 151-ci maddəsi ilə beynəlxalq aktların hüquqi qüvvəsi aşağıdakı kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

## 1.2. Bələdiyyələrin fəaliyyətinin beynəlxaq-hüquqi əsasları

Məqsədyönlü və səmərəli yerli özünüidarəetməni şərtləndirən əsas amillərdən biri onun fəaliyyətinin beynəlxalq-hüquqi əsaslarının müəyyən edilməsidir. Yerli özünüidarəetməni tənzim edən beynəlxalq-hüquqi normalar milli qanunvericiliyin tərkib hissəsini təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyasının "Beynəlxalq münasibətlərin prinsipləri" adlanan 10-cu maddəsində təsbit edilmişdir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.[5]

Azərbaycan Respublikasının Konstitusiyasının "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar" adlanan 148-ci maddəsinin 2-ci hissəsi ilə müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı

[5] Azərbaycan Respublikasının Konstitusiyası. B., Hüquq ədəbiyyatı, 2009

beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.[6]

Yerli özünüidarəetmənin hüquqi əsaslarını dövlətin yerli özünüidarəetməsinin təşkili və fəaliyyəti məsələlərinin səmərəli tənzimlənməsini təmin edən normativ hüquqi aktlar sistemi, habelə həmin dövlətin yerli özünüidarəetmə sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir. Avropa məkanında bu sahədə bir sıra böyük əhəmiyyətə malik olan Konvensiya və Xartiyalar mövcuddur ki, bu da həmin sənədlərə tərəfdar çıxan dövlətlərə yerli özünüidarəetmə sisteminin daimi olaraq inkişaf etdirilməsi və bu sahədə Avropa standartlarına uyğunlaşdırılması üçün geniş imkanlar yaradır.[7]

Avropa Şurası çərçivəsində yerli özünüidarəetmə sahəsində münasibətləri tənzim edən bir sıra hüquqi aktlar qəbul edilmişdir. Yerli özünüidarəetmə sahəsində fəaliyyətin təminatları sisteminə daxil olan həmin beynəlxalq-hüquqi sənədlər sırasında aşağıdakılar mühüm əhəmiyyət kəsb edir:

1) Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında 1980-ci il 21 may tarixli Avropa Çərçivə Konvensiyası;

2) Yerli Özünüidarə haqqında 1985-ci il 15 oktyabr tarixli Avropa Xartiyası;

3) Əcnəbilərin yerli səviyyədə ictimai həyatda iştirakı haqqında 1992-ci il 5 fevral tarixli Konvensiya;

4) Regional dillər və milli azlıqların dilləri haqqında 1992-ci il 5 noyabr tarixli Avropa Xartiyası;

5) Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 1995-ci il 9 noyabr tarixli Əlavə Protokol;

---

[6] Azərbaycan Respublikasının Konstitusiyası. B., Hüquq ədəbiyyatı, 2009

[7] Səlimzadə M.İ., Xəlilov Q.R. Yerli özünüidarəetmə: anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar. Bakı: Elm və təhsil, 2010, s.70

6) Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 1998-ci il5 may tarixli 2 saylı Protokol;

7) Landşaftlar haqqında 2000-ci il 20 oktyabr tarixli Avropa Konvensiyası;

8) Gənclərin şəhərlərin və regionların həyatında iştirakı haqqında 2003-cü il 21 may tarixli Xartiya;

9) Avropa Şəhərlər Xartiyası (29 may 2008-ci il);

10) Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Avroregionların əməkdaşlıq qruplarına dair 3 saylı 2009-cu il 16 noyabr tarixli Əlavə Protokol;

11) Yerli Özünüidarə haqqında Avropa Xartiyasına yerli hakimiyyətin işlərində iştirak etmək hüququ üzrə 2009-cu il 16 noyabr tarixli Əlavə Protokol.

Müasir dövrdə bir çox dövlətlərdə yerli məsələlərin həlli ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə formalaşan yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir.Yerli özünüidarəetmə müvafiq inzibati ərazi vahidində yaşayan əhalini bilavasitə təmsil edir. Yerli özünüidarəetmə dedikdə, xüsusi seçkili orqanlar tərəfindən yerli əhəmiyyətli məsələlərin idarə olunması başa düşülür.

Ümummilli lider Heydər Əliyev tərəfindən yerli özünüidarəetmə sahəsində həyata keçirilən islahatların nəticəsi olaraq "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu[8] böyük siyasi, sosial, hüquqi və tarixi əhəmiyyət kəsb edir. Həmin Qanunla 1985-ci il oktyabrın 15-də Strastburq şəhərində imzalanmış "Yerli özünüidarə haqqında"

---

[8] Yerli özünüidarə haqqında Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №01, maddə 8

Avropa Xartiyası müvafiq bəyanatlarla birlikdə təsdiq edilmişdir.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının preambulasına əsasən Avropa Şurasının üzvü olub, bu Xartiyanı imzalamış dövlətlər aidiyyəti üzrə razılığa gəlmək üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əldə rəhbər tuturlar.

Avropa Şurasının üzvü olub, bu Xartiyanı imzalamış dövlətlər:

- Avropa Şurasının məqsədinin ümumi sərvət sayılan ideal və prinsiplərin təntənəsi və qorunması naminə onun üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu;
- idarəetmə sahəsində sazişlər bağlanmasının bu məqsədə xidmət edən vasitələrdən biri olduğunu;
- yerli özünüidarə orqanlarının istənilən demokratik quruluş əsaslarından birini təşkil etdiyini;
- dövlət işlərinin idarə edilməsində vətəndaşların iştirakı hüququnun Avropa Şurasının üzvü olan bütün dövlətlər üçün ümumi sayılan demokratik prinsiplərə aid olduğunu;
- real hakimiyyət verilmiş yerli özünüidarə orqanlarının mövcudluğunun səmərəli və eyni zamanda vətəndaşa yaxın idarəetməni təmin etməsi qənaətinə söykənərək;
- Avropanın müxtəlif ölkələrində yerli özünüidarənin müdafiəsinin və möhkəmləndirilməsinin demokratiya və hakimiyyətin mərkəzləşdirilməsi prinsiplərinə əsaslanan Avropanın qurulmasına əhəmiyyətli töhfə olduğunu dərk edərək;
- bunun, qərarlar qəbul etmək səlahiyyəti verilmiş, demokratik yolla yaradılmış orqanlara malik olan və öz səlahiyyəti, onun həyata keçirilməsi qaydası və bunun üçün zəruri olan vəsaitlər baxımından geniş muxtariyyətə malik olan yerli özünüidarə orqanlarının mövcudluğunu nəzərdə tutduğunu təsdiq edərək razılığa gəlmişlər.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 1-ci maddəsinə əsasən tərəflər Xartiyada təsbit edilmiş maddələrə bu Xartiyanın 12-ci maddəsində nəzərdə tutulmuş qaydada və həcmdə riayət etməyi öhdələrinə götürmüşlər.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasında təsbit edilmiş normalar mütərəqqi cəhətləri ilə diqqəti cəlb edir. Xartiyayada yerli özünüidarənin konstitusiya və qanunvericilik əsaslarının müəyyən edilməsi başlıca şərtlərdən biri hesab edilmişdir. Yerli özünüidarə prinsipi ölkə qanunvericiliyində və imkan daxilində ölkənin konstitusiyasında təsbit olunmalıdır.

Xartiyanın 3-cü maddəsi yerli özünüidarə anlayışı adlanır. Həmin maddənin 1-ci bəndində yerli özünüidarəetməyə aşağıdakı məzmunda anlayış verilmişdir. Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının dövlət işlərinin xeyli hissəsini reqlamentləşdirmək və qanun çərçivəsində fəaliyyət göstərərək, məsuliyyəti öz üzərinə götürməklə onu yerli əhalinin maraqlarına uyğun idarə etmək hüququ və real qabiliyyəti başa düşülür. Bu anlayış bir sıra mühüm əhəmiyyət kəsb edən elementləri özündə ehtiva etmişdir. Bunlara aşağıdakılar aiddir:

1) yerli özünüidarə orqanları dövlət işlərinin xeyli hissəsini reqlamentləşdirir;

2) yerli özünüidarə orqanları qanun çərçivəsində fəaliyyət göstərərir;

3) yerli özünüidarə orqanları məsuliyyəti öz üzərinə götürür;

4) yerli özünüidarə orqanlarının yerli əhalinin maraqlarına uyğun idarə etmək hüququ vardır;

5) yerli özünüidarə orqanlarının yerli əhalinin maraqlarına uyğun idarə etmək qabiliyyəti vardır.

Xartiyaya görə yerli özünüidarə orqanlarının bu hüququ azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət şuralar yaxud yığıncaqlar tərəfindən həyata keçirir. Şuraların yaxud yığıncaqların onlara hesabat verməli olan icra orqanları ola bilər. Burada nəzərdə tutulmuş

müddəlar qanunla yol verilən hallarda vətəndaşların yığıncaqlarına, referenduma və ya vətəndaşların birbaşa iştirakının hər hansı başqa formasına müraciət olunmasını istisna etmir.

Xartiyanın 4-cü maddəsi ilə yerli özünüidarənin səlayiyyət dairəsi aşağıdakı kimi müəyyən edilmişdir:

1) Yerli özünüidarə orqanlarının əsas səlahiyyətləri konstitusiya ilə müəyyən edilir;

2) Yerli özünüidarə orqanlarının əsas səlahiyyətləri qanunla müəyyən edilir;

3) Yerli özünüidarə orqanlarına qanuna müvafiq olaraq ayrı-ayrı konkret səlahiyyətlər də verilə bilər;

4) Yerli özünüidarə orqanları öz səlahiyyətləri daxilində hər hansı məsələyə dair öz təşəbbüslərini həyata keçirmək üçün qanunla müəyyən edilmiş hüdudlarda tam sərbəstliyə malikdirlər;

5) Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, bir qayda olaraq, əsas etibarı ilə vətəndaşlara daha yaxın olan hakimiyyət orqanlarına həvalə edilməlidir;

6) Bu səlahiyyətlərdən hər hansı birinin başqa bir hakimiyyət orqanına verilməsi qarşıya qoyulmuş vəzifənin həcmini və xarakterini, eləcə də səmərəlilik və qənaət tələblərini nəzərə almaqla həyata keçirilməlidir;

7) Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər, bir qayda olaraq, tam və müstəsna olmalıdır.

8) Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər başqa bir hakimiyyət orqanı, mərkəzi və ya regional orqan tərəfindən yalnız qanunla müəyyən edilmiş hüdudlarda mübahisələndirilə yaxud məhdudlaşdırıla bilər;

9) Mərkəzi və regional orqanların səlahiyyətlərinin həvalə edilməsi zamanı yerli özünüidarə orqanları imkan daxilində onların həyata keçirilməsini yerli şəraitə uyğunlaşdırmaq sərbəstliyinə malik olmalıdırlar;

10) Yerli özünüidarə orqanlarına bilavasitə aidiyyəti olan hər hansı qərarların planlaşdırılması və qəbulu prosesində bu orqanlarla məsləhətləşmək və bunu, imkan daxilində, qabaqcadan və müvafiq formada etmək zəruridir.

Yerli özünüidarə orqanlarının ərazi hüdudlarının qorunması məsələsi də Xartiyada nəzərdə tutulubdur. Xartiyada yerli ərazi hüdudlarının istənilən dəyişməsi zamanı müvafiq yerli özünüidarə orqanları ilə qabaqcadan məsləhətləşmək zəruri cəhətlərdən biri kimi ifadə edilmişdir. Qanunun yol verdiyi hallarda isə yerli ərazi hüdudlarının istənilən dəyişməsinə dair məsələni referendum yolu ilə də təmin etmək olar.

Xartiyanın 6-cı maddəsinə əsasən yerli hakimiyyət orqanları aşağıdakı şərtlər əsasında öz daxili inzibati strukturlarını müəyyən etmək hüququna malikdirlər:

1) ümumi hüquqi qüvvəyə malik qanunvericilik aktlarının müddəaları pozulmamalıdır;

2) yerli tələbata cavab verən idarəetməni təmin etməlidir;

3) yerli idarəetmənin səmərəliliyinə xidmət etməlidir.

Yerli özünüidarə orqanlarında fəaliyyət göstərən qulluqçuların iş şəraiti də zəruri məsələrdən biridir. Bu şəraitə müvafiq olaraq kadr seçimi həyata keçirilir. Yüksək ixtisaslı kadrlar seçimi zamanı təcrübənin və səriştəliliyin nəzərə alınması prinsiplərinə riayət edilməlidir.Xartiyada yerli özünüidarə orqanlarında fəaliyyət göstərən qulluqçuların peşə hazırlığının, əməyin ödənilməsinin və vəzifədə irəli çəkilməsinin müvafiq şərtlərinin təmin edilməsi də zəruri cəhətlərdən biri hesab olunur.

Xartiyanın 7-ci maddəsi ilə yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsinin şərtləri aşağıdakı kimi müəyyən edilmişdir:

1) yerli seçkili şəxslərin statusu onların səlahiyyətlərinin sərbəst həyata keçirilməsini təmin etməlidir;

2) yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı çəkdikləri xərclərin müvafiq pul kompensasiyasını almağa imkan verməlidir;

3) yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı zərurət olduqda, əldən çıxmış faydaya görə kompensasiyanı almağa imkan verməlidir;

4) yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı zərurət olduqda, əmək haqqına görə kompensasiyanı almağa imkan verməlidir;

5) yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı müvafiq sosial sığortanı almağa imkan verməlidir;

6) yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan istənilən funksiyalar yalnız qanunla yaxud əsas hüquqi prinsiplərlə müəyyənləşdirilə bilər;

7) yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan istənilən fəaliyyət yalnız qanunla yaxud əsas hüquqi prinsiplərlə müəyyənləşdirilə bilər.

Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə dair məsələ Xartiyanın 8-ci maddəsi ilə müəyyən edilmişdir. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarətin yalnız iki qaydası nəzərdə tutulmuşdur:

1) yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət konstitusiya ilə nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər;

2) yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş səlahiyyətləri

lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın müdaxilə dərəcəsi bu müdaxilənin qorumağı nəzərdə tutduğu maraqların əhəmiyyətinə mütənasib olsun.

Yerli özünüidarə orqanlarının maliyyələşmə mənbələrinə dair məsələ Xartiyanın 9-cu maddəsində ehtiva edilmişdir. Milli iqtisadi siyasət çərçivəsində yerli özünüidarə orqanlarının kifayət qədər maliyyə vəsaitlərinə malik olmaq hüququ vardır. Onlar öz funksiyalarını yerinə yetirmək üçün maliyyə vəsaitləri barədə sərbəst sərəncam verə bilərlər. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə yaxud qanunla onlara verilən səlahiyyətlərə mütənasib olmalıdır. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin heç olmazsa bir hissəsinin yerli rüsum və vergilər hesabına daxil olması da nəzərdə tutulmuşdur. Yerli özünüidarə orqanları qanunda nəzərdə tutulmuş hüdudlarda bunların dərəcələrini müəyyənləşdirmək hüququna malikdirlər. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin əsaslandığı maliyyə sistemləri yetərincə müxtəlif və çevik olmalıdır. Bunun nəticəsində yerli orqanları öz səlahiyyətlərini həyata keçirərkən sərf edilən xərclərin dəyişməsini mümkün qədər təmin edilə bilər. Maliyyə vəsaitləri daha zəif olan yerli özünüidarə orqanlarının qorunması üçün maliyyə tənzimi prosedurlarının yaxud yerli orqanların potensial maliyyələşmə mənbələrinin qeyri-bərabər bölüşdürülməsinin nəticələrini və onlar üzərinə düşən xərcləri təshih etmək üçün nəzərdə tutulmuş ekvivalent tədbirlərin tətbiqini tələb edir. Belə prosedurlar və ya tədbirlər yerli özünüidarə orqanlarının öz səlahiyyətləri hüdudlarında seçim sərbəstliyini məhdudlaşdırmamalıdır. Zəruri məsələlərdən biri də yenidən bölüşdürülən vəsaitlərin verilmə qaydasını yerli özünüidarə orqanları ilə lazımi qaydada razılaşdırmaqdır. Yerli özünüidarə orqanlarına verilən subsidiyalar imkan daxilində

müəyyən layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmamalıdır. Subsidiyaların verilməsi yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində siyasət seçimində əsas sərbəstliyinə ziyan vurmamalıdır. Kapital qoyuluşları üzrə xərclərin maliyyələşdirilməsi üçün yerli özünüidarə orqanları qanunvericiliyə riayət etməklə milli borc kapital bazarından istifadə edə bilməlidir.

Xartiyanın 10-cu maddəsində yerli özünüidarə orqanlarının birləşmək hüququ təsbit edilmişdir. Yerli özünüidarə orqanları öz səlahiyyətlərini həyata keçirərkən ümumi maraq doğuran vəzifələrin yerinə yetirilməsi üçün digər yerli özünüidarə orqanları ilə əməkdaşlıq etmək və qanunla müəyyənləşdirilmiş hüdudlarda onlarla birləşmək hüququna malikdirlər. Hər bir dövlətdə yerli özünüidarə orqanlarının ümumi maraqlarının qorunması və inkişafı üçün onların birliklərə və yerli özünüidarə orqanlarının beynəlxalq birliklərinə daxil olmaq hüququ tanınmalıdır. Yerli özünüidarə orqanlarına qanunla müəyyən edilə bilən şərtlər əsasında başqa dövlətlərin belə orqanları ilə əməkdaşlıq etmək hüququ verilir.

Xartiyanın 11-ci maddəsi ilə yerli özünüidarə orqanlarının hüquqi müdafiəsi təsbit edilmişdir. Həmin maddə ilə müəyyən edilmişdir ki, yerli özünüidarə orqanları özlərinin səlahiyyətlərinin və ölkə konstitusiyasında və qanunvericiliyində təsbit olunmuş yerli özünüidarə prinsiplərinə riayət edilməsinin sərbəst həyata keçirilməsini təmin etmək üçün məhkəmə müdafiəsi hüququna malik olmalıdırlar.

Avropa Şurası çərçivəsində yerli özünüidarəetməyə dair qəbul edilmiş mühüm əhəmiyyət kəsb edən beynəlxalq sənədlərin qısa xülasəsi ədəbiyyatda verilmişdir.[9]

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında 1980-ci il 21 may tarixli Avropa Çərçivə Konvensiyası.

---

[9] Səlimzadə M.İ., Xəlilov Q.R. Yerli özünüidarəetmə: anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar. Bakı: Elm və təhsil, 2010, s.72-80

Azərbaycan Respublikasının 2004-cü il 9 yanvar tarixli Qanunu[10] ilə "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyası və onun Əlavə protokolları təsdiq edilmişdir.

Həmin Konvensiyanın əsas məqsədi yerli və regional hakimiyyətlər arasında öz yurisdiksiyaları çərçivəsində transsərhəd əməkdaşlıq haqqında sazişlərin bağlanmasını təşviq etməkdən və köməklik göstərməkdən ibarətdir. Belə sazişlərə aşağıdaklar daxildir:

1) regional inkişaf;

2) ətraf mühitin qorunması;

3) ictimai xidmətlərin təkmilləşdirilməsi və sair məsələlər;

4) transsərhəd əməkdaşlıq assosiasiyalarının yaradılması;

5) yerli hakimiyyətlər birliklərinin yaradılması

Avropa Şurasının üzv olan dövlətlərin hüquqi və konstitusion sistemlərində fərqləri nəzərə almaq məqsədi ilə Konvensiya həm yerli, həm də regional hakimiyyətlərə transsərhəd əməkdaşlığı onlar üçün ən münasib çərçivəyə daxil etməyə imkan verən bir sıra nümunəvi sazişlər nəzərdə tutur. Konvensiyaya əsasən Razılığa Gələn Tərəflər transsərhəd əməkdaşlığa mane olan əngəlləri aradan qaldırmaq və belə beynəlxalq əməkdaşlıqda iştirak edən hakimiyyətlərə milli səviyyədə nəzərdə tutulan eyni imkanlar yaratmaq öhdəliyini öz üzərinə götürürlər.

Əcnəbilərin yerli səviyyədə ictimai həyatda iştirakı haqqında 1992-ci il 5 fevral tarixli Konvensiya.BuKonvensiyanın məqsədi əcnəbilərin cəmiyyətin həyatına inteqrasiya edilməsinə köməklik göstərilməsindən

---

[10] Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının və onun Əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2004-cü il 9 yanvar tarixli 576-IIQ Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №01, maddə 15

ibarətdir. Bu sənəd Razılığa Gələn Tərəfin vətəndaşı olmayan, lakin onun ərazisində qanuni əsaslarla yaşayan hər şəxsə aiddir. Konvensiyaya əsasən, Razılığa Gələn Tərəflər onların ərazilərində yaşayan əcnəbilərə, öz vətəndaşlarına olduğu kimi, “klassik hüquqlar” sayılan söz azadlığı, birləşmək hüququ, o cümlədən həmkarlar ittifaqlarını yaratmaq hüququna təminat verməyi öz üzərinə götürürlər. Bundan başqa, Razılığa Gələn Tərəflər əcnəbilərin yerli məsələlərlə bağlı məşvərət prosesinə cəlb olunması üçün səy göstərməlidirlər. Qanunla müəyyən edilmiş bir sıra şərtlər əsasında əcnəbilərin söz azadlığı və birləşmək hüququ məhdudlaşdırıla bilər. Konvensiya yerli səviyyədə yerli hakimiyyət orqanının ərazisində əcnəbilər tərəfindən seçilən və ya əcnəbilərin ayrı-ayrı assosiasiyaları tərəfindən təyin edilən məşvərətçi orqanların yaradılması imkanını verir. Konvensiyada, Razılığa Gələn Tərəfin əcnəbilərə yerli seçkilərdə səs vermək və onlar müvafiq ərazidə qanuni əsaslarla beş il müddətində yaşadıqda, yerli hakimiyyət orqanına seçilmək üzrə mümkün öhdəliyi də nəzərdə tutulur. Razılığa Gələn Tərəf əcnəbiləri yerli səviyyədə cəmiyyətin həyatı ilə bağlı onların hüquq və vəzifələri haqqında məlumatlandırmalıdır. Tərəflər, həmçinin əcnəbilərin yerli səviyyədə cəmiyyətin həyatında iştirakı prosesində olan inkişaf haqqında Avropa Şurasının baş katibini məlumatlandırmalıdırlar.

Regional dillər və milli azlıqların dilləri haqqında 1992-ci il 5 noyabr tarixli Avropa Xartiyası. Xartiya tarixi regional dillərin və azlıqların dillərinin müdafiəsinə və inkişaf etdirilməsinə köməklik göstərilməsini nəzərdə tutur. Bu sənəd bir tərəfdən, Avropanın mədəni ənənələrinin və irsinin dəstəklənməsi və inkişaf etdirilməsi, digər tərəfdən isə regional dillərin və azlıqların dillərinin şəxsi və ictimai həyatda istifadə edilməsi üzrə ayrılmaz və tanınmış hüquqa hörmətlə yanaşılması məqsədi ilə qəbul edilmişdir.

Birincisi, Xartiya Razılığa Gələn Tərəflərin onların ərazilərində istifadə edilən bütün regional dillərə və azlıqların dillərinə münasibətdə sadiq qalmağa öhdəlik götürdüyü aşağıdakı məqsəd və prinsipləri bəyan edir:

- hər bir dilin coğrafi sərhədlərinə hörmətlə yanaşılması;
- onun inkişafı zərurəti:
- bu dillərin ictimai və şəxsi həyatda yazılı və ya şifahi nitqdə istifadəsinin dəstəklənməsi və ya təşviq edilməsi.

İkincisi, Xartiya regional dillərin və azlıqların dillərinin ictimai həyatda irəli çəkilməsi üçün bir sıra konkret tədbirlər müəyyən edir. Bu tədbirlər aşağıdakı sahələrə aiddir:

- təhsil;
- ədalət mühakiməsi;
- inzibati hakimiyyətlər:
- ictimai xidmətlər;
- kütləvi informasiya vasitələri;
- mədəni fəaliyyət;
- iqtisadi fəaliyyət;
- sosial fəaliyyət;
- transsərhəd mübadilələr.

Razılığa Gələn hər bir Tərəf müvafiq siyahıdan seçilmiş yuxarıda sadalanmış sahələr üzrə məcburi tədbirlərdən ən azı 35 bəndi və ya yarımbəndi həyata keçirməyi öz üzərinə götürür. Bundan başqa, Razılığa Gələn hər bir Tərəf ratifikasiya, qoşulma və ya təsdiq sənədlərində yuxarıda göstərilən bəndlərin onun ərazisində və ya onun bir hissəsində geniş istifadə edilməyən regional dilə, azlıqların dilinə və ya rəsmi dilinə münasibətdə tətbiq edilməsini konkret göstərməlidir. Xartiyanın həyata keçirilməsinə nəzarət Razılığa Gələn Tərəflərin təqdim etdiyi məruzələrə vaxtaşırı baxan ekspertlər komitəsi tərəfindən həyata keçirilir.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına1995-ci il 9 noyabr tarixli Əlavə Protokol. Protokolun məqsədi müəyyən

şərtlərin mövcudluğu ilə ərazi icmaların transsərhəd əməkdaşlıq haqqında sazişlər bağlamaq hüququnu tanımaqla Çərçivə Konvensiyasını gücləndirməkdən ibarətdir. Qeyd edilən sazişlər çərçivəsində qəbul edilən akt və qərarlar daxili hüququn qüvvəsinə malikdirlər. Bununla yanaşı, sənəddə transsərhəd əməkdaşlıq haqqında sazişə əsasən yaradılan belə əməkdaşlıq üzrə istənilən orqanın hüquq subyektliyi də tanınır. Konvensiya və onun bu Protokolu Avropada yerli və regional hakimiyyətlərin transsərhəd əməkdaşlığı üçün ümumi hüquq çərçivələri qismində Avropa Şurasının üzvü olan yeni dövlətlər üçün onların daxili islahatlar prosesinin inkişafında faydalı olacaqdır.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 1998-ci il5 may tarixli 2 saylı Protokol. 2 saylı Protokol Razılığa Gələn Tərəflər arasında transsərhəd əməkdaşlıq üçün hüquqi çərçivə müəyyən edir. Bu sənəd Konvensiyanı və Əlavə Protokolu tamamlayır. Bununla yanaşı icmaların və hakimiyyətlərin onlarla ümumi sərhədlərə malik olmayan tərəfdaşlarla ərazilərarası əməkdaşlıq haqqında sazişlər bağlamaq hüququnu tanıyır.

Landşaftlar haqqında 2000-ci il 20 oktyabr tarixli Avropa Konvensiyası. Bu Konvensiya Avropada landşaftların tənzimlənməsi və qorunması üçün hakimiyyət orqanları tərəfindən yerli, regional, milli və beynəlxalq səviyyələrdə siyasətin həyata keçirilməsinə və tədbirlərin görülməsinə köməklik göstərilməsini özündə ehtiva edir. Bu sənəd insanların yaşadığı ətraf mühitin keyfiyyətini müəyyən edən bütün landşaftları, həm adi, həm də görkəmli landşaftları əhatə edir. Konvensiyada "landşaft sahəsində siyasətin" işlənib hazırlanmasına və yerli və regional hakimiyyət orqanları arasında qarşılıqlı fəaliyyətin, habelə landşaftların qorunması üzrə transsərhəd əməkdaşlığın təşviq edilməsinə yönələn milli və beynəlxalq səviyyələrdə hüquqi və maliyyə tədbirləri təklif

edilir. Konvensiyada, həmçinin dövlətlər tərəfindən, öz konkret tələbatlar nəzərə alınmaqla, istifadə edilə bilən məsələnin müxtəlif həlli yollarının paketi təsbit edilmişdir. Konvensiyanın həyata keçirilməsini Avropa Şurasının qeyri-hökumət komitələri tərəfindən izlənməsi nəzərdə tutulubdur. Konvensiyada, landşaftların qorunması, idarə edilməsi və planlaşdırılması üzrə nümunəvi və uzunmüddətli siyasət və tədbirlər həyata keçirən yerli və regional hakimiyyətlərə və ya qeyri-hökumət təşkilatlarına təqdim edilən Avropa Şurasının landşaftlar sahəsində mükafatla təltif olunma da nəzərdə tutulur.

Gənclərin şəhərlərin və regionların həyatında iştirakı haqqında 2003-cü il 21 may tarixli Xartiya. Xartiya öz mahiyyətinə görə gənclərin onların maraqlarına birbaşa toxunan məsələlər üzrə qərarların qəbul edilməsində iştirakının dəstəklənməsini nəzərdə tutur. Bu sənəd gənc insanları bələdiyyə və regional səviyyələrində sosial dəyişikliklərin reallaşdırılmasında daha fəal olmağa çağırır.

Avropa Şəhərlər Xartiyası (29 may 2008-ci il). Xartiya vətəndaşların Avropa şəhərlərində hüquqlarını təsbit edir. Bu sənəd şəhər idarəetməsi, şəhərsalma, nəqliyyat, kommunal təsərrüfat, idman, ekologiya, habelə vətəndaşların təhlükəsizliyinin təmin edilməsi sahəsində praktiki rəhbər prinsipləri özündə ehtiva etmişdir.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Avroregionların əməkdaşlıq qruplarına dair 3 saylı 2009-cu il 16 noyabr tarixli Əlavə Protokol.Avropa Çərçivə Konvensiyasına 3 saylı Protokol "avroregionların əməkdaşlıq qrupları"nın hüquqi statusunu, yaradılmasını və fəaliyyətini nəzərdə tutur. Tərkibində Razılığa Gələn Tərəflərin yerli hakimiyyət orqanları və digər dövlət orqanları daxil olan bu qrupların məqsədi onun üzvləri tərəfindən öz səlahiyyətləri daxilində transsərhəd və ərazilərarası əməkdaşlığın həyata keçirilməsindən ibarətdir. Bu Protokol əsasında Avropa Şurası Razılığa Gələn Tərəflər

tərəfindən avroregionların əməkdaşlıq qruplarının səmərəli fəaliyyətinin təmin edilməsi üzrə müvafiq milli qanunların qəbul edilməsinə köməklik göstərilməsi üçün milli qanunvericilik modellərini işləyib hazırlaya bilər.

Yerli Özünüidarə haqqında Avropa Xartiyasına yerli hakimiyyətin işlərində iştirak etmək hüququ üzrə 2009-cu il 16 noyabr tarixli Əlavə Protokol.Bu Əlavə Protokol yerli hakimiyyət orqanının işlərində iştirak etmək hüququna münasibətdə beynəlxalq hüquqi təminatın verilməsinə görə Yerli Özünüidarə haqqında Avropa Xartiyasına dair yeni ölçü əlavə edir. Yerli hakimiyyət orqanının işlərində iştirak etmək hüququ dedikdə, yerli hakimiyyət orqanının səlahiyyətlərinin və məsuliyyətinin həyata keçirilməsi xarakterinin müəyyən edilməsi və ona təsir göstərilməsi nəzərdə tutulur. Bu Protokolda Tərəflərdən bu hüququn həyata keçirilməsinə köməklik göstərilməsi və onun təmin edilməsi üzrə hüquqi və digər tədbirlərin görülməsi tələb olunur. Protokol, həmçinin iştirak etmək hüququnun yerinə yetirilməsinin yerli hakimiyyətlərin səlahiyyətlərinin və məsuliyyətinin həyata keçirilməsi zamanı etik düzgünlüyə və şəffaflığa xələl gətirməməsinin təmin edilməsi üçün zəruri olan tədbirlər görülməsini tələb edir.

# II FƏSİL

# BƏLƏDİYYƏLƏRİN HÜQUQİ STATUSU

## 2.1. Bələdiyyələrin yaradılmasının prinsipləri

Müasir dövlət idarəçiliyinin həyata keçirilməsinin müxtəlif formaları mövcuddur. Hüquqi, demokratik cəmiyyəti şərtləndirən əsas amillərdə biri məhz xalq hakimiyyətidir. Xalq hakimiyyətinin dövlət hakimiyyəti vasitəsi ilə həyata keçeirilməsinin konstitusion prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının birinci fəsli "Xalq hakimiyyəti" adlanır. Azərbaycan Respublikasının Konstitusiyasının "Hakimiyyətin mənbəyi" adlanan 1-ci maddəsində[11] deyilir ki, "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir". Azərbaycan Respublikasının Konstitusiyasının "Xalqın suverenliyi" adlanan 2-ci maddəsində [12] isə deylir ki, "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir".

---

[11] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009
[12] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

Azərbaycan Respublikasının Konstitusiyasının "Dövlətin idarə olunmasında iştirak etmək hüququ" adlanan 55-ci maddəsində[13] isə təsbit edilibdir ki, "Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər".

Dövlət idarəçiliyi özünün miqyasına və realizə olunma xüsusiyyətlərinə görə iki əsas növə ayrılır: mərkəzi dövlət idarəçiliyi və yerli dövlət idarəçiliyi. Bu iki növün arasında aralıq mövqedə duran regional idarəçilik də mövcuddur, lakin regional idarəçilik nadir hallarda xüsusi təşkilati formalara malik olur. Bu da onunla bağlıdır ki, idarəetmənin əsas funksiyaları regional səviyyədə deyil, mərkəzi və yerli səviyyədə həyata keçirilir. Buradan göründüyü kimi, söhbət dövlət idarəçiliyindən gedir. Lakin məsələ burasındadır ki, idarəçilik sadəcə, dövlətə xas olan fəaliyyət sahəsi və ya funksiya deyil. İdarəçilik iqtisadiyyatda, təbiətdə (ekosistemlərin daxili tənzimlənmə mexanizmi-daxili idarəçiliyi), ailədə və bir çox tamam fərqli sferalarda mövcuddur. Bu da ondan yaranır ki, idarəçilik sistem kimi təşkil olunan istənilən orqanizmin (sosial, dövlət, bioloji) əlamətidir. İdarə olunmayan (daxildən və ya xaricdən) sistemin olması qeyri-mümkündür. Bütün idarəçilik növləri içərisində ən mürəkkəbi və çoxşaxəlisi məhz dövlət idarəçiliyidir. Dövlət cəmiyyəti və bir çox digər sahələri idarə edir. Lakin idarəçilik idarəolunan obyektin və şəratin qarşiya qoyulan məqsəddən kəskin şəkildə asılı olduğu bir fəaliyyətdir. Ona görə də iki çox yaxın sahədə idarəçilik bir-birindən çox fərqlənir və müxtəlifliyin nəzərə alınması dövlət idarəçiliyi üçün müstəsna

---

[13] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

əhəmiyyətə malikdir. Əks təqdirdə idarəçilik mümkün ola bilməz. Lakin bu, idarəçilikdə müəyyən problemlər yaradır. Dövlət bəzən bu qədər çox müxtəlifliyi nəzərə almaq iqtidarında olmur. Bunun üçün onun imkanları azlıq edir və bu imkanlar bəzən düz bölüşdürülmür. Nəticədə dövlət üçün əlavə, bir qayda olaraq, mənfi nəticələr verən idarəçilik yükü ortaya çıxır. Bir növ dövlətin idarəetmə imkanlarına uyğun gəlməyən əlavə tənzimləmə sahəsi yaranır ki, dövlət bunun öhdəsindən çətinliklə gəlir. Bir çox hallarda da qarşıya qoyulan məqsədə nail olmaq olmur və ortaya yeni problemlər çıxır. Bundan yayınmağın hələlik ən faydalı yolu idarəçilik yükünün səmərəli şəkildə paylanmasıdır. Konkret olaraq bu, dövlət idarəetməsində idarə olunan obyektlərin bəzilərinə özü-özünü idarə etmək imkanının verilməsidir. Bunun üçün obyektin hansı sahələrdə, hansı həddə qərarlar qəbul edəcəyi müəyyənləşdirilir və dövlət operativ müdaxilə əsaslarını saxlamaqla həmin sahəyə toxunmur. Bunun hüquqi təzahürü muxtariyyətdir. Yerli dövlət idarəçiliyi də əslində belə bir zərurətdən doğmuşdur.[14]

Yerli özünüidarəetmə cəmiyyətin mühüm bir ictimai institutu kimi demokratik başlanğıcların əsas atributlarını özündə əks etdirən bir təşəkküldür. İnsan yaranışından bəri onu əhatə edən mühitin daimi dəyişikliklərlə müşahidə olunması, digər məsələlərlə yanaşı, həm də insanların qarşıya çıxan problemlərinin həlli üsullarının təkmilləşdirilməsi ilə əlaqədardır. Cəmiyyəti idarə edə biləcək qurumun – dövlətin yaranması da bununla bağlı olmuşdur. Lakin dövlət cəmiyyətin üzərində duran və ona öz göstərişlərini diktə edən, siyasi hakimiyyəti həyata keçirən bir siyasi təşkilata çevrildiyindən tədricən insanların özləri yaşadıqları konkret ərazi çərçivəsində lokal problemlərini həll edə biləcək xüsusi bir təsisata daha çox ehtiyac duyurdular. Belə bir təsisat onların bilavasitə özləri

[14] Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2006, s.484-485

tərəfindən formalaşdırılan özünüidarə qurumları idi.[15]

Yerli özünüidarə müxtəlif səbəblərdən yaranır. Yerli özünüidarəetmə çox qədim tarixə malikdir. Yerli özünüidarəetmənin yaranmasına səbəb olan amillərdən biri dövlət idarəetməsində işlərin bərabər bölünməsidir. Yerli özünüidarəetmənin yaranmasına səbəb olan digər amil isə idarəetmənin özünün ümumi məqsədlərindən irəli gəlir.

İstənilən idarəçiliyin əsas məqsədlərindən biri qarşıya qoyulmuş hədəflərə daha səmərəli və mütərəqqi üsullarla çatmaqdan ibarətdir. Bu amillər dövlət idarəetməsini də şərtləndirir. Bunun ən əsas üsullarından biri idarə olunan obyektin marağının nəzərə alınmasıdır. Bu zaman idarə olunanın marağının ödənilməsi qarşıyaqoyulan məqsədlə və ya idarə edənin davranışı ilə əlaqələndirilir və nəticədə də idarə olunanın lazımi istiqamətdə müstəqil fəaliyyəti stimullaşdırılır. Bu zaman dövlət idarəetmənin əsas funksiyalarından biri olan daimi nəzarət funksiyasını yerinə yetirməkdən qismən azad olur. Özünüidarəetməni törədən zəruri səbəblərdən biri də yerli özünüidarəetmənin səmərəliliyi məsələsi olmuşdur. Muxtariyyət bütün bunların hamısını özündə birləşdirir və qarşıya qoyulan məqsədə çatmağa imkan verir. Yerli özünüidarəetmənin əmələ gəlməsi səbəbi də bu iki başlıca faktordur. Birincisi, dövlət öz işlərinin bir hissəsini müəyyən subyektlərə verir (müvəkkil edir) və bununla da, idarəçilik imkanlarına qənaət olunur, ikincisi, idarəçilik verilən subyektlərə məsələləri öz nöqteyi-nəzərincə və deməli, öz marağına uyğun həll etmək imkanı verməklə onun qarşıya qoyulan məqsədlərə çatmaq istəyini stimullaşdırır və beləliklə, özünüidarəetmənin səmərəli olması müəyyən qədər təmin olunmuş olur. Burada müəyyən bir qanunauyğunluq müşahidə olunur. Aydındır ki, yerli problemləri həmin yerin sakinlərindən daha yaxşı kimsə bilə bilməz. Bilsə belə, bu problemlərin həllində onlar qədər maraqlı ola bilməz, çünki əldə

---

[15] İsmayılov X.C. Azərbaycanda yerli özünüidarəetmənin normativ hüquqi əsasları (genezisi və təkamülü). Bakı: Elm və təhsil, 2011, s.9

ediləcək müsbət nəticədə birbaşa yerli sakinlərin maraqları ödəniləcəkdir. Lakin yerli əhalinin marağı şəxsi deyil, ümumi-ictimai, kütləvi maraqdır və bu, ictimai maraqları təmin etməli olan dövlətin maraqları ilə üst-üstə düşür. Hətta region əhalisinin marağına dövlətin özünün regional marağı demək belə özünü doğruldur. Dövlət yerli sakinləri idarəçilikdə maraqlı etməklə özünün də maraqlarını qismən ödəmiş olur. Çünki dövlətin həmin səmərəli idarəçiliklə bağlı marağı ödənilmiş olur. Deməli, dövlət idarəçilikdə idarəolunanı maraqlandırmaqla həm də öz maraqlarını qismən təmin etmiş olur. Bu da onda əks olunur ki, dövlət idarəçilik imkanlarına qənaət edilir və idarəolunan subyekt dövlətin maraqlarına daxil olan istiqamətdə hərəkət etməklə idarəçilik məqsədlərinə nail olmanı tezləşdirir. Yerli idarəçilik dövlət orqanları tərəfindən həyata keçirilir. Bu zaman mərkəzdən verilən göstərişlər və özlərinin səlahiyyətləri çərçivəsində dövlət orqanları ərazinin problemlərini həll edirlər. Lakin yuxarıda göstərilən faktorlar (birincisi, dövlət idarəçilik imkanlarına qənaət və idarəçilik yükünün azaldılması, ikincisi, idarəetmənin daha da səmərəli olması və dövlət maraqlarının ödənilməsi) dövləti özünün idarəetmə funksiyasını müxtəlif qurumlarla bölüşdürməyə sövq edir. Nəticədə də yerli özünüidarəetmə ortaya çıxır.

Yerli özünüidarəetmə, bütün deyilənlərdən göründüyü kimi, qanunvericiliyin tutduğu mövqeyə baxmayaraq (hal-hazırda Azərbaycan Respublikasında qanunvericilik yerli özünüidarəetməni və dövlət idarəetməsini, zəruri əlaqələr istisna olmaqla, bir-birindən çox güclü təcrid edir), dövləti fəaliyyətə yaxın bir fəaliyyətdir. Yerli özünüidarəetmə dövlət idarəetməsindən bir qədər fərqlənir. Eyni ilə dövlət idarəçiliyi kimi bu idarəçilik də ictimai maraqların təmin edilməsinə yönəlibdir. Bunu o da sübut edir ki, yerli özünüidarəetmə bir sıra sırf dövlət hakimiyyəti funksiyalarına malikdir (vergi müəyyən etmək və yığmaq) və təbiətən yaxınlıqları imkan verir ki, dövlət orqanları öz səlahiyyətlərinin bir hissəsini yerli

idarəçilik orqanları arasında bölüşdürsün. Onlar bir-birilə sıx əlaqədədirlər və birgə fəaliyyət göstərirlər. Yerli özünüidarəetmədə istənilən hər şey son nəticədə yerli dövlət idarəetməsinə birbaşa təsir göstərir və əksinə. Yerli özünüidarəetmə mahiyyətcə bu və ya digər ərazinin əhalisinə öz işlərini həll etmək üçün müəyyən muxtariyyətin verilməsidir. Burada yerli kollektivin marağı öz işlərinin həlli zamanı ona müstəqil davranmaq imkanı verməklə təmin edilir. Muxtariyyətin marağı stimullaşdıran vasitə kimi çıxış etməsinə səbəb odur ki, o yerli kollektivə öz marağına uyğun davranış forması seçməyə imkan verir. Yerli özünüidarəetmə demokratik dövlətlərin əsas əlamətlərindən biri kimi xarakterizə edilir. Buna səbəb odur ki, o həm də vətəndaşların idarəçilikdə aktivliyini stimullaşdırır və bununla da vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-dövlət sosial təsisatların idarəçilikdə mühüm yer tutmasını təmin edir.[16]

"Yerli özünüidarə haqqında"1985-ci il 15 oktyabr tarixli Avropa Xartiyasının yerli özünüidarə anlayışı adlanan 3-cü maddəsinin 1-ci bəndində yerli özünüidarəetməyə aşağıdakı məzmunda anlayış verilmişdir. Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının dövlət işlərinin xeyli hissəsini reqlamentləşdirmək və qanun çərçivəsində fəaliyyət göstərərək, məsuliyyəti öz üzərinə götürməklə onu yerli əhalinin maraqlarına uyğun idarə etmək hüququ və real qabiliyyəti başa düşülür."Yerli özünüidarə haqqında" Avropa Xartiyasında da qeyd edilir ki, yerli özünüidarə dövlət işlərinin yerinə yetirilməsidir. Bu halda dövlətin bütün işinin deyil, yalnız yerli özünüidarə ilə əlaqədər olaraq dövlət işlərinin idarə olunması nəzərdə tutulur. Bununla da, dövlət yerli əhaliyə özünü idarə etmək hüququ verir. Yerli özünüidarəetmə fəaliyyəti qanunvericilik çərçivəsində və qanunla müəyyən edilmiş məsuliyyəti üzrə həyata keçirilir. Yerli özünüidarəetmə

[16] Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2006, s.485-488

fəaliyyəti qanunvericilik çərçivəsindən kənar ola bilməz. Yerli özünüidarəetmə fəaliyyəti dövlət tərəfindən müəyyən edilr və yerli əhaliyə verilir. Bu tip məsuliyyət yerli özünüidarəetmənin əlaməti olan muxtariyyətin nəticəsində yaranır. Buna görə də yerli özünüidarəetmə muxtar subyekt hüququna malik olur və öz davranışına görə yalnız özü məsuliyyət daşıyır. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasında verilmiş anlayışa görə:

1) yerli özünüidarəetmə nizamasalma hüququdur;

2) yerli özünüidarəetmə idarəetmə hüququdur.

Göründüyü kimi yerli özünüidarəetmə, icra-sərəncam (idarəetmək hüququ) fəaliyyəti olmaqla yanaşı müəyyən dərəcədə normayaradıcılığına da malikdir. Məcburi davranış qaydası müəyyən etmədən yerli özünüidarə orqanları tam muxtariyyət hüququna malik ola bilməz.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasında nəzərdə tutulmuş real bacarıq ifadəsi yerli özünüidarəetmənin təminatlarını özündə ehtiva edir. Qanunvericilik səviyyəsində nəzərdə tutulmuş müvafiq təminatları olmayan, öz kadr potensialını, o cümlədən idarəçilik potensialını formalaşdırmaq üçün vasitələri olmayan yerli özünüidarəetmə qarşıya qoyulan məqsədləri demək olar ki, tam mənasında ödəyə bilməz.

Yerli özünüidarəetmə ərazi kollektivinin və dolayısı ilə hər bir vətəndaşın dövlətlə və cəmiyyətlə qarşılıqlı münasibətlərində özünüifadə üsuludur. Tamamilə yuxarıdan təşkil edilməklə və təyinatla qurulan idarəçilik özünüidarəetmə adlana bilər, amma mahiyyətcə özünüidarəetmə ola bilməz. Odur ki, həm beynəlxalq aktlarda, həm də milli qanunvericiliyimizdə yerli özünüidarəetmənin təşkili üsulu kimi əhali tərəfindən seçilmə göstərilir. Deyilənlərə əsasən yerli özünüidarəetmənin əsas əlamətlərini aşağıdakı kimi ifadə etmək olar:

1) Yerli özünüidarəetmə sistematik, ictimai fəaliyyət sferasıdır;

2) Bu fəaliyyət yerli sakinlərin mənafeləri ilə bağlıdır (bu mənafelərin idarəetmənin səmərəliliyi üçün nəzərə alınması);

3) Bu fəaliyyət bir qayda olaraq qeyri-dövlət fəaliyyətidir;

4) Onu xüsusi subyektlər - seçkili qeyri-dövlət orqanları həyata keçirir.[17]

Yerli özünüidarənin prinsipləri yerli özünüidarə institutunun əlamətini, xüsusiyyətlərini, yaradılması ve işləmə mexanizimini və mahiyyətini müəyyənləşdirir.Yerli özünüidarənini prinsipi dedikdə, əhali tərəfindən yaradılmış müstəqil şəkildə yerli əhemiyyətli məsələləri həll edən yerli özünüidarə orqanlarının təşkili və fəaliyyəti əsaslarını şərtləndirən başlanğıc və ideyalar başa düşülür.

Yerli özünüidarənin prinsiplərinin təsnifatınaaşağıdakılar daxildir:

1) yerli əhəmiyyətli məsələlərin müstəqil həll edilməsi prinsipi;

2) yerli əhəmiyyətli məsələlərin sərbəst həll edilməsi prinsipi;

3) bələdiyyə orqanlarının dövlətin idarəetmə sistemindən ayrı olması prinsipi;

4) bələdiyyə orqanlarının ümumi vəzifə və funksiyaların həyata keçirilməsində dövlət orqanları ilə qarşılıqlı iştirakı prinsipi;

3) yerli özünüidarənin maliyyə və maddi resurslarının onun səlahiyyətinə uyğun olması prinsipi;

4) insan və vətəndaş hüquq və azadlıqlarının gözlənilməsi prinsipi;

5) yerli özünüidarənin təşkili və fəaliyyətində qanunçuluq prinsipi;

6) yerli özünüidarənin fəaliyyətində aşkarlıq prinsipi;

7) yerli özünüidarə fəaliyyətində təkbaşçılıq və kollegialıq prinsipi;

8) yerli özünüidarəyə dövlət təminatı prinsipi.

---

[17] Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2006, s.490

Bu prinsiplərin hər biri müəyyən məzmuna malikdirlər.

Yerli əhəmiyyətli məsələlərin müstəqil və sərbəst şəkildə həll edilməsi prinsipləri "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanununun 1-ci maddəsində [18] təsbit edilmişdir. Bu prinsiplər yerli özünidarənin mahiyyətini təşkil edən əsas prinsiplərdir. Əhali yerli əhəmiyyətli məsələləri həll etmək hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmek, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsi iləhəyata keçirir.Yerli özünüidarənin həyata keçirilməsi forması və bu orqanların strukturu əhali tərəfindən müstəqil şəkildə müəyyənləşdirilir. Yerli özünüidarənin təşkili və heyata keçirilməsi ilə bağlı məsələlər bələdiyyə nizamnaməsi ilə tənzim olunur. Bələdiyyə nizamnaməsi bələdiyyə orqanları tərəfindən işlənib hazırlanır vəəhali tərəfindən bilavasitə və ya onun nümayəndəsi yerli özünüidarə orqanı tərəfindən qəbul edilir.Əhalinin yerli əhəmiyyətli məsələlərin həllində sərbəstliyi onun iqtisadi, maliyyə sahəsində müstəqilliyini şərtləndirir. Yerli özünüidarə orqanları mülkiyyətdə olan əmlak üzərində sərbəst sərəncam verir, yerli büdcəni təstiq və icra edir, Azerbaycan Respublikasının qanunlarına uyğun olaraq yerli vergiləri, ödənişləri, onların ödənilməsi üzrə güzəştləri müəyyən edir. Bələdiyyə qanunvericiliyi ilə dövlət orqanlarının və onun vəzifəli şəxslərinin yerli özünüidarəetmə orqanlarının daxili işinə müdaxilə etməsinə yol verilmir.Bələdiyyə qurumları öz səlahiyyətləri daxilində ümumi məcburi qaydalar müəyyənləşdirir. Bələdiyyə qurumlarının inkişafı üzrə proqram və planlar qəbul etdiyi qərarların həmin ərazidə yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən icra etməsi məcburidir. Əks halda qanunda nəzərdə tutulan məsuliyyətin yaranmasına səbəb olur. Bələdiyyələr Konstitusiya və müvafiq

---

[18] Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 698-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №07, maddə 405

qanunlarla müəyyən edilmiş səlahiyyətləri daxilində müstəqildirlər. Bu səlahiyyətlərin məhdudlaşdırılmasına yol verilmir. Bələdiyyənin qanunla müəyyən edilmiş hüquqlarıpozulduğu hallarda məhkəmə müdafiəsi ilə təmin edilir.

Bələdiyyə orqanlarının dövlətin idarəetmə sistemindən ayrı olması və ümumi vəzifə, funksiyaların həyata keçirilməsində dövlət orqanları ilə qarşılıqlı iştirakı prinsipləri. Bu prinsipin məzmunu "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanununun 1, 2 və 14-cü maddələrində təsbit edilmişdir. Qanuna müvafiq olaraq bələdiyyə və bələdiyyə orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 6-cı maddəsinə əsasən yerli hakimiyyət orqanları daha ümumi qanunvericilik müddəalarını pozmadan, yerli tələbata cavab verən və səmərəli idarəetməni təmin edən öz daxili inzibati strukturlarını özləri müəyyənləşdirmək hüququna malik olmalıdırlar. Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti elə olmalıdır ki, təcrübə və səriştəliliyin nəzərə alınması prinsiplərinə əsaslanan yüksək ixtisaslı kadrlar seçimini təmin etmək mümkün olsun; bundan ötrü peşə hazırlığının, əməyin ödənilməsinin və vəzifədə irəliçəkilmənin müvafiq şərtlərinin təmin edilməsi zəruridir. Həmin Xartiyada nəzərdə tutulmuş müddəalara müvafiq olaraq "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanununun 8-ci maddəsində bələdiyyə orqanlarının adları, strukturu, səlahiyyətləri və formalaşdırılması qaydası bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilən bələdiyyənin nizamnaməsi ilə müstəqil müəyyən edilir. Bu prinsip bələdiyyə orqanlarını bir-biri ilə, bələdiyyə orqanlarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətini özündə ehtiva edir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununu ilə yerli özünüidarənin vəzifəli şəxsləri və orqanları arasında münasibətlərin xarakterik xüsusiyyətləri aşağıdakı prinsipləri üzrə müəyyən edilmişdir:

1) dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir;

2) bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət qulluqçuları kateqoriyasına aid deyildir;

3) bələdiyyə qərarları onları qəbul etmiş orqanlar tərefindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər;

Yerli özünüidarənin maliyyə və maddi resurslarının onun səlahiyyətinə uyğun olması prinsipi.Yerli özünüidarənin maddi və maliyyə resursları onun səlahiyyətlərinə uyğun olmalıdır. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 9-cu maddəsi ilə müəyyən edilmişdir ki, yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə yaxud qanunla onlara verilən səlahiyyətlərə mütənasib olmalıdır.

Azərbaycan Respublikası qanunvericiliyi ilə bələdiyyələrin iqtisadi və maliyyə müstəqilliyinə, o cümlədən bələdiyyə mülkiyyətinə rəvac verilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının[19] "Mülkiyyət" adlanan 13-cü maddəsində təsbit edilmişdir ki, "Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz".

Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, müəssisələr, daşınar və daşınmaz əmlak daxildir.

[19] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

Yerli özünüidarə orqanlarının müstəqil şəkildə yerli vergi vəödənişləri müəyyən etmək, yerli büdcəni icra etmək hüququ Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsində aşağıdakı kimi təsbit edilibdir:

1) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

2) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

3) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

4) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 2-ci maddəsi ilə bələdiyyələrin zəruri şərti kimi onun öz mülkiyyətinə və yerli büdcəyə malik olmaq hüququ təsbit edilmişdir. Qanun bələdiyyə qurumları arasında səlahiyyət həddi gözlənilməklə onların iqtisadi və maliyyə müstəqilliyi ilə təmin olunmasını nəzərdə tutmuşdur. Bələdiyyə ərazisində yaradılmış bələdiyyə ittifaqı və digər qurumlara bələdiyyələrin səlahiyyətləri verilə bilməz.

İnsan və vətəndaş hüquq və azadlıqlarının gözlənilməsi prinsipi. Azərbaycan Respublikası Konstitusiyasının "Bərabərlik hüququ" adlanan 25-ci maddəsində təsbit edilibdir ki, "Hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların

verilməsindən imtina oluna bilməz. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir".

Azərbaycan Respublikası Konstitusiyasının "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi" adlanan 26-cı maddəsində isə təsbit edilibdir ki, "Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir".

Vətəndaş yaşadığı ərazidə əmək və digər fəaliyyət növü ilə məşğul olaraq öz hüquq və azadlıqlarını həyata keçirir. Bu da yerli özünüidarə orqanlarının fəaliyyətindən asılıdır.Bu prinsip əhalinin həyat fəaliyyəti üzrə məsələləri bələdiyyələrin həll etməsində təmin olunur. Həmin məsələlər yerli həyatın əsas sahələri hesab edilən - təhsil, səhiyyə, mənzil, kommunal, nəqliyyat və digər xidmət növlərini əhatə edir. Yerli əhəmiyyətli sosial-iqtisadi hüquq və azadlıqların realizəsinə imkan verir.

İctimai asayişin qorunmasını, bələdiyyələrə seçkilərin və digər seçkilərin baş tutmasını təmin edən yerli özünüidarə orqanlarının fəaliyyəti vətəndaşların yüksək səviyyədə hüquq və azadlıqlarının həyata keçirməsinə şərait yaradır.Şəhər, kənd və digər ərazi vahidləri üzrə bələdiyyə qurumlarının təsis olunması vətəndaşlara yerli əhəmiyyətli məsələlərin həllində (bilavasitə və ya bilavasitə) iştirakını şərtləndirir.

Yerli özünüidarənin təşkili və fəaliyyətində qanunçuluq prinsipi.Qanunçuluq prinsipi Azərbaycan dövlətçiliyinin əsas konstitusion prinsiplərindən biri hesab edilir.

Azərbaycan RespublikasıKonstitusiyasının[20] 72-ci maddəsi ilə "Vətəndaşların vəzifələrinin əsası" aşağıdakı kimi müəyyən edilmişdir: "Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya

---

[20] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

qanunla qoyula bilər.Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.Qanunu bilməmək məsuliyyətdən azad etmir".

Bu maddədə təsbit edilmiş normalardövlət orqanları ilə yanaşı hüquqi şəxs hesab olunan yerli özünüidarə orqanlarına da şamil olunur.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunun "Yerli özünüidarənin hüquqlarını məhdudlaşdırmağın qadağan olunması" adlanan 47-ci maddəsi ilə müəyyən edilmişdir ki, "Yerli özünüidarənin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş hüquqlarının məhdudlaşdırılması qadağandır. Konstitusiya quruluşunun qorunması, ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüquqları yalnız qanuna əsasən və qanunda müəyyənləşdirilmiş müddətə məhdudlaşdırıla bilər".

Qanunçuluq prinsipi özlüyündə yerli özünüidarənin təşkili və fəaliyyətininqanun əsasında və qanun çərçivəsində həyata keçirilməsini tələb edir. Dövlət yerli özünüidarəni tanıyaraq onun fəaliyyətinin qanuniliyinə nəzarət edir.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 8-ci maddəsi ilə dövlətin yerli özünüidarə orqanlarının fəaliyyetinə nəzarət etməsinin 3 əsas amili aşağıdakı kimi müəyyən edilmişdir:

1. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət yalnız konstitusiya ilə yaxud qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş

səlahiyyətləri lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın müdaxilə dərəcəsi bu müdaxilənin qorumağı nəzərdə tutduğu maraqların əhəmiyyətinə mütənasib olsun.

Yerli özünüidarənin təşkili və fəaliyyətində qanunçuluğun təmini məhkəmə orqanları vasitəsi ilə də hayata keçirilir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun "Yerli özünüidarənin məhkəmə müdafiəsi" adlanan 50-ci ilə müəyyən edilmişdir ki, "Bələdiyyənin ərazisində yaşayan vətəndaşlar, bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət hakimiyyəti orqanlarının və dövlətin vəzifəli şəxslərinin, bələdiyyələrin, bələdiyyə orqanlarının və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin, bələdiyyənin yaratdığı hüquqi şəxslərin, habelə ictimai birliklərin yerli özünüidarənin hüquqlarını pozan aktlarının etibarsız sayılması barədə məhkəməyə iddia verə bilərlər".

Yerli özünüidarənin fəaliyyətində aşkarlıq prinsipi.Demokratik hüquqi dövlət idarəçiliyinin mühüm elementlərindən biri də aşkarlıq prinsipidir. İdarəetmə fəaliyyətində öz hüquqi əsasını tapmış aşkarlıq prinsipi yerli özünüidarə orqanlarının işinin açıq xarakterini və əhalinin bu barədə mütamadi olaraq məlumatlandırılmasını nəzərdə tutur.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun3-cü maddəsinə əsasən, "Hər bir vətəndaşın bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciət etmək hüququ vardır. Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını

yerinə yetirməyə borcludurlar". Bu halda bəzi istisnalar da mövcuddur. Belə ki, mülki müdafiə vasitələri və qüvvələri, obyektləri, planları haqqında məlumatlar dövlət sirri olduğu üçün açıqlanmır. Fövqəladə hallar, vətəndaşların sağlamlığı vətəhlükəsizliyinə təhlükə yaradan hallar, sanitariya, demoqrafiya, təhsil, imtiyaz və kompensasiyalar və s. haqqında məlumatlar dövlət sirrinə aid olmadığı üçün bu məlumatlarla vətəndaşlar tanış ola bilərlər.

Aşkarlıq prinsipinin realizə formalarından biri də əhalinin yerli özünüidarə orqanlarında bələdiyyə aktları yaratmaq təşəbbüsü ilə çıxış etməsidir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 29-cu maddəsi ilə müəyyən edilmişdir ki, "Bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir".

Yerli özünüidarə fəaliyyətində təkbaşçılıq və kollegialıq prinsipi. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunu yerli özünüidarə orqanlarının təkbaşına və eyni zamanda kollegial fəaliyyətini təsbit edərək, əhali qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturunun yaradılmasını nəzərdə tutur.

Yerli özünüidarənin kollegial əsaslarını bələdiyyə nizamnaməsi əsasında yaradılaraq yerli məsələləri kollegial şəkildə həll edən nümayəndəli orqanın olması təşkil edir. Bələdiyyə qurumunun nizanmaməsində həmin orqanların məsələlərin kollegial şəkildə qəbul etməsinin təşkilatı hüquqi təminatları (nümayəndəli orqanın işləməsi və qərarların qəbul edilməsi üçün tələb olunan kvorumu) öz əksini tapmışdır. Kollegialıq prinsipi bələdiyyələrin nümayəndəli orqanın fəaliyyətində qərar lahiyyələrinin hazırlanması mərhələsində

(maraqlı olan idarə, müəssisə, təşkilatın nümayəndələrinin cəlb edilməsi), komissiyanın işində və s. şəkildə təzahüf edir. Kollegialıq prinsipi bələdiyə qərarlarının hazırlanması və qəbulunda fəal iştirak (qərar üzrə çıxış etmək, təklif vədüzəlişlər vermək) üçün zəruri şəraitin yaradılmasını nəzərdə tutur.

Təkbaşçılıq prinsipi qeyd olunduğu kimi qəbul edilmiş qərarlara görə vəzifəli şəxsin məsuliyyətini şərtləndirir. Belə ki, bələdiyyənin sədri yerli əhəmiyyətli məsələlər üzrə əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirən icra strukturunun rəhbərləri (bələdiyyənin sədri və sədr müavini) onu seçmiş orqan qarşısında məsuliyyət daşıyır.

Yerli əhəmiyyətli məsələlərin həll edilməsi üzrə təkbaşınalıq və kollegiallıq prinsipinin uzlaşması yerli özünüidarə orqanlarının demokratik əsaslarını təmin etmiş olur.

Yerli özünüidarəyə dövlət təminatı prinsipi.Yerli özünüidarə üzrə hüquqi təminatlar sistemi Azərbaycan Respublikasının Konstitusiyasıda, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunu və diger müvafiq qanunvericilik aktlarında öz əksini tapmışdır.

Azerbaycan Respublikası yerli özünüidarənin hüquqi əsaslarını, yerli özünüidarənin iqtisadi, maliyyə və təşkilatımüstəqilliyinin hüquqi təminatlarını, yerli özünüidarə orqanlarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətinin prinsiplərini müəyyən edir. Qanunvericilik yerli özünüidarə orqanlarının hüquqlarının məhkəmə müdafiəsinə təminatı konstitusiya və qanunlarla təmin olunan yerli özünüidarə hüquqlarının məhdudlaşdırılmasını qadağan edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsi ilə müəyyən edilmişdirt ki, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti

də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci maddəsi ilə müəyyən edilmişdir ki, "Qanuna uyğun olaraq Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə verilmiş səlahiyyətlərin normal yerinə yetirilməsi kifayət edən yerli büdcələrin zəruri xərclərinin ödənilməsi üçün gəlir mənbələrini təsbit etmək yolu ilə bələdiyyələrin büdcələrini formalaşdırırlar. Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının Dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üzrə hər il nəzərdə tutulur. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər. Bələdiyyələr onların məşğuliyyət dairəsinə aid edilmiş sahələrdə əhalinin əsas yaşayış tələbatının ödənilməsini dövlət sosial standartlarından aşağı səviyyədə təmin edə bilməzlər. Bu standartların yerinə yetirilməsində dövlət müvafiq ayırmaları yerli büdcələrin mədaxilinə təsbit etmək yolu ilə bələdiyyələrə kömək göstərə bilər. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydiyyata alınması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir".

Yerli özünüidarəetmənin prinsipləriyerli özünüidarəetmənin təşkili ilə bağlı qanunvericilik konsepsiyasını, onun təşkili məqsədlərini, müstəqilliyinin əsaslarını özündə ehtiva edir. Yerli özünüidarəetmənn bir sıra prinsipləri beynəlxalq hüquqi aktlarda təsbit olunubdur. Demək olar ki, həmin prinsiplər özünüidarəetməni xarakterizə edir və onun fəaliyyəti üçün zəruri olan minimum təminatlar sistemini yaradır. Ədəbiyyatda yerli

özünüidarəetmənin əsas prinsiplərinə aşağıdakılar aid edilmişdir:[21]

1) Yerli özünüidarəetmənin əsasları konstitusion səviyyədə təsbit olunur. Bu da təsadüfi deyil, konstitusion səviyyədə təsbit edilmə yerli özünüidarəetməyə nə qədər əhəmiyyət verildiyini göstərir və onun qanunvericilik bazasının sabitliyini təmin edən vasitə kimi çıxış edir. Cari qanunvericilik dəyişsə də, yerli idarəetmənin konstitusion səlahiyyətləri və konstitusion müddəalar dəyişə bilməz. Bu isə yerli özünüidarəetməni qanunvericiliyin və digər hakimiyyət orqanlarının dəyişən siyasətinin mənfi təsirinə məruz qalmaqdan xilas edir.

2) Yerli özünüidarəetmə öz səlahiyyətləri çərçivəsində tam müstəqil və sərbəstdir. Bu prinsip yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin toxunulmazlığında əks olunur. Onun səlahiyyətləri birbaşa konstitusiyada təsbit edilir və mürəkkəb dəyişdirilmə qaydasına malikdir. Bu səlahiyyətlər artırıla bilər (sadə üsulla - konstitusiyaya dəyişiklik edilmədən), amma heç bir orqan tərəfindən azaldıla bilməz və onların icrasına müdaxilə yolverilməzdir. Onun müstəqilliyi üçün qanunvericilik təşkilati, maliyyə və s. təminatlar nəzərdə tutur.

3) Yerli özünüidarəetmə orqanları yalnız seçkilər yolu ilə təşkil oluna bilər və ya ən azından mütləq seçkilər yerli özünüidarəetmənin təşkilində mühüm rol oynamalıdır. Yerli özünüidarəetmə mütləq seçkilərlə təşkil olunmalıdır ki, ərazi əhalisinin etibar etdiyi və onu daha yaxşı tanıyan adamlar yerli idarəetməyə qoşula bilsinlər. Yerli özünüidarəetmənin səmərəliliyi birbaşa seçkilərin nəticələrindən asılıdır. Seçkilərə qoyulan şərtlər və seçkilərin keçirilməsi qaydası digər hakimiyyət orqanlarına seçkilərin keçirilməsi qaydaları ilə oxşardır.

4) Yerli özünüidarəetmənin fəaliyyətinin real təminatları. Yerli özünüidarəetməyə müxtəlif vasitələrlə müstəqil fəaliyyət

---

[21] Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2006, s.491-493

göstərmək üçün imkan yaradılmalıdır. Bütün bu prinsiplər bir-biri ilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayır. Məsələn, yerli özünüidarəetmənin səlahiyyətlərinin toxunulmazlığı onun müstəqilliyini şərtləndirən amillərdən biridir və sonuncu prinsipi bunsuz, tam mənası ilə başa düşmək qeyri-mümkündür.

Prinsiplər daim inkişafdadır və dəyişə bilər. Onlar üst-üstə düşmür. Məsələn, Avropada yerli özünüidarəetmə prinsiplərinə, bir qayda olaraq, aşağıdakıları aid edirlər:

-yerli özünüidarənin seçkilər əsasında formalaşdırılması;

-yerli özünüidarəetmə subyektlərinə verilən səlahiyyətlərin onların fəaliyyətinə uyğun gəlməsi;

-yerli özünüidarəetmənin müdafiəsi;

-yerli özünüidarə işçilərinin yüksək muxtariyyəti (müstəqillik);

-peşəkar və yaxşı hazırlanmış şəxsi heyət, münasib əmək haqqı;

-yerli özünüidarə nümayəndələrinin həvəsləndirilməsi və səlahiyyətlərini icra etmək üçün geniş imkanların verilməsi;

-yerli özünüidarəetmənin öz maliyyə vəsaitinin olması.

Bu prinsiplərdən göründüyü kimi, onlar, əsasən, az ümumiləşdirilmişdir və daha çox təşkilati məsələlərə diqqət yetirilməsindən ibarətdir. Bundan başqa, prinsiplər həm də bütövlükdə yerli özünüidarəetmə ilə bağlı olmur. Bir sıra prinsiplər var ki, onlar yerli özünüidarəetmə fəaliyyətinin ayrı-ayrı əsasları ilə bağlıdır. Bura, bələdiyyələrin maliyyələşdirilməsi prinsiplərini, bələdiyyələrin ərazi əsasları prinsiplərini və s. aid etmək olar.

## 2.2. Bələdiyyələrin hüquq və vəzifələri

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi "Yerli özünüidarəyə dair

qanunvericilik"[22] adlanır. Həmin maddə ilə yerli özünüidarəyə dair qanunvericilik sisteminə aşağıdakılar daxil edilmişdir:

1) Azərbaycan Respublikasının Konstitusiyası;

2) Azərbaycan Respublikasının qanunları;

3) Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktları;

4) Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktları.

Yerli özünüidarəyə dair qanunvericilik sisteminə daxil olan əsas normativ hüquqi aktlardan biri də "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanunudur.[23] Həmin Qanunla bələdiyyələrin fəaliyyətini tənzim edən normalar təsbit edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq həmin Qanunun əsas məqsədləri kimi aşağıdakılar ifadə edilmişdir:

1) bələdiyyələr yerli özünüidarəni həyata keçirən orqan kimi müəyyən edilmişdir;

2) bələdiyyələrin yaradılmasının prinsipləri müəyyən edilmişdir;

3) bələdiyyələrin rolu müəyyən edilmişdir;

4) yerli özünüidarənin hüquqi əsasları müəyyən edilmişdir;

5) yerli özünüidarənin iqtisadi əsasları müəyyən edilmişdir;

6) yerli özünüidarənin maliyyə əsasları müəyyən edilmişdir;

7) yerli özünüidarənin həyata keçirilməsi üçün dövlət təminatları müəyyən edilmişdir.

---

[22] Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 698-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №07, maddə 405

[23] Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 698-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №07, maddə 405

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsində yerli özünüidarənin anlayışı aşağıdakı kimi verilmişdir. Azərbaycan Respublikasında yerli özünüidarə dedikdə, vətəndaşların fəaliyyətinin təşkilinin xüsusi bir sistemi başa düşülür. Bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirməyə şərait yaradır. Həmçinin onlara yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

Bu hüquqların həyata keçirilməsinin təminat vasitəsi kimi müəyyən edilmşidir ki, bu hüquqlar qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz hüquqlarını həyata keçirmək üçün müəyyən vəzifələrə malikdirlər. Buna görə də, bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər.

Yerli özünüidarəetmə sahəsində istifadə edilən əsas məfhumlarınanlayışı "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununda aşağıdakı kimi ifadə edilmişdir.

**Bələdiyyə dedikdə,** qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması başa düşülür.

Bələdiyyə öz mülkiyyətinə və yerli büdcəyə malikdir. Bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyası ilə və "Bələdiyyələrin statusu haqqında" qanunla onların səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll etmək hüququna malikdirlər. Bütün bunlarla yanaşı bələdiyyələr bərabərlik əsasında yaradılır və onlar bərabər prinsiplər əsasında fəaliyyət göstərirlər.

**Bələdiyyə orqanları** dedikdə, səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlar anlaşılır.

**Yerli əhəmiyyətli məsələlər** dedikdə isə, bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilən məsələlər başa düşülür.

**Yerli rəy sorğusu** dedikdə, yerli əhəmiyyətli məsələlər barəsində vətəndaşların rəyinin öyrənilməsi nəzərdə tutulur.

**Bələdiyyə orqanlarının vəzifəli şəxsi** dedikdə, yerli özünüidarə orqanlarında təşkilatçılıq-sərəncamçılıq funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, kontrakt (əmək müqaviləsi) üzrə işləyən şəxs başa düşülür.

**Bələdiyyə mülkiyyəti** dedikdə, bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlak nəzərdə tutulur.

**Yerli vergilər (bələdiyyə vergiləri)** dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsi və "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən və bələdiyyələrə ödənilən vergilər nəzərdə tutulur.

**Yerli ödənişlər** dedikdə, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyələr tərəfindən müəyyənləşdirilən, habelə yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlər anlaşılır.

**Bələdiyyə qulluğu** dedikdə, yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyəti başa düşülür.

**"Bələdiyyə" və "yerli özünüidarə"** terminləri və bunların iştirakı ilə düzələn söz birləşmələri bələdiyyə, onların orqanları, yerli özünüidarə funksiyalarının həyata keçirilməsi ilə bağlı olan

müəssisə, idarə və təşkilatlar, mülkiyyət obyektləri və başqa obyektlər barəsində, habelə əhali tərəfindən yerli özünüidarənin həyata keçirilməsi ilə əlaqədar digər hallarda işlədilir.

Azərbaycan Respublikasının vətəndaşlarına məxsus olan hüquqlardan biri də onların yerli özünüidarəni həyata keçirmək hüququdur.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarəni həyata keçirmək hüququ təsbit edilmişdir.

Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu aşağıdakı formalarda həyata keçirirlər:

1) bələdiyyələrə seçkilər vasitəsilə;
2) öz iradəsini birbaşa ifadə etmək vasitəsilə;
3) rəy sorğusu vasitəsilə;
4) müstəqil fikir söyləmək vasitəsilə;
5) təkliflər vermək vasitəsilə;
6) digər formalarda.

Vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlak və vəzifə mövqeyindən, dinə münasibətindən, əqidəsindən, peşəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə münasibətindən asılı olmayaraq, yerli özünüidarəni həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır. Bələdiyyə qulluğu Azərbaycan Respublikasının vətəndaşları üçün eyni dərəcədə müyəssərdir.

Hər bir vətəndaşın bələdiyyələrə münasibətdə aşağıdakı hüququ vardır:

1) bələdiyyələrə müraciət etmək hüququ;
2) bələdiyyə orqanlarına müraciət etmək hüququ;

3) bələdiyyə orqanlarının vəzifəli şəxslərinə müraciət etmək hüququ;

4) insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq hüququ;

5) qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq hüququ.

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

Bələdiyyələrin hüquq və vəzifələri sisteminə daxil olan məsələr sırasında onlar tərəfindən qəbul edilən və həyata keçirilən proqramlar xüsusi əhəmiyyət kəsb edir. Bu proqramlara aşağıdakılar daxildir:

1) Yerli sosial müdafiə və sosial inkişaf proqramları;

2) Yerli iqtisadi inkişaf proqramları;

3) Yerli ekoloji proqramlar;

**Yerli sosial müdafiə və sosial inkişaf proqramları.** Yerli sosial müdafiə və sosial inkişaf proqramlarına dair məsələlər "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi ilə tənzimlənir.

Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına şamil edilir. Yerli sosial müdafiə proqramları ilə dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar həm mütəmadi, həm də birdəfəlik ola bilər.

Yerli sosial müdafiə və sosial inkişaf proqramları iki məqsəd üzrə qəbul edilə bilər:

- dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etmək;
- dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarına əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etmək.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarının əhatə dairəsinə aşağıdaklar daxildir:

1) təhsil binalarının saxlanılması və istifadə edilməsi;

2) səhiyyə binalarının saxlanılması və istifadə edilməsi;

3) mədəniyyət binalarının saxlanılması və istifadə edilməsi;

4) yaşayış binalarının saxlanılması və istifadə edilməsi;

5) qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi;

6) sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı;

7) mənzil tikintisi;

8) yerli əhəmiyyətli su mənbələrindən istifadə;

9) su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı;

10) yanacaq təchizinin və satışının təşkili;

11) bələdiyyə yollarının tikilməsi və saxlanılması;

12) yerli nəqliyyat və rabitə xidmətinin təşkili;

13) ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması;

14) mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi;

15) tarix və mədəniyyət abidələrinin saxlanılması;

16) informasiya xidmətinin təşkili;

17) kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması;

18) kimsəsizlərə əlavə yardım göstərilməsi;

19) xəstələrə əlavə yardım göstərilməsi;

20) qocalara əlavə yardım göstərilməsi;

21) maddi imkansızlara əlavə yardım göstərilməsi;

22) valideyn himayəsindən məhrum olmuş uşaqlara əlavə yardım göstərilməsi;

23) istedadlı uşaqlara əlavə yardım göstərilməsi;

24) fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi;

25) əhalinin məşğulluğuna kömək göstərilməsi;

26) adamların peşələri üzrə işlə təmin olunmasına kömək göstərilməsi;

27) gənclərin sosial hüquqi müdafiəsinə kömək göstərilməsi;

28) ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi;

29) yerli infrastrukturun digər sahələri.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq nəzərdə tutulmalı olan məsələlərə isə aşağıdakılar aiddir:

1) mövcud qəbiristanlıqların qorunması;

2) mövcud qəbiristanlıqların abadlaşdırılması;

3) yeni qəbiristanlıq sahələrinin ayrılması;

4) yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası;

5) mərasim xidmətlərinin təşkilinə yardım göstərilməsi;

6) bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi.

Bədən tərbiyəsi və idman sahəsində bələdiyyələrin səlahiyyətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr yuxarıda göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

**Yerli iqtisadi inkişaf proqramları.** Yerli iqtisadi inkişaf proqramları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə tənzimlənir. Yerli iqtisadi inkişaf proqramlarının qəbul edilməsində və həyata keçirilməsində əsas məqsəd dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdən ibarətdir. Burada da iki məqsəd ifadə edilmişdir:

1) dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etmək;

2) dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etmək.

Yerli iqtisadi inkişaf proqramları aşağıdakı sahələri əhatə edir:

1) aqrar sahəsi;
2) sənaye sahəsi;
3) rabitə sahəsi;
4) nəqliyyat sahəsi;
5) digər sahələr.

Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarında və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir. Yerli iqtisadi inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

**Yerli ekoloji proqramlar.** Bələdiyyələrin qəbul etdiyi proqrmlardan biri də yerli ekoloji proqramlardır. Yerli ekoloji proqramlar"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi ilə tənzimlənir. Yerli ekoloji proqramların qəbul edilməsində və həyata keçirilməsində məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsindən ibarətdir. Bu proqramın qəbulunda da iki məqsəd diqqəti cəlb edir:

1) dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsi;

2) dövlətin həyata keçirdiyi ekoloji proqramlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsi.

Yerli ekoloji proqramlara aşağıdakı məsələlər daxil edilə bilər:

1) yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması;

2) bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması;

3) məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi;

4) suyun hər cür çirklənmədən qorunması;

5) havanın hər cür çirklənmədən qorunması;

6) torpağın hər cür çirklənmədən qorunması;

7) qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi;

8) yerli əhəmiyyətli digər tədbirlər.

Bələdiyyələrin üzərinə düşən vəzifələrdən biri də dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir.

Bələdiyyələrin fəaliyyətində onların nizamnaməsi böyük rol oyanyır. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi ilə müəyyən edilmişdir ki, bələdiyyənin nizamnaməsi bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir. Həmin maddənin ikinci bəndinə müvafiq olaraq bələdiyyələrin nizamnaməsində aşağıdaklar göstərilməlidir:

1) qanunla müəyyən edilmiş bələdiyyə ərazisinin hüdudları və tərkibi;

2) bələdiyyə orqanlarının adları, strukturu, səlahiyyətləri və formalaşdırılması qaydası;

3) səlahiyyət müddəti;

4) bələdiyyə aktlarının qəbul edilməsi və qüvvəyə minməsi qaydası;

5) bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növləri;

6) bələdiyyə üzvlərinin statusu və sosial təminatları, onların səlahiyyətlərinə xitam verilməsi əsasları və qaydası;

7) bələdiyyə orqanlarının vəzifəli şəxslərinin hüquqları üçün təminatlar;

8) bələdiyyə qulluğutəşkilinin şərtləri və qaydası;

9) yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin ümumi qaydası;

10) Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yerli özünüidarənin təşkilinə, bələdiyyələrin və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin səlahiyyətinə və fəaliyyət qaydasına dair digər müddəalar.

Bələdiyyənin nizamnaməsi Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatına alınmalıdır. Bələdiyyə nizamnamələrinin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Burada nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər. Bələdiyyənin nizamnaməsini dövlət qeydiyyatına almaqdan imtina edilməsinə ancaq onun Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarına) zidd olması əsas verə bilər. Dövlət qeydiyyatına almaqdan imtina edilməsi barədə vətəndaşlar və bələdiyyələr inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verə bilərlər. Bələdiyyənin nizamnaməsi qeydiyyata alındığı gündən qüvvəyə minir.

**Bələdiyyənin nümunəvi nizamnaməsi.** "Bələdiyyənin nümunəvi nizamnaməsi"Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli Qanunu[24] ilə təsdiq edilmişdir.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə bələdiyyələrə dövlət himayəsinin əsasları müəyyən edilmişdir. Həmin maddəyə əsasən Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri, hüquqi, təşkilati və maddi-maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərirlər.

Bələdiyyələr öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədi ilə ittifaqlar yarada bilərlər. Həmin ittifaqlar qanunvericiliyə uyğun qaydada qeydiyyata alınmalıdır. Bələdiyyə ittifaqlarına bələdiyyələrin səlahiyyətləri verilə bilməz.

Bələdiyyələr və bələdiyyələrin assosiasiyaları müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla xarici dövlətlərin yerli özünüidarəetmə orqanları ilə əməkdaşlıq haqqında müqavilələr bağlaya və yerli özünüidarəetmə orqanlarının ixtisaslaşdırılmış təşkilatlarına üzv ola bilərlər.

Bələdiyyələr hüquqi şəxsdirlər, onların öz möhürü, ştampı və bankda hesabı olur.

**Bələdiyyələrin ərazi əsasları.** Yerli özünüidarəni Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş ərazilərdə yaradılan bələdiyyələr həyata keçirirlər. Müəyyən ərazidə əhalinin sayına görə vətəndaşlar yerli özünüidarəni həyata keçirmək hüququndan məhrum edilə bilməzlər. Bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi, o cümlədən bələdiyyələr təşkil edilərkən, birləşdirilərkən, ayrılarkən, yenidən təşkil edilərkən və ya ləğv olunarkən onların

---

[24] Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli 709-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №01, maddə 1

hüdudlarının müəyyənləşdirilməsi və dəyişdirilməsi onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətləri, müvafiq ərazi əhalisinin rəyi nəzərə alınmaqla,"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında"Azərbaycan Respublikasının 2000-ci il 14 aprel tarixli Qanunu[25] ilə tənzim edilir.

Azərbaycan Respublikasında bütün bələdiyyələr Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən aparılan bələdiyyələrin Dövlət reyestrinə daxil edilir və onlara müvafiq şəhadətnamə verilir. Bələdiyyələrin Dövlət reyestri"Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə"Azərbaycan Respublikasının 2009-cu il29 dekabr tarixli Qanunu[26] ilə müəyyən edilir.

---

[25] "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında"Azərbaycan Respublikasının 2000-ci il 14 aprel tarixli 858-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №10, maddə 704

[26] "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə"Azərbaycan Respublikasının 2009-cu il29 dekabr tarixli 936-IIIQ nömrəli Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №02, maddə 73

**Bələdiyyələr və bələdiyyə orqanları.** Bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa və özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət olan seçkili yerli özünüidarə orqanlarıdır. Bələdiyyələrin say tərkibi Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilir. Azərbaycan Respubliakasının Seçki Məcəlləsinin 210-cu maddəsində bələdiyyə seçkilərinin əsasları aşağıdakı kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

Bələdiyyə üzvlərinin say tərkibi əhalinin sayından asılı olaraq seçki əraziləri üzrə müəyyən edilir. Bələdiyyəyə üzvlər əhalinin sayından asılı olaraq aşağıdakı sayda seçilirlər:

1) əhalisi 500-dən az olan ərazilərdə - 5 bələdiyyə üzvü;

2) əhalisi 500-dən 999-dək olan ərazilərdə - 7 bələdiyyə üzvü;

3) əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə - 9 bələdiyyə üzvü;

4) əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə - 11 bələdiyyə üzvü;

5) əhalisi 10.000-dən 19.999-dək olan ərazilərdə - 13 bələdiyyə üzvü;

6) əhalisi 20.000-dən 49.999-dək olan ərazilərdə - 15 bələdiyyə üzvü;

7) əhalisi 50.000-dən 99.999-dək olan ərazilərdə - 17 bələdiyyə üzvü;

8) əhalisi 100.000-dən 299.999-dək olan ərazilərdə - 19 bələdiyyə üzvü.

Göründüyü kimi bələdiyyə üzvlərinin say tərkibi minimum və maksimum hədlə məhdudlaşdırılmışdır. Belə ki, əhalinin

sayından asılı olaraq bir bələdiyyə üzrə minimum 5 bələdiyyə üzvü seçilə bilər, maksimum isə 19 bələdiyyə üzvü seçilə bilər.

Bələdiyyələrin nizamnamələrinə uyğun olaraq bələdiyyə orqanları yaradılır və onlara yerli özünüidarə məsələlərini həll etmək üçün səlahiyyətlər verilir. Bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir. Bələdiyyələrin və onların orqanlarının strukturu "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa və bələdiyyələrin nizamnamələrinə uyğun müəyyənləşdirilir.

**Bələdiyyə üzvü.** Bələdiyyə üzvü - bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir. Bələdiyyənin iclaslarında bələdiyyə üzvünün müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək hüququ vardır. Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü - bələdiyyə büdcəsi hesabına aylıq əmək haqqı alan və əsas iş yeri bələdiyyə hesab edilən bələdiyyə üzvüdür. Elmi, yaradıcılıq və pedaqoji fəaliyyət istisna olmaqla, öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü əsas iş yeri üzrə başqa yerdə işləyə bilməz. Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əmək haqqı saxlanılmaqla öz istehsal və ya xidmət vəzifəsini yerinə yetirməkdən azad edilir. Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir. Başqa əsas iş yeri olan bələdiyyə üzvü (sədr və onun müavinləri daxil olmaqla) öz səlahiyyətlərini daimi əsasla icra

etmək və əmək haqqını bələdiyyədən almaq üçün bələdiyyəyə yazılı müraciət edir. Bələdiyyə sədri müraciət etmiş bələdiyyə üzvünün öz səlahiyyətlərini daimi əsasla icra etməsinə bələdiyyəyə ehtiyac olduqda, 5 gün müddətində bu barədə bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürənə yazılı bildiriş göndərir. Bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürən müvafiq bildirişi aldığı tarixdən 5 gün müddətində əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq bələdiyyə üzvü ilə əmək müqaviləsinə xitam verir və bu barədə bələdiyyəyə yazılı məlumat verir. Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvlərinin (sədr və onun müavinləri daxil olmaqla) say həddi hər bir bələdiyyədə qanunvericiliklə müəyyən edilmiş üzvlərin sayından asılı olaraq aşağıdakı kimi müəyyənləşdirilir:

1) 5 və ya 7 üzvü olan bələdiyyələrdə - 2 üzv;
2) 9 və ya 11 üzvü olan bələdiyyələrdə - 3 üzv;
3) 13 və ya 15 üzvü olan bələdiyyələrdə - 4 üzv;
4) 17 və ya 19 üzvü olan bələdiyyələrdə - 5 üzv.

Bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla bilməz, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir. Bələdiyyə üzvü daimi yaşamaq üçün bələdiyyənin hüdudlarından kənara köçdükdə və ya başqa səbəblərdən öz bələdiyyə ərazisində bələdiyyə üzvlüyü vəzifələrini yerinə yetirə bilmədikdə bələdiyyə üzvlüyü səlahiyyətlərini öhdəsindən götürməsi haqqında bələdiyyəyə ərizə verir. Bələdiyyənin növbəti yığıncağı bələdiyyə üzvünün ərizəsinə baxıb müvafiq qərar qəbul edir və bu qərarı həmin dairənin seçicilərinin nəzərinə çatdırır. Bələdiyyə üzvü səlahiyyət müddəti ərzində hər hansı səbəbdən bələdiyyə tərkibindən çıxdıqda müvafiq bələdiyyə

ərazisində Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq seçkilər keçirilir.

**Bələdiyyənin iclası.** Bələdiyyənin iclasları ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. Bələdiyyə üzvləri iclas gününə azı 5 gün qalmış xəbərdar edilməlidirlər. Bələdiyyənin iclası iclasda iştirak edən bələdiyyə üzvlərinin qeydiyyatından başlanır. Üzrlü səbəbdən iclasda iştirak edə bilməyən bələdiyyə üzvü bu barədə əvvəldən bələdiyyə sədrinə məlumat verməlidir. Bələdiyyə iclasının bələdiyyə ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı iyirmi beş faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırıldığı hallar istisna olmaqla, iclasın gündəliyinin layihəsini bələdiyyə sədri təsdiq edilmək üçün iclasın müzakirəsinə çıxarır.

Bələdiyyə, bələdiyyə iclasında təsdiq olunmuş reqlamentə müvafiq surətdə fəaliyyət göstərir. Reqlamentdə bələdiyyə iclasının çağırılması və əhali ilə görüşlərin təşkili qaydaları, bələdiyyənin fəaliyyəti ilə bağlı digər məsələlər əks olunur. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bələdiyyələr üçün nümunəvi reqlament tövsiyə edilə bilər. Bələdiyyənin iclası bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

Bələdiyyənin iclasları bələdiyyə ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı iyirmi beş faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırıla bilər. Bələdiyyə ərazisində yaşayan səsvermə hüququna malik olan vətəndaşların azı iyirmi beş faizinin təşəbbüsü ilə çağırılan iclasın gündəliyini onun çağırılması təşəbbüsünü irəli sürənlər müəyyənləşdirir. Bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılan iclasın gündəliyinin layihəsi onun çağırılması təşəbbüsünü irəli sürənlər tərəfindən təsdiq edilmək üçün bələdiyyə iclasının müzakirəsinə çıxarılır. Bələdiyyə sədri və ya sədr olmadıqda onun səlahiyyətlərini həyata keçirən müavini iclası çağırmadıqda və ya onun keçirilməsinə bilavasitə və ya digər

şəxslərin köməyi ilə hər hansı formada mane olduqda, iclasın çağırılması təşəbbüsünü irəli sürən bələdiyyə üzvləri iclasda bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdiyi halda özləri iclas keçirə bilərlər. Bələdiyyə ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı iyirmi beş faizinin təşəbbüsü ilə iclas keçirilmədikdə, həmin təşəbbüskarlar kollektiv şəkildə inzibati nəzarəti həyata keçirən orqana və (və ya) məhkəməyə müraciət edə bilərlər. Bələdiyyənin iclaslarında bələdiyyə üzvlərinin və digər iştirakçıların məsuliyyəti bələdiyyənin nizamnaməsi və reqlamenti ilə tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin II hissəsinə uyğun olaraq, bələdiyyə iclaslarında baxılan məsələlərə dair bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qərarlar qəbul edilir. Bələdiyyənin iclası bələdiyyənin sədri, sədr olmadıqda isə onun müavini tərəfindən aparılır. İclasın katibi bələdiyyə üzvləri sırasından seçilir. Bələdiyyə sədri, sədr olmadıqda isə onun müavini bələdiyyə üzvlərinin və ya bələdiyyə ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı iyirmi beş faizinin təşəbbüsü ilə çağırılan iclasa sədrlik etməkdən boyun qaçırdığı halda iclasın sədri iclasda iştirak edən bələdiyyə üzvləri tərəfindən bələdiyyə üzvləri sırasından seçilir.

Bələdiyyənin bütün iclasları protokollaşdırılır. Protokol iclasın sədri və katibi tərəfindən imzalanır və bələdiyyənin möhürü ilə təsdiqlənir. İclasın protokolunda onun nömrəsi (hər ilin əvvəlində nömrələr yenilənməlidir), iclasın keçirildiyi yer, tarix, iclasda iştirak edən və etməyən bələdiyyə üzvlərinə və dəvət olunan şəxslərə dair məlumat, iclasın sədri, katibi, iclasın gündəliyi, gündəliyin təsdiqi üçün keçirilən səsvermənin nəticəsi, məruzəçilərin adları, soyadları, məruzənin qısa məzmunu, çıxışların qısa məzmunu, müzakirə olunmuş məsələlərə dair qəbul edilmiş qərar, habelə bununla bağlı keçirilən səsvermənin nəticəsi göstərilməlidir. Protokol təsdiqlənənədək bələdiyyə üzvünün onun mətni ilə tanış olmaq

və öz yazılı qeydlərini bildirmək hüququ vardır. Bələdiyyənin iclas protokolu müvafiq kitabda qeydiyyata alınır, həmin kitab üzrə verilən nömrə protokolun nömrəsi hesab olunur.

**Bələdiyyənin daimi və başqa komissiyaları.** Bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və qərar layihələrinin hazırlanması üçün, habelə bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər.

Daimi və başqa komissiyalar səlahiyyətləri daxilində fəaliyyətlərinin təşkili məqsədilə öz işinə ekspertlər cəlb edə bilər. Daimi və başqa komissiyalar yaradılarkən yerli əhəmiyyətli məsələlər nəzərə alınır və onlar "Bələdiyyənin daimi və başqa komissiyaları haqqında" əsasnamə, bələdiyyənin nizamnaməsi əsasında fəaliyyət göstərir.

Bələdiyyənin daimi və başqa komissiyalarının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

1) yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya bələdiyyənin qərarına əsasən yerli əhalinin müzakirəsinə çıxarmaq;

2) yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;

3) bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;

4) seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

Daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

**Bələdiyyənin icra orqanı.** Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununu və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş

qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir.

Bələdiyyənin icra aparatının funksiyalarına daxil olan əsas məsələlər aşağıdakılardan ibarətdir:

1) bələdiyyənin təşkilati məsələlərini həyata keçirir;

2) bələdiyyənin informasiya məsələlərini həyata keçirir;

3) bələdiyyənin kargüzarlıq məsələlərini həyata keçirir;

4) bələdiyyənin maddi-texniki təminat məsələlərini həyata keçirir;

5) bələdiyyənin daimi və başqa komissiyalarının təşkilati məsələlərini həyata keçirir;

6) bələdiyyənin daimi və başqa komissiyalarının informasiya məsələlərini həyata keçirir;

7) bələdiyyənin daimi və başqa komissiyalarının kargüzarlıq məsələlərini həyata keçirir;

8) bələdiyyənin daimi və başqa komissiyalarının maddi-texniki təminat məsələlərini həyata keçirir;

9) bələdiyyə sədrinin tapşırıqlarını yerinə yetirir;

10) bələdiyyənin qərarlarının icrasını təmin edir.

Bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərləri görülmüş işlər barədə bələdiyyə sədrinə və bələdiyyəyə hesabat verir. Onlar həmçinin daimi və başqa komissiyaların iclaslarında səlahiyyətlərinə aid məsələlər barəsində məlumat verirlər.

Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir. Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə iclasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

**Bələdiyyənin sədri və sədr müavini.** Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun

səsini topladıqda seçilmiş hesab olunur.Ehtiyac olduqda bələdiyyə bələdiyyə sədrinin müavinlərini seçir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur.Bələdiyyənin sədri və onun müavinləri aşağıdakı hallarda yuxarıda göstərilən qaydada vaxtından əvvəl vəzifədən azad edilə bilərlər:

1) öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı müraciət etdikdə;

2) bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlər barədə təkbaşına sərəncam verdikdə;

3) bələdiyyə qərarlarının icrasını təmin etmədikdə (qanunvericiliyə zidd olan və həlli imkan səlahiyyətlərindən kənar qərarlar istisna olmaqla);

4) əmək qabiliyyətinin fasiləsiz olaraq, 6 aydan çox müddətdə tam itirməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;

5) qanunvericiliklə üzərinə qoyulmuş vəzifələri 3 ay müddətində yerinə yetirmədikdə;

6) “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilən qaydada yerli büdcənin müzakirəsini və təsdiqini təşkil etmədikdə;

7) qanunvericilikdə və bələdiyyənin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda.

Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir. Səlahiyyət müddəti bitən və ya vaxtından əvvəl vəzifədən azad edilən bələdiyyə sədri və ya bələdiyyə sədrinin vəzifələrini həyata keçirən şəxs 10 gün müddətində bələdiyyənin fəaliyyəti ilə bağlı

bütün sənədləri bələdiyyənin yeni sədrinə (bələdiyyə sədrinin vəzifələrini həyata keçirən şəxsə) təhvil verməlidir.

**Bələdiyyə üzvlərinin statusu.** Bələdiyyə üzvlərinin öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirilməsinə, hüquqlarının, şərəf və ləyaqətinin müdafiəsinə dövlət təminat verir. Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. Bələdiyyə üzvləri bələdiyyənin nizamnaməsinə uyğun olaraq öz səlahiyyətlərini daimi əsasda icra edə bilərlər. Öz səlahiyyətlərini daimi əsasda icra edən bələdiyyə üzvlərinin bu vəzifələrdə çalışmaqla bağlı sosial təminatları Azərbaycan Respublikasının qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilir.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi əsasları.** Bələdiyyə üzvlərinin səlahiyyətləri aşağıdakı hallarda itirilmiş hesab edilir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi əsasları.** Bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir. Bələdiyyə üzvlərinin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;

5) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması**. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması onların "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş hüquqlarının həyata keçirilməsinin müvəqqəti dayandırılmasından ibarətdir. Bələdiyyə üzvlərinin səlahiyyətləri yuxarıda nəzərdə tutulmuş əsaslarla bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən bələdiyyə tərəfindən qərar qəbul edilənədək dayandırılır.

**Bələdiyyənin vaxtından əvvəl buraxılması**. Azərbaycan Respublikası Milli Məclisi ona "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 52-2-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq müraciət olduqda və bununla əlaqədar bələdiyyənin hesabatının dinlənilməsi nəticəsində onun fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bələdiyyənin vaxtından əvvəl buraxılması haqqında qərar qəbul edir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab

etdikdə bələdiyyənin vaxtından əvvəl buraxılması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edir.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi qaydası.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və 22-ci maddələrində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 144-cü və 145-ci maddələrinə müvafiq surətdə bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanununun 21-ci maddəsinin 1-ci, 2-ci, 3-cü, 5-ci bəndlərində və 22-ci maddəsinin 1-ci, 3-cü, 5-ci, 6-cı bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir.

Bələdiyyənin nizamnaməsində digər orqanların yaradılması və müvafiq vəzifəli şəxslərin təyin olunması nəzərdə tutula bilər.

**Bələdiyyə qulluğu.** Bələdiyyə orqanlarında vəzifə tutan işçilər bələdiyyə qulluqçularıdır. Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir. Bələdiyyə orqanlarında qulluq müddəti dövlət qulluğu haqqında qanunvericiliyə uyğun olaraq güzəştlər və təminatlar verilməsi üçün hesablanan staja daxil edilir.

**Yerli rəy sorğusu.** Vətəndaşların öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarənin həyata keçirilməsinin digər formalarından biri də yerli rəy sorğusudur. Yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu təyin edilə bilər. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir. Bələdiyyə ərazisində yaşayan və seçki

hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda vətəndaşlar bilavasitə və könüllülük əsasında iştirak edirlər. Yerli rəy sorğusunda səsvermə gizli keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. Yerli rəy sorğusunun təyin edilməsi və keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**Bələdiyyələrə seçkilər.** Bələdiyyələrə seçkilər vətəndaşların qanunla müəyyənləşdirilmiş seçki hüquqları təmin edilməklə, ümumi, bərabər birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermə yolu ilə həyata keçirilir. Bələdiyyələrə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun keçirilir. Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə seçkilərin demokratik əsasda keçirilməsinə təminat verirlər.

**Vətəndaşların yığıncaqları.** Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər. Burada əhalinin sayı ilə bağlı nəzərdə tutulan məhdudiyyət bələdiyyələrin birləşməsi və ayrılması məsələsinə münasibət bildirmək üçün keçirilən yığıncaqlara şamil edilmir.

Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır. Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur. Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

**Əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsü.** Bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər

barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

**Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti.** Vətəndaşların bələdiyyələrə bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır. Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər. Bələdiyyələr torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslərin ərizələrinə 10 gün müddətində baxırlar. Bələdiyyələr hüquqi və fiziki şəxslərin yerli vergilər və ödənişlərlə bağlı borcları barədə onların müraciəti əsasında, 5 gündən gec olmayaraq arayış verirlər.

Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciətlərinə cavab verilməsi müddətlərinin və qaydasının pozulması "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikasının digər qanunlarına əsasən müvafiq məsuliyyətə səbəb olur.

**Yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakının digər formaları.** Yerli özünüidarənin həyata keçirilməsində vətəndaşlar "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununu ilə nəzərdə tutulmuş formalarla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasına, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa, başqa qanunlara və bələdiyyənin nizamnaməsinə zidd olmayan digər formalarda da (məhəllə komitələri, assosiasiyalar, xeyriyyə təşkilatları və s.) iştirak edə bilərlər.

**Yerli özünüidarənin hüquqi təminatları.** Yerli özünüidarənin hüquqi təminatlarına dair məsələ "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 6-cı fəslində təsbit edilmişdir. Həmin Qanunun 47-ci maddəsi ilə

müəyyən edilmişdir ki, yerli özünüidarənin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının məhdudlaşdırılması qadağandır. Konstitusiya quruluşunun qorunması, ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüquqları yalnız qanuna əsasən və qanunda müəyyənləşdirilmiş müddətə məhdudlaşdırıla bilər.

**Bələdiyyə qərarlarının məcburiliyi.** Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinə uyğun olaraq, bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Bələdiyyələr qərar qəbul etdiyi andan 15 gündən gec olmayaraq onun surətini bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər. Bələdiyyənin qəbul etdiyi qərarlar bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz. Bələdiyyənin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar təşkilati-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən hökmən icra edilməlidir. Bələdiyyə qərarları onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər. Bələdiyyə qərarlarının icra edilməməsi qanuna müvafiq surətdə məsuliyyətə səbəb olur.

**Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin müraciətlərinə baxılması.** Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin müraciətlərinə dövlət orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, digər şəxslər və onların vəzifəli şəxsləri bir ay müddətində baxmalıdırlar.

**Yerli özünüidarənin məhkəmə müdafiəsi.** Bələdiyyənin ərazisində yaşayan vətəndaşlar, bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət hakimiyyəti orqanlarının və dövlətin vəzifəli şəxslərinin, bələdiyyələrin, bələdiyyə orqanlarının və bələdiyyə orqanlarının

vəzifəli şəxslərinin, bələdiyyənin yaratdığı hüquqi şəxslərin, habelə ictimai birliklərin yerli özünüidarənin hüquqlarını pozan aktlarının etibarsız sayılması barədə məhkəməyə iddia verə bilərlər.

**Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti, onların fəaliyyətinə nəzarət** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 7-ci fəslində nəzərdə tutulumuş normalar üzrə həyata keçirilir.Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanıbələdiyyə, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir. Burada nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər. Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər.

**Bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsi.** Bələdiyyələr Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər həyata keçirilməsini "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq təmin edirlər.

**Bələdiyyələrin hesabatı.** Bələdiyyələr aşağıdakı hallarda öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər:

1) Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə əsasən qanunvericilik hakimiyyəti

tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi barədə;

2) "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununu ilə müəyyən edilmiş hallarda yerli büdcələrə Azərbaycan Respublikasının Dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitlərinin istifadəsi barədə.

Bələdiyyələr ilin yekununa görə aprel ayının 1-dək hesabat təqdim edirlər. Yuxarıda nəzərdə tutulan hesabatdan başqa, bələdiyyə hər ilin yanvar ayının üçüncü həftəsinin bazar ertəsi görülmüş işlər haqqında, o cümlədən maliyyə vəsaitlərinin və bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verir. Hesabat yazılı formada tərtib edilir və bələdiyyənin iclaslarında təsdiq edilir. Yerli əhalini tanış etmək məqsədi ilə hesabat bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir, habelə elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və digər vasitələrlə əhaliyə çatdırılır.

Bələdiyyə seçicilərə verdiyi hesabatı təsdiq etdikdən sonra 10 gün müddətində bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Müvafiq bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 25 faizinin iştirakını təmin edən və nəticələri protokolla (protokollarla) rəsmiləşdirilən yığıncaqda (yığıncaqlarda) iştirak edənlərin yarısından çoxu hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab edilməsinin “lehinə” səs verdikdə bu barədə qərar qəbul edilir və yığıncağın (yığıncaqların) protokolu (protokolları) bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərilir. Protokolun forması və tərtibinə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan protokolu (protokolları) forma və tərtiblə bağlı tələblərə uyğunluq baxımından yoxlayır və uyğunsuzluq aşkar etdikdə protokolu (protokolları) geri qaytarır, uyğunsuzluq aşkar etmədikdə isə 20 gün müddətində bələdiyyənin hesabatı ilə

birlikdə müvafiq icra hakimiyyəti orqanına - Azərbaycan Respublikasının Prezidentinəgöndərir. Müvafiq icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Prezidenti hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə bələdiyyənin vaxtından əvvəl buraxılması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edir.

Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə qanunla müəyyənləşdirilmiş qaydada şikayət verilə bilər.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun "Bələdiyyə mülkiyyətinin formalaşması"na dair münasibətləri tənzim edən 54-cü maddəsinə əsasən dövlət yerli əhəmiyyətli məsələlərin həlli üçün zəruri olan torpaq payı və dövlət mülkiyyəti obyektlərini bələdiyyələrin mülkiyyətinə verir. Dövlət mülkiyyəti obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi ilə bağlı yaranan mübahisələr məhkəmə qaydasında həll edilir. Bələdiyyə ərazisində bələdiyyə mülkiyyətinin olmaması bələdiyyə yaratmaqdan imtina edilməsinə əsas vermir.

Vətəndaşların ilk yığıncağını təşəbbüs qrupu çağırır. Təşəbbüs qrupunun yaradılması, vətəndaşların yığıncaqlarının çağırılması, keçirilməsi qaydaları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatı ilə tənzimlənir.

### 2.3. Yerli özünüidarəetmənin iqtisadi və maliyyə əsasları

Müasir dünya dövlətlərinin qabaqcıl təcrübəsi göstərir ki, yerli özünüidarəetmənin normal fəaliyyətini şərtləndirən əsas amillərdən biri kimi onun maddi bazası çıxış edir.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasında yerli özünüidarəetməyə verilmiş anlayışın əsas daxili elementlərindən biri də məhz maddi təminatla bağlıdır. Burada yerli orqanlar tərəfindən öz maddi bazasından istifadə etməklə yerli

əhəmiyyətli məsələlərin həll edilməsi nəzərdə tutulmuşdur. Bu isə onu sübut edir ki, bələdiyyələrin lazımi dərəcədə maddi bazasının olması onların müstəqilliyinin və sərbəstliyinin təminat vasitələrindən biridir.

Yerli özünüidarəetmənin iqtisadi və maliyyə əsasları onların təsərrüfat müstəqilliyini təmin edir. Bununla yanaşı o, yerli əhalinin zəruri tələblərinin ödənilməsi, onların həyatı üçün müvafiq şəraitin yaradılmasına xidmət edir. Bələdiyyələrin maliyyə-iqtisadi əsaslarının möhkəmliyi onların yerli əhaliyə keyfiyyətli xidmət göstərməsinin əsas şərti olmaqla ölkə miqyasında iqtisadi, sosial və maliyyə vəziyyətinin yaxşılaşdırılmasınının mühüm təminatlarından biridir. Onu da nəzərə almaq lazımdır ki, bələdiyyələrin maliyyə-iqtisadi müstəqilliyi əhəmiyyətli dərəcədə ölkənin iqtisadi vəziyyətindən asılıdır. Ölkə iqtisadiyyatı inkişaf etdikcə yerli özünüidarəetmənin maliyyə-iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün imkanlar da artır.[27]

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun beşinci fəslində "Yerli özünüidarənin iqtisadi əsasları" təsbit edilmişdir. Həmin Qanunun "Yerli özünüidarənin iqtisadi əsasları" adlanan 32-ci maddəsi ilə müəyyən edilmişdir ki, yerli özünüidarənin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti, yerli maliyyə, dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən əmlak təşkil edir. Bu maddəyə əsasən yerli özünüidarənin iqtisadi əsaslarını 3 qrup üzrə aşağıdakı kimi təsnifləşdirmək olar:

1) bələdiyyə mülkiyyəti;

2) yerli maliyyə;

3) dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən əmlak.

---

[27] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.185

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanunu ilə müəyyən edilmişdir ki, bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir. Bu isə bələdiyyənin aşağıdakı hüquqlarını özündə ehtiva edir:

1) bələdiyyə sərbəst olaraq əmlakına sahiblik hüququna malikdir;

2) bələdiyyə sərbəst olaraq əmlakından istifadə etmək hüququna malikdir;

3) bələdiyyə sərbəst olaraq əmlakı üzərində sərəncam vermək hüququna malikdir.

Dövlət yerli özünüidarəetməni yaratmaqla onun inkişafı üçün zəruri olan əsas iqtisadi, maliyyə və digər zəruri şəraitin yaradılması öhdəliyini də öz üzərinə götürmüş olur.

Yerli özünüidarəetmənin iqtisadi və maliyə əsasları "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının "Yerli özünüidarə orqanlarının maliyyələşmə mənbələri" adlanan9-cu maddəsində[28] aşağıdakı kimi təsbit edilmişdir:

Yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində kifayət qədər maliyyə vəsaitlərinə malik olmaq hüququ vardır, onlar öz funksiyalarını yerinə yetirmək üçün həmin vəsaitlər barədə sərbəst sərəncam verə bilərlər.

Yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə yaxud qanunla onlara verilən səlahiyyətlərə mütənasib olmalıdır.

Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin heç olmazsa bir hissəsi yerli rüsum və vergilər hesabına daxil olmalıdır, bunların dərəcələrini yerli özünüidarə orqanları qanunda göstərilən hüdudlarda müəyyənləşdirməyə ixtiyarlıdırlar.

Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin əsaslandığı maliyyə sistemləri yetərincə müxtəlif və çevik

---

[28] Yerli özünüidarə haqqında Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №01, maddə 8

olmalıdır ki, yerli orqanların səlahiyyətlərinin həyata keçirilməsi zamanı çəkilən xərclərin dəyişməsini mümkün qədər təmin edə bilsin.

Maliyyəsi baxımından daha zəif olan yerli özünüidarə orqanlarının qorunması maliyyə tənzimi prosedurlarının yaxud yerli orqanların potensial maliyyələşmə mənbələrinin qeyri-bərabər bölüşdürülməsinin nəticələrini və onlar üzərinə düşən xərcləri təshih etmək üçün nəzərdə tutulmuş ekvivalent tədbirlərin tətbiqini tələb edir. Belə prosedurlar və ya tədbirlər yerli özünüidarə orqanlarının öz səlahiyyətləri hüdudlarında seçim sərbəstliyini məhdudlaşdırmamalıdır.

Yenidən bölüşdürülən vəsaitlərin verilmə qaydasını yerli özünüidarə orqanları ilə lazımi qaydada razılaşdırmaq zəruridir.

Yerli özünüidarə orqanlarına verilən subsidiyalar imkan daxilində müəyyən layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmamalıdır. Subsidiyaların verilməsi yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində siyasət seçimində əsas sərbəstliyinə ziyan vurmamalıdır.

Kapital qoyuluşları üzrə xərclərin maliyyələşdirilməsi üçün yerli özünüidarə orqanları qanunvericiliyə riayət etməklə milli borc kapital bazarından istifadə edə bilməlidir.

Yerli özünüidarəetmə orqanlarının maliyyə əsaslarının formalaşması zamanı dövlət ilk növbədə maliyyə cəhətdən zəif olan bələdiyyələrin müdafiəsini təşkil etməlidir və bu məqsədlə onların maliyyə baxımından bərabərləşdirilməsinə yönəlmiş və maliyyə ehtiyatlarının qeyri-bərabər bölüşdürülməsini aradan qaldıran tədbirlərin həyata keçirilməsini nəzərdə tutmalıdır.[29]

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasında nəzərdə tutulmuş yerli özünüidarə orqanlarının iqtisadi-maliyyə əsaslarının formalaşdırılması prinsipləri yerli özünüidarəetmə haqqında Azərbaycan Respublikasının qanunvericilik sistemində bu və ya digər dərəcədə öz əksini tapmışdır.

---

[29]Фадеев В.И. Муниципальное право России. М., Юрист, 1994, с.78

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanunun 1-ci maddəsində yerli özünüidarə anlayışı aşağıdakı kimi ifadə edilmişdir: "Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir". Bu anlayışın təhlili belə qənaətə gəlməyə əsas verir ki, bələdiyyə statusunu əldə etmək üçün onun mülkiyyətinin və yerli büdcəsinin olması zəruri şərtlərdən birirdir. Bələdiyyələrin maliyyə əsaslarının formalaşdırılması zamanı bir sıra prinsiplərə əməl olunmalıdır ki, onlara aşağıdakılar aid edilmişdir:

- maliyyə ehtiyatlarının kifayət qədər olması və bələdiyyələrin qarşısında duran vəzifələrlə uzlaşması prinsipi, yəni dövlət mülkiyyətinə aid olan və yerli əhəmiyyətli məsələlərin həlli üçün son dərəcə zəruri sayılan obyektlərin bələdiyyələrə verilməsi;
- maliyyə eytiyatlarının bələdiyyənin ərazisi ilə məhdudlaşdırılması, yəni bələdiyyəyə ilk növbədə onun ərazisində yerləşən əmlak və digər resurslar ayrılır, başqa ərazilərdən maddi ehtiyatlar yalnız bunlar kifayət etmədiyi təqdirdə ayrıla bilər;
- bələdiyyə ərazisində infrastrukturun bütövlüyünün təmin edilməsi;
- dövlət əmlakının bələdiyyələrə verilməsi zamanı bələdiyyələrə ayrılan mülkiyyət və onlara verilmiş dövlət orqanlarının səlahiyyətləri arasında uyğunluğun təmin edilməsi, belə ki, bələdiyyələrə verilmiş dövlət mülkiyyəti onlar tərəfindən qanunla üzərlərinə qoyulan səlahiyyətlərin yerinə yetirilməsi üçün istifadə etməlidir;

- dövlət mülkiyyəti obyektlərinin bələdiyyə qurumlarına verilməsi zamanı yaranan mübahisələrin qarşılıqlı razılıq əsasında, bu mümkün olmadıqda isə məhkəmə qaydasında həll edilməsi;

- bələdiyyənin yaradılması zamanı onun yerləşdiyi ərazidə ona verilə biləcək dövlət mülkiyyəti obyektlərinin olmaması, bələdiyyənin yaradılmasından imtina üçün əsas təşkil edə bilməz[30].

Hüquq ədəbiyyatında bələdiyyənin maddi ehtiyatlarının iki növü (maliyyə və iqtisadi) fərqləndirilsə də Azərbaycan Respublikasının qanunvericiliyində maliyyə və iqtisadi əsaslar arasında hər hansı bir fərq müəyyən edilməmişdir. “Bələdiyyələrin statusu haqqında“ Azərbaycan RespublikasıQanununda yalnız bələdiyyələrin iqtisadi əsasları müəyyən edilmişdir və bu əsaslara bələdiyyə mülkiyyəti, yerli maliyyə, bələdiyyə orqanlarına verilmiş dövlət mülkiyyəti aid edilmişdir. Artıq qeyd edildiyi kimi, bələdiyyələrə müəyyən maddi ehtiyatların ayrılması onların təsərrüfat müstəqilliyinin təmin edilməsinə və fəaliyyəti üçün zəruri şəraitin yaradılmasına, əhalinin tələbatının ödənilməsinə yönəlmişdir. İlk növbədə, Azərbaycan Respublikasının Konstitusiyası dövlət mülkiyyəti ilə yanaşı bələdiyyə mülkiyyətini də tanıyır və bərabər əsaslarla onun müdafiəsini nəzərdə tutur.[31]

Azərbaycan Respublikasının Konstitusiyasının "Mülkiyyət" adlanan 13-cü maddəsində[32] təsbit edilmişdir ki, "Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz".

---

[30]Bələdiyyələr haqqında şərhlər, təcrübələr, sənədlər, s. Bakı, 2003

[31] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.188

[32] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanunun 33-cü maddəsi "Bələdiyyə mülkiyyəti" adlanır. Həmin maddə ilə bələdiyyə mülkiyyətinin daxili komponentləri müəyyən edilmişdir. Qanuna görə bələdiyyə mükiyyətinin tərkibinə aşağıdakılar daxildir:

1) yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti;

2) bələdiyyənin büdcədənkənar fondları;

3) bələdiyyə əmlakı;

4) bələdiyyə torpaqları;

5) bələdiyyə müəssisələri və təşkilatları;

6) bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları;

7) dövlət və xüsusi mülkiyyətdə olmayan yollar;

8) bələdiyyə təhsil müəssisələri;

9) bələdiyyə səhiyyə müəssisələri;

10) mədəniyyət müəssisələri;

11) bələdiyyə idman müəssisələri;

12) digər daşınar və daşınmaz əmlak.

Bələdiyyə mülkiyyəti bələdiyyələr tərəfindən idarə edilir. Bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququ ikili xarakter daşıyır. Belə ki, bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququ bələdiyyələr məxsusdur. Bununla yanaşı bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququ Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda bilavasitə əhali tərəfindən həyata keçirilir.

Qanuna uyğun olaraq bələdiyyələr bələdiyyə mülkiyyəti üzrə aşağıdakı hüquqlara malikdirlər:

1) bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini fiziki şəxslərin müvəqqəti istifadəsinə, icarəsinə verə bilər;

2) bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini fiziki şəxslərin daimi istifadəsinə, icarəsinə verə bilər;

3) bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini hüquqi şəxslərin müvəqqəti istifadəsinə, icarəsinə verə bilər;

4) bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini hüquqi şəxslərin daimi istifadəsinə, icarəsinə verə bilər;

5) qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirə bilər;

6) bələdiyyə mülkiyyətində olan əmlak barəsində başqa əqdlər bağlaya bilər;

7) özəlləşdirilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərdə müəyyənləşdirə bilərlər;

8) istifadəyə verilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərdə müəyyənləşdirə bilərlər.

Qanuna uyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə, bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtlərini müəyyənləşdirə bilərlər. Qanunla başqa hal nəzərdə tutulmayıbsa, bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur. Bələdiyyə mülkiyyətindən yalnız Azərbaycan Respublikasının Konstitusiyasında və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş bələdiyyə vəzifələri üçün istifadə oluna bilər. Dövlət bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli Qanunu[33] ilə yerli özünüidarəetmənin iqtisadi əsasını təşkil edən bələdiyyə əmlakının yaranmasının əsasları müəyyən edilmişdir. Həmin Qanuna əsasən bələdiyyə mülkiyyətinə torpaqların verilməsi "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa və digər

---

[33] "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 770-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №01, maddə 13

normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir. Qanuna əsasən bələdiyyə əmlakının yaranmasının mənbələrini aşağıdakılar təşkil edir:

1) "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında"Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı;

2) digər normativ hüquqi aktlara uyğun olaraq bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı;

3) bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olunan və yaradılan əmlak;

4) fiziki şəxslər tərəfindən bələdiyyələrə könüllü maddi yardım şəklində verilən əmlak;

5) hüquqi şəxslər tərəfindən bələdiyyələrə könüllü maddi yardım şəklində verilən əmlak;

6) beynəlxalq təşkilatlar və fondlar tərəfindən bələdiyyələrə könüllü maddi yardım şəklində verilən əmlak;

7) varisi olmayan əmlakın bələdiyyələrə keçməsi yolu ilə əldə olunan əmlak;

8) bələdiyyələrə vəsiyyət edilən əmlak;

9) qanunvericilikdə nəzərdə tutulan digər hallarda əldə olunan əmlak.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında"Azərbaycan RespublikasıQanununda və digər normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan və bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olan aşağıdakı dövlət əmlakı onların mülkiyyətinə verilir:

- mənzil-kommunal obyektləri;
- sosial obyektlər;
- mədəniyyət obyektləri;
- əhalinin ümumi istifadəsində olan obyektlər;
- digər dövlət əmlakı.

İlk növbədə bələdiyyələrin mülkiyyətinə onların fəaliyyətini təmin etmək üçün lazımi inzibati binalar, otaqlar və

avadanlıqlar verilir. Qanunvericilikdə özəlləşdirilməsi qadağan edilən və ya müvafiq icra hakimiyyəti orqanının qərarı ilə özəlləşdirilən dövlət əmlakı istisna olmaqla bələdiyyələrin ərazilərində yerləşən digər dövlət əmlakı onların mülkiyyətinə verilə bilər. Bələdiyyə mülkiyyətinə dövlət əmlakı bələdiyyələr tərəfindən bu əmlakdan istifadə etmək imkanı yarandıqda onların müraciəti əsasında verilir. Bələdiyyə əmlakı ilə əlaqədar yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, 15 gün müddətində bələdiyyələrin fəaliyyətini təmin etmək məqsədi ilə lazımi inzibati binaların, otaqların və avadanlıqların verilməsini təşkil etsin.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında"Azərbaycan RespublikasıQanununa uyğun olaraq bələdiyyənin mülkiyyətinə obyektlərin verilməsi qaydası və müddətləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli Fərmanı[34] ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə" təsdiq edilibdir. Həmin Əsasnamə ilə dövlət mülkiyyətində olan və bələdiyyənin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektlərinin, əhalinin ümumi istifadəsində olan obyektlərin və digər dövlət əmlakının bələdiyyələrin mülkiyyətinə verilməsi qaydası müəyyən edilmişdir. Əsasnamədə nəzərdə tutulmuş hallar istisna olmaqla,

---

[34] Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 498 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №06, maddə 396

bələdiyyələrin ərazilərində yerləşən digər dövlət əmlakı onların mülkiyyətinə verilə bilər. Belə ki, bələdiyyələrin ərazilərində yerləşən aşağıdakı dövlət əmlakı onların mülkiyyətinə verilə bilməz:

1) Qanunvericiliklə özəlləşdirilməsi qadağan edilən dövlət mülkiyyətində qalan dövlət əmlakı və onun yerləşdiyi torpaq sahələri;

2) Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən və ya müvafiq qərar qəbul edilənədək dövlət mülkiyyətində qalan dövlət əmlakı və onun yerləşdiyi torpaq sahələri;

3) fiziki şəxslərinin vəsaiti hesabına inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri;

4) qeyri-dövlət hüquqi şəxslərinin vəsaiti hesabına inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri.

Dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən əvəzsiz olaraq həyata keçirilir. Bələdiyyənin mülkiyyətinə verilən əmlakın yerləşdiyi torpaq sahələrinin bələdiyyə mülkiyyətinə verilməsi "Torpaq islahatı haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və Azərbaycan Respublikasının digər qanunlarına, normativ hüquqi aktlarına və "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

**Dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi.** Bələdiyyə mülkiyyətinə verilə bilən müəssisə və obyektlərinin, binaların, tikililərin, qeyri-yaşayış sahələrin, qurğuların və avadanlıqların, habelə ümumi istifadə obyektlərinin siyahısı və bələdiyyələrə verilməsi müddətləri hər bir bələdiyyə ərazisi üzrə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin bələdiyyələr və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Bələdiyyənin

mülkiyyətinə ilk növbədə onların fəaliyyətinin təmin edilməsi üçün zəruri olan inzibati binalar, otaqlar və avadanlıqlar verilir. Bələdiyyə mülkiyyətinə dövlət əmlakı bələdiyyələr tərəfindən bu əmlakdan istifadə etmək imkanı yarandıqda, onların müraciəti əsasında verilir. Bələdiyyə mülkiyyətinə daşınmaz dövlət əmlakının verilməsi Azərbaycan Respublikasında dövlət əmlakının Registrində müvafiq qeydiyyatlar aparılmaqla və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə məlumat verməklə həyata keçirilir.

**Bələdiyyələrin mülkiyyət hüququnun rəsmiləşdirilməsi qaydası.** Bələdiyyələr onların mülkiyyətinə verilən dövlət əmlakı üzərində mülkiyyət hüququnu aşağıdakı qaydada əlavə edirlər:

Bələdiyyə mülkiyyətinə verilən əmlakın siyahısı (o cümlədən inzibati binalar, otaqlar və avadanlıqlar) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edildikdən sonra bələdiyyə qurumları Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ərizə ilə müraciət edirlər; ərizəyə bələdiyyə qurumunun statusunu təsdiq edən sənədlər əlavə olunmalıdır.

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi daxil olmuş müraciətlərin əsaslığını yoxlayır.

Müraciətdə göstərilən dövlət əmlakının, o cümlədən ümumi istifadə obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi nəzərdə tutulmuşdursa, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 10 gün ərzində müvafiq akt tərtib edilir.

"Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə" ilə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyətinə verilən daşınmaz dövlət əmlakı üzərində bələdiyyənin mülkiyyət hüququ qanunvericiliyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

Bələdiyyələrin ümumi istifadə obyektlərinə mülkiyyət hüququ həmin obyektlərin Azərbaycan Respublikasının

İqtisadiyyat və Sənaye Nazirliyindən təhvil-təslim aktı əsasında qəbul etdiyi andan yaranır.

Ədəbiyyatda dövlət mülkiyyəti bələdiyyə mülkiyyətindən aşağıdakı əlamətlərə görə fərqləndirilir:

1) subyektinə görə (dövlət mülkiyyətinin subyekti xalq və dövlət hakimiyyət orqanlarıdır, bələdiyyə mülkiyyətində isə bələdiyyə əhalisi və bələdiyyə orqanları);

2) obyektinə görə (dövlət mülkiyyətinə istənilən mülkiyyət obyekti daxil edilir, bələdiyyə mülkiyyəti obyektlərinin dairəsi qanunla dəqiq müəyyənləşdirilir və dövlətin müstəsna mülkiyyətində olan obyektlər istisna edilir);

3) mülkiyyət hüququnun yaranması və xitamı əsaslarına görə (baxmayaraq ki, mülki qanunvericilikdə mülkiyyətin əldə edilməsi və xitamının ümumi əsasları müəyyən edilmişdir, bir sıra hallarda fərqlər də mövcuddur, məsələn, dövlət mülkiyyətinin yaranması forması olan milliləşdirməni bələdiyyələrə aid etmək olmaz);

4) mülkiyyət hüququnun məzmununa görə (mülkiyyət hüququ dedikdə bu və ya digər əmlak üzərində mülkiyyətçinin sahiblik, istifadə və sərəncam hüquqları başa düşülür, lakin qüvvədə olan qanunvericilikdövlət dotasiyalarına münasibətdə bələdiyyələrin bir mülkiyyətçi kimi hüquqlarının məhdudlaşdırılmasına yol verir.[35]

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanunun 33-cü maddəsinin 5-ci bəndinə əsasən Qanunla başqa hal nəzərdə tutulmayıbsa, bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur. Qeyd etmək lazımdır ki, bələdiyyələr onlara verilmiş mülkiyyətdən yalnız

---

[35]Шугрина Е.С. Муниципальное право. М., 1999, с. 222; Колюшкин Е.И. Оправе муниципальной собственности//Журнал Российского права,1997,№9, с.82

Azərbaycan Respublikasının qanunvericiliyi ilə onun üzərinə qoyulmuş vəzifələrin icrası üçün istifadə oluna bilər. Dövlətə gəldikdə isə o, bələdiyyə mülkiyyətini müdafiə edir subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.[36]

Təcrübədə bələdiyyənin maliyyə-iqtisadi əsaslarının formalaşması bir sıra obyektiv və subyektiv əngəllər nəticəsində gecikmişdir, bu da öz növbəsində bələdiyyələr tərəfindən onların üzərinə qoyulmuş vəzifələrin icrasında çətinlik yaradır. Nəzərə alınmalıdır ki, bələdiyyələrin maliyyə-iqtisadi əsaslarına dair qanunvericilik bazasının yaradılması ilə yanaşı, bu qanunların işlək bir mexanizmə malik olması da əhəmiyyətlidir. Bələdiyyə mülkiyyətinə verilmiş əmlak üzərində bələdiyələr mülkiyyət hüququnu tam həcmdə həyata keçirirlər. Lakin bələdiyyənin ərazisində yerləşən digər mülkiyyətə münasibətdə bələdiyyələr mülki-hüquq münasibətlərinin iştirakçısı statusuna malikdirlər. Bələdiyyə mülkiyyətinin həcmi, tərkibi bələdiyyələrtərəfindən yerli əhəmiyyətli məsələləri müstəqil həll edilməsinin əsas şərtidir. Azərbaycan Reapublıkasının qüvvədə olan qanunvericiliyi bələdiyyələrə mülkiyyətlərində olan əmlakın idarə edilməsi sahəsində geniş səlahiyyətlər vermişdir. Bələdiyyə mülkiyyəti fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə verilə və yaxud da özəlləşdirilə bilər, həmçinin bələdiyyə mülkiyyətinə dair qanunvericiliklə qadağan olunmayan digər əqdlər bağlana bilər. Bələdiyyələr torpaq qanunvericiliyinə uyğun olaraq mülkiyyətlərində olan torpaqların idarə edilməsi sahəsində də geniş imkanlara malikdirlər. Bələdiyyələr tərəfindən təsərrüfat və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyətlə məşğul olan, mülki hüquq münasibətlərinin tam hüquqlu iştirakçısı kimi çıxış edən müəssisələr yaradıla bilər.[37]

---

[36]Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.191-192

[37] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.192-193

Bələdiyyə mülkiyyətinin tərkibində müxtəlif hüquqi rejimli 3 kateqoriya əmlak fərqləndirmək olar: hüquqi rejimi maliyyə hüquq normaları ilə tənzimlənən maliyyə vəsaitləri (yerli büdcə vəsaitləri və büdcədənkənar fondlar), hüquqi rejimi mülki hüquq normaları ilə tənzimlənən müəssisə, idarə və təşkilatlar və nəhayət, hüquqi rejimi ayrı-ayrı qanunvericilik aktları ilə tənzimlənən bələdiyyə torpaqları və təbii ehtiyatlar.[38]

Bələdiyyələrin iqtisadi əsaslarını təhlil edərkən bələdiyyə sifarişi institutuna da toxunmaq lazımdır. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 37-ci maddəsinə əsasən Azərbaycan Respublikasında bələdiyyələr bələdiyyə ərazisinin abadlaşdırılması, əhaliyə kommunal xidmətlərin göstərilməsi, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, bələdiyyə əhalisinin sosial mədəni və digər tələbatının ödənilməsi sahəsində işlərin həyata keçirilməsi istiqamətində sifarişçi kimi çıxış edə bilərlər. Bununlada bələdiyyə ərazisində sahibkarlığın, əmək bazarının inkişafına şərait yaradır, vergi tutma obyektlərinin dairəsini genişləndirir və nəticə etibarı ilə bələdiyyə büdcəsinin gəlirlər hissəsini artırır. Bələdiyyə büdcəsindən maliyyələşən işlərin həyata keçirilməsinə dair bələdiyyə sifarişləri üzrə müsabiqə elan olunur. Bələdiyyə orqanları qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə iqtisadi əsaslarını daha da genişləndirmək məqsədilə xarici iqtisadi əlaqələr də yarada bilərlər.

Beləliklə, bələdiyyə mülkiyyəti - yerli özünüidarəetmənin ən mühüm iqtisadi əsaslarından biridir. Demokratik cəmiyyətdə yerli özünüidarəetmə qarşısında duran funksiyaların yerinə yetirilməsi əhəmiyyətli dərəcədə onların malik olduqları mülkiyyətin miqyasından, strukturundan və idarə olunmasından asılıdır. Onlar eyni zamanda bələdiyyələrin müstəqilliyinin vacib şərtlərindən biridir. Bələdiyyələr yerli büdcənin

---

[38] Овчинников И.И. "Финансово-экономическая основа местного самоуправления // Местное самоуправление: современный российский опыт законодательного регулирования", М., 1998, с. 139-140

formalaşdırılması sahəsində də bir sıra hüquqlara malikdirlər. Onlar müstəqil surətdə bələdiyyə maliyyəsinin xərclər hissəsini formalaşdırır və bələdiyyə maliyyəsini bir qayda olaraq, təhsil, səhiyyə, yolların saxlanması və digər sahələrdə yerli əhəmiyyətli məsələlərin həllinə yönəldirlər. Bələdiyyə maliyyə vəsaitləri hesabına tarixi, coğrafi və digər səbəblərdən iqtisadi və sosial cəhətdən zəif inkişaf etmiş ərazilərin inkişaf səviyyəsinin bərabərləşdiriiməsi də həyata keçirilə bilər.[39]

**Bələdiyyələrin hüquqi şəxs yaratmaq hüququ.** Qanuna uyğun olaraq bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yarada bilər, onların yenidən təşkili və ləğvi məsələlərini həll edə bilərlər. Bələdiyyələr yaratdıqları hüquqi şəxlər üzrə aşağıdakı səaliyyətlərə malikdirlər:

1) bələdiyyələr yaratdıqları hüquqi şəxslərin fəaliyyət məqsədlərini, şərtlərini və qaydasını müəyyənləşdirir;

2) onların məhsulunun (xidmətlərinin) qiymətlərini və tariflərini tənzimləyir;

3) nizamnamələrini təsdiq edir;

4) rəhbərlərini təyin və azad edir;

5) fəaliyyətinə dair hesabatlarını dinləyirlər.

Bələdiyyələrin yaratdıqları hüquqi şəxslərin rəhbərləri ilə münasibətləri mülki və əmək qanunvericiliyinə uyğun olaraq qurulur. Bələdiyyə təhsil müəssisələrinin yaradılması, fəaliyyəti və idarə olunması qaydaları təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Bələdiyyələrlə digər hüquqi və fiziki şəxslər arasında yaranan münasibətlər müqavilələr əsasında tənzimlənir. Bununla yanaşı Qanuna uyğun olaraq bələdiyyə orqanları bələdiyyə ərazisinin kompleks sosial-iqtisadi inkişafında hüquqi və fiziki şəxslərin iştirakını əlaqələndirə bilərlər. Azərbaycan

---

[39]Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.194

Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, bələdiyyələr hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyəti üçün məhdudiyyətlər müəyyənləşdirə bilməzlər.

**Bələdiyyə sifarişi.** Bələdiyyələr öz maddi və maliyyə vəsaitlərindən istifadə edilməklə aşağıdakı istiqamətlər üzrə sifarişçi kimi çıxış edə bilərlər:

1) bələdiyyə ərazisinin abadlaşdırılması;

2) əhaliyə kommunal xidmətlər göstərilməsi;

3) sosial infrastruktur obyektlərinin tikintisi və təmiri;

4) müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı;

5) müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri xidmətlərin göstərilməsi;

6) digər işlərin görülməsi.

Bələdiyyələr yerli əhalinin mənafeyi üçün qanunla müəyyənləşdirilmiş qaydada xarici iqtisadi fəaliyyətlə məşğul ola bilər.

**Yerli vergilər və ödənişlər.** Bələdiyyə maliyyəsinin hüquqi bazasını təşkil edən əsas normativ hüquqi aktların sırasına "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli Qanunu[40], "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli Qanunu[41], "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli Qanunu[42] və digər müvafiq sahə qanunvericiliyi - maliyyə, vergi, mülki hüquq üzrə normalar daxildir. Dövlət

---

[40] Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 698-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №07, maddə 405

[41] Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №12, maddə 690

[42] Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli 244-IIQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №04, maddə 155

bələdiyyələrin yerli büdcənin formalaşdırılması və icrası sahəsində səlahiyyətlərini yuxarıda göstərilən normativ hüquqi aktlarda möhkəmləndirir, onların müstəqil sürətdə yerli sosial, iqtisadi və ekoloji proqramların hazırlanması, maliyyələşdirilməsi və həyata keçirilməsi sahəsində də müstəqilliyini bəyan və təmin edir.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan RespublikasıQanununun 39-46-cı maddələrində bələdiyyə maliyyəsinin hüquqi bazası ilə bağlı məsələlər aşağıdakı kimi təsbit edilmişdir.

**Yerli büdcələr.** Yerli büdcələr bələdiyyə büdcələrindən ibarətdir. Yerli büdcələrin tərtibini, təsdiqini və icrasını, onların icrasına nəzarəti bələdiyyələr müstəqil həyata keçirirlər. Yerli vergilər və ödənişlər, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin II hissəsində və 144-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş əsaslarla qanunvericilik və icra hakimiyyətləri tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə ayrılmış müvafiq zəruri maliyyə vəsaiti, bələdiyyə əmlakının özəlləşdirilməsindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, yerli lotereyalardan, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə daxil olan ödənişlər, bələdiyyə müəssisə, idarə və təşkilatlarının mənfəətindən tutulan vergi, dotasiyalar, subvensiyalar, transfert, ödənişləri, qanuna və bələdiyyələrin qərarlarına müvafiq surətdə digər mədaxil, habelə bələdiyyələrin fəaliyyəti nəticəsində yaranan başqa vəsait yerli büdcələrin mədaxilini təşkil edir. Bələdiyyələr yerli büdcələrin vəsaiti barəsində müstəqil sərəncam verirlər. Yerli büdcələrin mədaxil və məxaric hissələrində yerli əhəmiyyətli məsələlərin həllinin və bələdiyyələrə qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən verilən səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsi ayrılıqda nəzərdə tutulur.

**Yerli büdcələrin təmin edilməsi.** Qanunvericilikdə nəzərdə tutulmuş normalara müvafiq olaraq Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə verilmiş səlahiyyətlərin normal yerinə yetirilməsi kifayət edən yerli büdcələrin zəruri xərclərinin ödənilməsi üçün gəlir mənbələrini təsbit etmək yolu ilə bələdiyyələrin büdcələrini formalaşdırırlar. Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının Dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üzrə hər il nəzərdə tutulur. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər. Bələdiyyələr onların məşğuliyyət dairəsinə aid edilmiş sahələrdə əhalinin əsas yaşayış tələbatının ödənilməsini dövlət sosial standartlarından aşağı səviyyədə təmin edə bilməzlər. Bu standartların yerinə yetirilməsində dövlət müvafiq ayırmaları yerli büdcələrin mədaxilinə təsbit etmək yolu ilə bələdiyyələr kömək göstərə bilərlər. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydiyyata alınması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər. Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində bələdiyyənin məxarici artıb mədaxili azalarsa, qərar qəbul etmiş orqanlar kompensasiya ödəyirlər. Kompensasiyanın məbləği müvafiq qərarın qəbul olunması ilə bir vaxtda müəyyənləşdirilir. Bələdiyyələrin əlavə xərclərinə səbəb olan dövlət orqanlarının qərarlarını bələdiyyələr onlara kompensasiya kimi verilmiş vəsait həddində həyata keçirirlər.

**Yerli vergilər və ödənişlər.** Yerli vergiləri, ödənişləri, habelə onların ödənilməsi üzrə güzəştləri bələdiyyələr Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və qanunlarına uyğun müəyyənləşdirirlər. Yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır. Bələdiyyələr qanunvericilikdə nəzərdə tutulmuş qaydada məqsədli layihələrin maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslər tərəfindən ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edilə bilər. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilərlər. Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bələdiyyələr bələdiyyə lotereyaları buraxa və kreditlər ala bilərlər.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli Qanunu [43] bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsinin prinsiplərini yerli büdcə prosesinin əsaslarını və bu sahələrdə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir.

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzim edən qanunvericilik sisteminə aşağıdaklar daxildir:

1) Azərbaycan Respublikasının Konstitusiyası;

---

[43] Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №12, maddə 690

2) "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu;

3) "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu;

4) "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu;

5) "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;

6) Azərbaycan Respublikasının müvafiq digər normativ hüquqi aktları.

Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını aşağıdakılar təşkil edir:

1) bələdiyyə əmlakı;

2) bələdiyyə torpaqları;

3) yerli büdcə və büdcədənkənar fondlar;

4) bələdiyyənin istehsal fəaliyyəti;

5) bələdiyyənin xidmət fəaliyyəti;

6) bələdiyyənin digər iqtisadi fəaliyyəti.

Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi aşağıdakı prinsiplərə əsaslanır:

1) özünüidarəetmə prinsipi;

2) müstəqillik prinsipi;

3) aşkarlıq prinsipi;

4) yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsipi.

Yerli büdcə dedikdə, bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənedilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaiti başa düşülür. Yerli büdcə bələdiyyə büdcəsi hesab edilir və yerli büdcə dövlət büdcəsinin tərkib hissəsinə daxil deyildir. Bununla yanaşı bələdiyyələrin qanunvericiliyə uyğun olaraq yerli büdcənin tənzimlənməsi prosesində dövlət büdcəsindən vəsait almaq hüququ vardır.

Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur. Büdcə hər il yanvar ayının 1-də başlanır və həmin ilin dekabr ayının 31-də başa çatır.

Yerli büdcənin müstəqilliyi prinsipi bəzi xarakterik xüsusiyyətlərə malikdir. Belə ki, yerli büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin olması və bələdiyyənin yerli büdcə vəsaiti barədə sərəncam vermək müstəsna hüququ ilə təmin edilir. Azərbaycan Respublikası qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə, müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla yol verilmir. Bələdiyyə yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam vermək hüququna malikdir. Bələdiyyə yerli büdcəni iqtisadi qanunların tələblərinə uyğun müstəqil olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir.

Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir. Lakin dövlət onun öhdəliklərinə görə məsuliyyət daşımır. Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanəti aşağıdakılara əsaslanır:

1) İnvestisiya və pul-kredit siyasəti əsasında istehsal və xidmət sferasının inkişafına şərait yaratmaq;

2) Yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiyaların ayrılması.

Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğləri bu qərarları

qəbul edən orqanlar tərəfindən kompensasiya olunur. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına və müvafiq icra hakimiyyəti orqanına - Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsi ilə yerli büdcənin gəlirləri sisteminə aşağıdakılar aid edilmişdir:

1) fiziki şəxslərdən torpaq vergisi;

2) fiziki şəxslərdən əmlak vergisi;

3) yerli əhəmiyyətli tikinti materiallar üzrə mədən vergisi;

4) bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;

5) bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödəniş;

6) kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli ödənişlər;

7) Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya, subvensiya və ssudalar;

8) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər;

9) fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;

10) dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti;

11) Yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar.

Yerli büdcənin gəlirləri ilə bağlı aşağıdakı tənzimetmə metodlarından istifadə edilir:

1) 1-4-cü və 6-cı yarımbəndlərdə göstərilən yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə dərəcələrinin yuxarı həddi qanunla müəyyən edilir. Lakin onların tətbiqinin zəruriyyəti və konkret dərəcələri isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir.

2) 5-ci yarımbəndə göstərilən bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamının yerləşdirilməsi, yayımı və reklam tarifi zonaları üzrə ödənilən haqqın minimum miqdarının hesablanması qaydaları "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur, konkret dərəcələri isə bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

3) 7-ci yarımbənddə göstərilən dövlət büdcəsindən yerli büdcələrə ayrılan dotasiya və subvensiyalar "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 32.2.2-ci və 34.4-cü maddələri ilə müəyyən edilmiş qaydada verilir.

4) Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli məsələlərin maliyyələşdirilməsi üçün 6-cı yarımbəndə göstərilən yerli ödənişlər, habelə könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər barədə qərarlar nəticəsində əldə olunan vəsait yalnız məqsədli təyinatı üzrə istifadə olunur.

**Yerli büdcələrin xərcləri.** Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Yerli büdcə bələdiyyənin idarəetmə xərcləri, sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri nəzərə alınmaqla bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır. Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər. Bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin

təşkilinə yardım məqsədi ilə yerli büdcədə zəruri xərclər nəzərdə tutulur və təyinatı üzrə sərf edilir.

Yerli büdcənin xərc istiqamətləri müəyyən edilərkən əməkhaqlarına ayırmalar ümumi büdcənin əlli faizindən çox ola bilməz. Bələdiyyə büdcəsindən pul vəsaiti yalnız bələdiyyə iclasının qərarı ilə ayrılır və bu qərarda həmin vəsaitin təyinatı, məqsədi və dəqiq miqdarı göstərilməlidir. Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək ola bilməz. Dotasiyanın yuxarı həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi və digər amillər nəzərə alına bilər. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyətləri tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirdə göstərilir. Xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

**Yerli büdcənin tərtibi.** Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır. Bələdiyyələr dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcə layihəsini tərtib edərkən müvafiq icra hakimiyyəti orqanına mayın 1-dək lazımi hesablamalar verirlər. Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin bələdiyyə iclasına təqdim edildiyi günədək davam edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim edilməsinə bələdiyyə sədri cavabdehdir və bu məqsədlə o,

bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər.

Növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir.Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyə iclasında cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir.Növbəti maliyyə ili üçün dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcənin layihəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq bələdiyyənin qərarı şəklində təsdiq edilir. Təsdiq edilmiş yerli büdcə bələdiyyənin qərarı ilə dəqiqləşdirilə bilər.

Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edir.Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin həyata keçirilməsi üçün maliyyə vəsaitindən istifadəyə həmin orqanlar nəzarət edirlər.

Bələdiyyələr öz maliyyəsinin təşkili işini həm müvafiq bələdiyyə ərazisində, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının rezidenti olan kredit təşkilatları ilə qarşılıqlı əlaqədə yerinə yetirirlər. Bələdiyyələrlə kredit və sığorta təşkilatları arasında qarşılıqlı münasibətlər müqavilə əsasında həyata keçirilir.

Bələdiyyələr qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqlara malikdir:

1) özünün hesablaşma və kassa əməliyyatlarının aparılması üçün müvəkkil bankı seçmək və xəzinədarlığı yaratmaq və ya yerli büdcənin kassa icrasını qanunvericiliyə uyğun olaraq dövlət xəzinədarlığı vasitəsilə həyata keçirmək;

2) Azərbaycan Respublikasının rezidenti olan banklardan və digər kredit təşkilatlarından qısamüddətli və uzunmüddətli kreditlər almaq;

3) bələdiyyə mülkiyyətində olan obyektlərin, bələdiyyə qulluqçularının sığortalanması haqqında qərar qəbul etmək.

Qanunvericiliklə müəyyən edilmişdir ki, kredit təşkilatları qarşısında bələdiyyələrin öhdəlikləri üzrə dövlət məsuliyyət daşımır.

Yerli büdcənin hazırlanması vahid metodologiya, minimal dövlət sosial standartları, sosial normalar əsasında formalaşır. Yerli büdcənin gəlirlər hissəsi aşağıdakılar hesabına formalaşır:

1) vergilər;

2) yığımlar;

3) ayrı-ayrı dövlət səlahiyyətlərinin bələdiyyələrə verilməsi nəticəsində yaranmış əlavə xərclərin qarşılığında dövlət tərəfindən ayrılmış vəsait;

4) bələdiyyə əmlakının özəlləşdirilməsindən əldə olunmuş vəsait;

5) yerli lotereyalar və reklam fəaliyyətindən əldə olunmuş vəsait;

6) bələdiyyə mülkiyyətində olan müəssisələrin gəlirləri;

7) dotasiya;

8) subvensiya;

9) transfertlər.

Yerli büdcənin gəlirlər hissəsi bələdiyyənin öz gəlirlərindən (yerli büdcə üçün nəzərdə tutulmuş tam və ya qismən bələdiyyə büdcəsinə ödənilən vergi və qeyri-vergi ödənişləri), tənzimləyici gəlirlər və maliyyə yardımının istənilən formasından ibarətdir.[44]

Yerli vergilər və ödənişlər fiziki və hüquqi şəxslər tərəfindən yerli büdcəyə ödənilən məcburi ödənişdir, lakin yerli

---

[44] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.195

vergilər əvəzsiz ekvivalentsiz ödəniş olduğu halda, yerli yığımlar əvəzsiz, bəzi hallarda isə ekvivalent olan ödənişdir.[45]

Azərbaycan Respublikasında yerli (bələdiyyə) vergilərin və ödənişlərin ödənilməsi ilə bağlı yaranan iqtisadi və hüquqi münasibətlər"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında"Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli Qanunu[46] ilə tənzimlənir.

Yerli vergilər Azərbaycan Respublikasının vergi sisteminin tərkib hissəsini təşkil edir. Yerli vergilər dedikdə, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq bələdiyyələrə ödənilən vergilər başa düşülür.

Bələdiyyələr tərəfindən tətbiq edilən ödənişlərə aşağıdakılar aiddir:

1) "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilən ödənişlər;

2) yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlər.

Bu ödənişlər hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş vergi öhdəlikləri yerinə yetirildikdən sonra onların sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilir.

Yerli vergilərin müəyyən edilməsinin əsasları qanunvericik səviyyəsində aşağıdakı kimi müəyyən edilmişdir:

1) vergitutma obyekti;

2) vergitutma bazası;

3) vergitutma dövrü;

---

[45]Зуев В.М.Проблемы местного налогообложения. Томск, 1998, с.10

[46] Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli 244-IIQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №04, maddə 155

4) vergi dərəcəsi;

5) verginin hesablanması qaydası;

6) verginin ödənilməsi qaydası və müddəti.

**Vergitutma obyekti və vergi ödəyicisi.** Bələdiyyə vergilərinin vergitutma obyekti dedikdə aşağıdakılar nəzərdə tutulur:

1) bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəəti;

2) yerli əhəmiyyətli tikinti materialları;

3) fiziki şəxslərin əmlakı (tikililər və onların hissələri, avtomobil və özüyeriyən təkərli texnika, su və hava nəqliyyatı vasitələri);

4) fiziki şəxslərin istifadəsində və (yaxud) mülkiyyətində olan torpaq sahələri.

Vergi ödəyicisi dedikdə, Qanuna uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergi ödəyən fiziki və hüquqi şəxslər nəzərdə tutulur.

Tikililər və onların hissələrinə görə fiziki şəxslərdən əmlak vergisi hesablamaq məqsədi ilə bələdiyyələr 3-5 ildə bir dəfədən çox olmamaq şərti ilə, ərazilərində yerləşən müvafiq əmlakın vergiqoyma məqsədləri üçün qiymətləndirilməsi barədə qərar qəbul edirlər. Əmlakın qiymətləndirilməsi üzrə əməliyyatlar bələdiyyələrin vəsaiti hesabına maliyyələşdirilir. Bu dəyər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalar əsasında müəyyənləşdirilir. Əmlakın dəyəri fiziki şəxsin təşəbbüsü ilə və onun hesabına müstəqil peşəkar qiymətləndiricilər tərəfindən hesablana bilər.

Vergi agenti dedikdə, vergi qanunvericiliyinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə yeni büdcəyə köçürməyə borclu olan şəxs başa düşülür. Vergi ödəyicisinin və vergi agentinin hüquq və vəzifələri vergi qanunvericiliyi ilə tənzimlənir.

Vergilər aşağıdakı formalarda tutulur:

1) bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);

2) bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması);

3) bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında, bələdiyyələrin vergi xidməti orqanlarının hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi üzrə vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

Qanunvericilikdə müəyyən edilmiş qaydada vergilərin və ödənişlərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasında yerli vergilərin və ödənişlərin ödənilməsi və yığılması qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları Qanunla təsdiq olunan müvafiq Əsasnamə ilə müəyyən edilir.

Yerli vergilərin tərkibinə aşağıdakılar daxildir:

1) fiziki şəxslərdən torpaq vergisi;

2) fiziki şəxslərdən əmlak vergisi;

3) yerli əhəmiyyətli tikinti materialları (kərpic-kirəmit gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik olan çınqıl xammalı) üzrə mədən vergisi;

4) bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi.

Yerli ödənişlərin tərkibinə aşağıdakılar daxildir:

1) bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;

2) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə daxil olan ödəniş;

3) bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş;

4) bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş. Bu ödəniş hər bir şəxs üçün sutkada 1,1 manatdan çox olmamaqla müəyyən edilir;

5) bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş. Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada 0,1 manatdan çox olmamaqla müəyyən edilir.

Qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

Yerli vergilərin və ödənişlərin yığılmasına, yerli büdcələrə köçürülməsinə və istifadə olunmasına nəzarət bələdiyyələrin müvafiq komissiyaları, habelə seçkili orqanlarda, bələdiyyə qulluğunda işləməyən, yerli məhəllə komitələrinin və vətəndaşların yığıncaqlarında təklif olunan, bələdiyyə iclasında təsdiq olunan nəzarət komissiyaları tərəfindən həyata keçirilir. Zəruri hallarda yerli vergi və ödənişlərin yığılmasına və onlardan istifadə edilməsinə nəzarət məqsədi ilə bələdiyyələrin qərarına əsasən müvafiq yoxlamaların aparılması üçün müstəqil auditorlar cəlb oluna bilər. Bələdiyyələrin vergi və ödənişlərin yığılması və istifadəsi sahəsində fəaliyyəti tam aşkarlıq şəraitində həyata keçirilməlidir. Bu məqsədlə bələdiyyələr və onların müvafiq nəzarət komissiyaları bələdiyyə ərazisində yaşayan sakinlər qarşısında mütəmadi olaraq hesabatlar verir,

bülletenlər buraxır, illik hesabatları bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirirlər.

# III FƏSİL
# BƏLƏDİYYƏ ÜZVÜNÜN HÜQUQİ STATUSU

## 3.1. Bələdiyyə üzvünün hüquqları və vəzifələri

Bələdiyyə üzvünün hüquqi vəziyyəti ilə bağlı münasibətlər "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının 2000-ci 18 aprel tarixli Qanunuilə tənzimlənir.[47]

Bələdiyyə üzvünün statusu haqqında qanunvericilik sisteminə aşağıdakılar daxildir:

1) Azərbaycan Respublikasının Konstitusiyası;
2) Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu;
3) Azərbaycan Respublikasının digər qanunvericilik aktları;
4) Bələdiyyənin nizamnaməsi.

Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddəti ilə məhdudlaşır. Bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsinin və onun səlahiyyətlərinə xitam verilməsinin əsasları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bələdiyyə üzvlərinin statusu həmin Qanunun 20-ci maddəsi ilə müəyyən edilmişdir. Bələdiyyə üzvlərinin öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirilməsinə, hüquqlarının, şərəf və ləyaqətinin

---

[47]Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının 2000-ci 18 aprel tarixli 863-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №10, maddə 706

müdafiəsinə dövlət təminat verir. Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. Bələdiyyə üzvləri bələdiyyənin nizamnaməsinə uyğun olaraq öz səlahiyyətlərini daimi əsasda icra edə bilərlər. Öz səlahiyyətlərini daimi əsasda icra edən bələdiyyə üzvlərinin bu vəzifələrdə çalışmaqla bağlı sosial təminatları Azərbaycan Respublikasının qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilir.

Ərazi seçki komissiyası tərəfindən bələdiyyə üzvünə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində müvafiq vəsiqə verilir. Həmin vəsiqənin nümunəsi Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

Bələdiyyə üzvləri qanunvericiliklə müəyyən edilmiş dairədə bir sıra hüquq və vəzifələrə malikdirlər. "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci fəslində bələdiyyə üzvünün hüquq və vəzifələri təsbit edilmişdir.

Bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:

1) bələdiyyənin daimi komissiyalarına üzvü seçmək;

2) bələdiyyənin daimi komissiyalarına üzvü seçilmək;

3) bələdiyyənin digər komissiyalarına üzvü seçmək;

4) bələdiyyənin digər komissiyalarına üzvü seçilmək;

5) bələdiyyənin iclaslarında müzakirə üçün məsələlər təklif etmək;

6) bələdiyyənin orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək;

7) müzakirə olunan məsələlər barəsində çıxış etmək;

8) təkliflər və düzəlişlər vermək;

9) qeydlər etmək;

10) çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrlə göstərilmiş namizədlərə sual vermək;

11) arayış vermək;

12) səsvermədə iştirak etmək;

13) bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;

14) bələdiyyənin daimi komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;

15) bələdiyyənin başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;

16) bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;

17) sorğu vermək;

18) qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

**Bələdiyyə üzvünün sorğusu.** Bələdiyyə üzvü yerli məsələlərlə bağlı aşağıdakı subyektlərə sorğu ilə müraciət etmək hüququna malikdir:

1) bələdiyyənin vəzifəli şəxslərinə;

2) bələdiyyənin icra orqanlarına;

3) bələdiyyə müəssisə, idarə və təşkilatlarına.

Həmin subyektlər tərəfindən bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və (və ya) yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidirlər.

Bələdiyyə üzvü bələdiyyə tərəfindən onun səlahiyyətləri daxilində və qanunvericiliyə müvafiq olaraq qəbul etdiyi qərarlarının pozulmasını aşkar etdikdə onun ərazisində yerləşən həmin pozuntulara yol vermiş şəxslərdən onların aradan qaldırılmasını tələb edə bilər.

Bələdiyyə üzvlərinin bələdiyyə orqanlarının iclaslarında bələdiyyənin səlahiyyətlərinə aid məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır. Bələdiyyə üzvü bir və ya bir neçə bələdiyyənin daimi və başqa komissiyasının üzvü ola bilər.

Bələdiyyə üzvü müvafiq icra hakimiyyəti orqanlarına yerli əhəmiyyətli məsələlərlə bağlı müraciət edə bilər.

Bələdiyyə üzvlərinin üzərinə düşən əsas vəzifələr aşağıdakılardan ibarətdir:

1) Bələdiyyə üzvləri bələdiyyənin iclaslarında iştirak etməyə borcludurlar;

2) Bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalıdır;

3) Bələdiyyə üzvü seçicilərlə görüşlər keçirməlidir;

4) Bələdiyyə üzvü seçicilərin təkliflərinə baxmalıdır;

5) Bələdiyyə üzvü seçicilərin müraciətlərinə baxmalıdır;

6) Bələdiyyə üzvü seçicilərin şikayətlərinə baxmalıdır;

7) Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidir;

Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünü seçicilərlə görüşmək üçün köməklik göstərməlidirlər.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun 21-ci maddəsi "Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi əsasları" adlanır. Həmin maddə ilə bələdiyyə üzvlərinin səlahiyyətləri aşağıdakı hallarda itirilmiş hesab edilir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsinin əsasları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsində təsbit edilibdir. Bu maddə ilə bələdiyyələrin səlahiyyətinə xitam verilməsinin iki qaydası nəzərdə tutulmuşdur:

1) Bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir;

2) Bələdiyyə üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun 22-ci maddəsi ilə bələdiyyə üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsinin əsasları aşağıdakı kimi müəyyən edilmişdir:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;

5) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 22-1-ci maddəsi ilə bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması qaydası müəyyən edilmişdir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması dedikdə, onların Bələdiyyə üzvünün statusu haqqında

Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş hüquqlarının həyata keçirilməsinin müvəqqəti dayandırılması başa düşülür. Bələdiyyə üzvlərinin səlahiyyətləri yuxarıda nəzərdə tutulmuş əsaslarla bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən bələdiyyə tərəfindən qərar qəbul edilənədək dayandırılır.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 22-2-ci maddəsi ilə "Bələdiyyənin vaxtından əvvəl buraxılması"na dair normalar ehtiva edilmişdir. Azərbaycan Respublikası Milli Məclisi ona Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununu 52-2-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq müraciət olduqda və bununla əlaqədar bələdiyyənin hesabatının dinlənilməsi nəticəsində onun fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bələdiyyənin vaxtından əvvəl buraxılması haqqında qərar qəbul edir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə bələdiyyənin vaxtından əvvəl buraxılması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edir. Bələdiyyənin vaxtından əvvəl buraxılması nəticə etibarı ilə bələdiyyə üzvlərinin də səlahiyyətinin başa çatması ilə nəticələnir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 23-cü maddəsi ilə "Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi qaydası" aşağıdakı kimi müəyyən edilmişdir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 21-ci və 22-ci maddələrində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 144-cü və 145-ci maddələrinə müvafiq surətdə bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun 21-ci maddəsinin 1-ci, 2-ci, 3-cü, 5-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir. Həmin bəndlər aşağıdakılardan ibarətdir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun 22-ci maddəsinin 1-ci, 3-cü, 5-ci, 6-cı bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir. Həmin bəndlər aşağıdakılardan ibarətdir:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

3) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

4) ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

### 3.2. Bələdiyyə üzvünün təminatları

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının 2000-ci il 18 aprel tarixli Qanununun[48] üçüncü fəsli "Bələdiyyə üzvünün fəaliyyətinin əsas təminatları və məsuliyyəti" adlanır. Həmin Qanunun 10-cu maddəsi ilə bələdiyyə üzvünün fəaliyyətinin dövlət təminatının əsas istiqamətləri müəyyən edilmişdir. Qanuna əsasən bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir. Bələdiyyə üzvünün fəaliyyətinin dövlət təminatına aşağıdakılar daxildir:

1) bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir;

2) bələdiyyə üzvünün səlahiyyətlərinin səmərəli həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir;

3) bələdiyyə üzvünün hüquqlarının qorunmasına dövlət tərəfindən təminat verilir;

4) bələdiyyə üzvünün şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir.

Qanunla bələdiyyə üzvlərinin əlavə təhsili üzrə təminatlarda nəzərdə tutulmuşdur. Müəyyən edilmişdir ki, bələdiyyə üzvləri mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilirlər.

Bələdiyyə üzvlərinin təminatları sistemində onların əmək hüquqlarının təminatı da xüsusi yer tutur. "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində "Bələdiyyə üzvünün əmək hüquqlarının təminatı"na dair normalar təsbit edilmişdir. Həmin maddə ilə müəyyən edilmişdir ki, səlahiyyət müddətində bələdiyyə üzvü

---

[48] Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının 2000-ci il 18 aprel tarixli 863-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №10, maddə 706

bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətinin təşəbbüsü ilə işdən çıxarıla, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz. Müəssisə, idarə və təşkilat yenidən təşkil olunduqda, struktur dəyişikliyi edildiyi hallarda da bu təminat tətbiq olunur.

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə "Bələdiyyə üzvünün fəaliyyətinin informasiya təminatı"nın qanunvericilik bazası yaradılmışdır. Bələdiyyənin sədri və müavini, bələdiyyənin icra aparatı bələdiyyə üzvlərinin fəaliyyətinin informasiya təminatı ilə bağlı aşağıdakıları etməlidirlər:

1) bələdiyyə üzvlərini lazımi sənədlərlə təmin edirlər;

2) bələdiyyə üzvlərini bələdiyyənin rəsmi nəşrləri ilə təmin edirlər;

3) köməyə ehtiyac olan məsələlərlə bağlı bələdiyyə üzvlərinə yardım göstərirlər;

4) bələdiyyə üzvlərinin yerli özünüidarə orqanlarının qərar və sərəncamları ilə tanış olmalarına şərait yaradırlar.

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikası Qanununun 13-cü maddəsi "Bələdiyyə üzvünün istehsal və ya xidmət fəaliyyətinə münasibəti" adlanır. Həmin maddənin daxili elementləri aşağıdakı kimi ifadə edilir:

1) əmək haqqını bələdiyyədən alan bələdiyyə üzvünün əsas iş yerli bələdiyyə hesab olunur;

2) əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətlərini həyata keçirərkən istehsal və ya xidmət, eləcə də elmi, təhsil və yaradıcılıq fəaliyyətini dayandırmır;

3) bələdiyyə üzvü bələdiyyənin və ya onun daimi komissiyalarının iclasları zamanı öz daimi iş yerindəki vəzifələrinin yerinə yetirilməsindən azad olunur;

4) bələdiyyə üzvü "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.3-cü

maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü ola bilməz;

5) bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz;

6) bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir.

Bələdiyyə üzvləri öz vəzifələrini, bir qayda olaraq, əsas fəaliyyətlərindən ayrılmadan həyata keçirirlər. Lakin bələdiyyə üzvləri peşəkar əsaslarla, yəni əsas iş yeri bələdiyyə olmaqla, nümayəndəli orqanda da fəaliyyət göstərə bilərlər. Göstərilən bu qayda Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun "Bələdiyyə üzvlərinin statusu" adlanan 20-ci maddəsinə əsasən:

1) Bələdiyyə üzvlərinin öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirilməsinə, hüquqlarının, şərəf və ləyaqətinin müdafiəsinə dövlət təminat verir;

2) Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir;

3) Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir;

4) Bələdiyyə üzvləri bələdiyyənin nizamnaməsinə uyğun olaraq öz səlahiyyətlərini daimi əsasda icra edə bilərlər;

5) Öz səlahiyyətlərini daimi əsasda icra edən bələdiyyə üzvlərinin bu vəzifələrdə çalışmaqla bağlı sosial təminatları Azərbaycan Respublikasının qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun 15-ci maddəsində "Bələdiyyə üzvü"nə dair normalarda onun əmək hüquqlarının təminatlarına dair müddəalar aşağıdakı kimi təsbit edilmişdir:

1) Bələdiyyə üzvü - bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir;

2) Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü - bələdiyyə büdcəsi hesabına aylıq əmək haqqı alan və əsas iş yeri bələdiyyə hesab edilən bələdiyyə üzvüdür;

3) Elmi, yaradıcılıq və pedaqoji fəaliyyət istisna olmaqla, öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü əsas iş yeri üzrə başqa yerdə işləyə bilməz;

4) Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayandırmır;

5) Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əmək haqqı saxlanılmaqla öz istehsal və ya xidmət vəzifəsini yerinə yetirməkdən azad edilir;

6) Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz;

7) Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir;

8) Başqa əsas iş yeri olan bələdiyyə üzvü (sədr və onun müavinləri daxil olmaqla) öz səlahiyyətlərini daimi əsasla icra etmək və əmək haqqını bələdiyyədən almaq üçün bələdiyyəyə yazılı müraciət edir;

9) Bələdiyyə sədri müraciət etmiş bələdiyyə üzvünün öz səlahiyyətlərini daimi əsasla icra etməsinə bələdiyyəyə ehtiyac olduqda, 5 gün müddətində bu barədə bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürənə yazılı bildiriş göndərir;

10) Bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürən nəzərdə tutulan bildirişi aldığı tarixdən 5 gün müddətində əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq bələdiyyə üzvü ilə əmək müqaviləsinə xitam verir və bu barədə bələdiyyəyə yazılı məlumat verir;

11) Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvlərinin (sədr və onun müavinləri daxil olmaqla) say həddi hər

bir bələdiyyədə qanunvericiliklə müəyyən edilmiş üzvlərin sayından asılı olaraq aşağıdakı kimi müəyyənləşdirilir:

- 5 və ya 7 üzvü olan bələdiyyələrdə - 2 üzv;
- 9 və ya 11 üzvü olan bələdiyyələrdə - 3 üzv;
- 13 və ya 15 üzvü olan bələdiyyələrdə - 4 üzv;
- 17 və ya 19 üzvü olan bələdiyyələrdə - 5 üzv.

12) Bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla bilməz, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz.

Bələdiyyə üzvlərinin daimi əsaslarla “deputatlıq” fəaliyyəti ilə məşğul olmasının həm mənfi, həm də müsbət cəhətləri vardır. Bir tərəfdən, bələdiyyə üzvünün daimi əsaslarla nümayəndəli orqanda fəaliyyət göstərməsi ona, bələdiyyə tərəfindən həll edilən məsələlərin mahiyyətini dərindən anlamağa və peşəkarcasına qərarlar qəbul etməyə imkan verir. Digər tərəfdən, bu əsaslarla fəaliyyət göstərən bələdiyyə üzvü adi bələdiyyə məmuruna çevrilə bilər, belə olan halda onun seçicilərlə əlaqələri zəifləyir. Bu vəziyyətdən çıxış yolu kimi bələdiyyələrə baxılacaq məsələlərdə bələdiyyə üzvlərinə kömək edə biləcək, onlar üçün rəy və təkliflər hazırlayacaq ixtisaslaşmış əsaslarla fəaliyyət göstərən bələdiyyə üzvləri adi bələdiyyə qulluqçusundan öz fəaliyyətinin məzmununu görə fərqlənir. Belə ki, bələdiyyə üzvü onu seçmiş seçicilərin maraqlarını müdafiə edir, onları nümayəndəli orqanda təmsil edir.[49]

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının[50] "Yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsi şərtləri" adlanan 7-

---

[49] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.164-165

[50] Yerli özünüidarə haqqında Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №01, maddə 8

ci maddəsində bələdiyyə üzvlərinin təminatları aşağıdakı kimi təsbit edilmişdir:

1. Yerli seçkili şəxslərin statusu onların səlahiyyətlərinin sərbəst həyata keçirilməsini təmin etməlidir.

2. Yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı çəkdikləri xərclərin müvafiq pul kompensasiyasını, həmçinin zərurət olduqda, əldən çıxmış faydaya yaxud əmək haqqına görə kompensasiyanı və müvafiq sosial sığortanı almağa imkan verməlidir.

3. Yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan istənilən funksiyalar və fəaliyyət yalnız qanunla yaxud əsas hüquqi prinsiplərlə müəyyənləşdirilə bilər.

Ədəbiyyatda bələdiyyə üzvünün təminatları ağağıdakı qruplarda birləşdirilmişdir:[51]

**Təşkilati təminatlar:** bu təminatlar dövlət orqanları və yerli özünüidarəetmənin digər orqanlarının bələdiyyə üzvlərinin fəaliyyəti üçün zəruri şəraitin yaradılması ilə bağlıdır. Belə ki, bələdiyyə üzvünün fəaliyyəti ilə bağlı olaraq dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri tərəfindən qəbul edilməli, bu orqanlardan fəaliyyəti üçün zəruri olan məlumatlar və materiallar almaq hüququna malik olmalıdır. Nümayəndəli orqandakı fəaliyyəti ilə bağlı olaraq bələdiyyə üzvü KlV-də çıxış edə bilər. Yerli özünüidarəetmənin təşkilati cəhətdən dövlət orqanları sistemindən ayrılınası bələdiyyənin fəaliyyətinə inzibati nəzarət istisna olmaqla, dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxslərinin bələdiyyənin fəaliyyətinə müdaxiləsini inkar edir və nəticə etibarilə bələdiyyə hakimiyyətini onun yeganə mənbəyi olan xalqa daha da yaxınlaşdırır.

**Maddi təminatlar:** bu təminatlar bələdiyyə üzvlərinin öz funksiyalarını icra etməsilə bağlı qarşılaşdıqları maddi itkilər ilə bağlı olaraq onların hüquq və maraqlarının müdafiəsinə xidmət

---

[51] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.165-168

edir. Belə ki, iş yerindən ayrılmadan "deputatlıq" fəaliyyəti ilə məşğul olan bələdiyyə üzvləri bələdiyyə iclaslarının keçirilməsi zamanı əmək fəaliyyətindən azad olunurlar, lakin bu zaman əmək haqqının ödənilməsi ilə bağlı itkilərin kompensasiyası qanunvericiliyə uyğun olaraq təmin edilir. Nümayəndəli orqanda daimi əsaslarla fəaliyyət göstərən bələdiyyə üzvünə bələdiyyənin icra orqanlarının işçiləri üçün müəyyən edilmiş həcmdə aylıq əmək haqqı müəyyən edilir. Bələdiyyə üzvləri səlahiyyət müddəti qurtardıqdan sonra yeni müddətə seçilmədikdə bələdiyyə büdcəsinin vəsaiti hesabına 3 ay ərzində müavinət alırlar.

**Əmək hüquqlarının təminatları:** bu kateqoriyadan olan təminatlar bələdiyyə üzvlərinin əmək münasibətlərinin subyektləri kimi maraqlarının müdafiəsinə xidmət edir. Əmək hüquqlarının təminatları bələdiyyə üzvlərinin bütün səlahiyyət müddətinə şamil edilir. Səlahiyyət müddəti onun ümumi və fasiləsiz iş stajına daxil edilir. Səlahiyyət müddətində bələdiyyə üzvü bələdiyyənin, bələdiyyə iclasları arasındakı dövrlərdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla, yaxud da intizam tənbehi qaydasmda azmaaşlı işə keçirilə bilməz. Bələdiyyə üzvünün əmək hüquqlarının bu təminatı, həmçinin müəssisə, idarə və təşkilatın yenidən təşkili, struktur dəyişikliyinə məruz qaldığı hallarda da şamil edilir. Bələdiyyə üzvləri, həmçinin onların bələdiyyə iclaslarında iştirakı prosesində daim iş yerində vəzifələrinin yerinə yetirilməsindən azad olunurlar.

**İnformasiya təminatı**: bələdiyyə üzvünün fəaliyyətinin daha səmərəli təşkil edilməsi məqsədi ilə qanunda bələdiyyə üzvünün fəaliyyətinin informasiya təminatı da nəzərdə tutulmuşdur. Belə ki, bələdiyyə sədri və müavini, bələdiyyənin icra aparatı bələdiyyə üzvlərini lazımi sənədlərlə və bələdiyyənin rəsmi nəşrləri ilə təmin etməli, köməyə ehtiyacı olan məsələlərlə bağlı onlara yardım göstərməli və onların yerli

özünüidarəetmə orqanlarının qərar və sərəncamları ilə tanış olmaları üçün şərait yaratmalıdırlar.

**Bələdiyyə üzvlərinin toxunulmamazlığı**: Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikası Qanununda bələdiyyə üzvünün şərəf və ləyaqətinin müdafiəsi tədbirləri müəyyən edilmiş və onun şəxsiyyətinin Azərbaycan Respublikasının hər bir vətəndaşının şəxsiyyəti kimi müdafiə olunması nəzərdə tutulmuşdur. İmmunitet hüququ qanunvericilikdə bələdiyyə üzvləri üçün deyil, bələdiyyə üzvlüyünə namizədlər üçün nəzərdə tutulmuşdur. Belə ki, Seçki Məcəlləsinin 70.4-cü və 219-cu maddələrinin tələblərinə görə prokurorluğun razılığı olmadan bələdiyyə üzvlüyünə namizəd cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, eləcə də məhkəmə qaydasında inzibati tədbirə məruz qala bilməz. Prokurorluq buna razılıq verərsə, dərhal seçki kommissiyasına məlumat verilməldir.

### 3.3. Bələdiyyə üzvünün məsuliyyəti

Azərbaycan Repsublikasında 1999-cu ildən fəaliyyət göstərən bələdiyyələr artıq reallığa çevrilmişdir. Buna sübut olaraq yerli özünüidarəetmənin həm qanunvericiliklə təsbit edilməsini, həm də yerli özünüidarəetmə prinsipinin faktiki realizasiyasını göstərmək olar. Lakin yerli əhəmiyyətli məsələləri əhalinin müstəqil həll etmək hüququna əsaslanan və təşkilati cəhətdən dövlət orqanları sistemindən ayrılan bələdiyyələrin fəaliyyəti, həmçinin onların qanunvericiliklə müəyyən edilmiş subyektlər qarşısında məsuliyyətini də nəzərdə tutur. Bu məsuliyyət həm yaranma əsasına, həm də realizə formasına və subyektlərinə görə müxtəlifdir.[52]

Bələdiyyələrin hüquqi məsuliyyətinin aşağıdakı növlərini fərqləndirmək olar:

---

[52] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.237

1) cinayət məsuliyyəti;

2) inzibati məsuliyyət;

3) mülki (maddi) məsuliyyət,

4) intizam məsuliyyəti.

Hüquqi məsuliyyətin göstərilən növləri bir-birindən məsuliyyətə cəlb edilmə əsasları və qaydası ilə, məsuliyyətin məzmununa görə, məsuliyyətə cəlb olunan (bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri) və cəlb etmək hüququ olan (bələdiyyələrin məsuliyyəti dövlət, əhali və fiziki və hüquqi şəxslər qarşısında yarınır) subyektlərin dairəsinə və s. hallara görə fərqlənirlər.

Yerli özünüidarəetmənin vəzifəli şəxslərinin və seçkili orqanlarının məsuliyyəti prinsipcə yerli əhəmiyyətli məsələlərin daha optimal həllinə, yerli əhalinin maraqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikası Qanununun[53] 14-cü maddəsi "Bələdiyyə üzvünün bələdiyyədə fəaliyyəti ilə əlaqədar məsuliyyəti" adlanır.Həmin maddəyə əsasən bələdiyyə üzvü barəsində bələdiyyədə fəaliyyəti ilə əlaqədar aşağıdakı hallarda intizam tədbirləri tətbiq edilir:

1) bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;

2) bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;

3) bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzürsüz səbəbə görə iştirak etmədikdə;

4) Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş

---

[53]Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının 2000-ci il 18 aprel tarixli 863-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №10, maddə 706

tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda).

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli Qanununun "Maliyyə xarakterli tələblər" adlanan 5-ci maddəsi ilə müəyyən edilmişdir ki, vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı məlumatları təqdim etməlidirlər:

1) mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə;

2) vergitutma obyekti olan əmlakı barədə;

3) kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları və digər maliyyə vəsaitləri barədə;

4) şirkətlərin, fondların və sair təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, bu müəssisələrdə öz mülkiyyət payı barədə;

5) şərti maliyyə vahidinin beş min misli miqdarından yuxarı olan borcu barədə;

6) şərti maliyyə vahidinin min mislindən yuxarı maliyyə və əmlak xarakterli digər öhdəlikləri barədə.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi "Korrupsiya ilə əlaqədar hüquqpozmalar" adlanır. Həmin maddədə təsbit edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalar aşağıdakı iki növ üzrə fərqləndirilmişdir:

1) bilavasitə korrupsiya hüquqpozmaları;

2) korrupsiyaya şərait yaradan hüquqpozmalar.

Korrupsiya hüquqpozmalarına aşağıdakılar daxildir:

1) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etməsi, əldə

etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etməsi;

2) xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi;

3) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədilə istifadə edilməsi;

4) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi;

5) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi;

6) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi;

7) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən şəxs tərəfindən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qəbul edilməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifin və ya vədin qəbul edilməsi.

Vəzifəli şəxsin aşağıdakı hərəkətləri korrupsiyaya şərait yaradan hüquqpozmalar sayılır:

1) xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq;

2) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar, subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək;

3) bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə-kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq;

4) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə onun səlahiyyət dairəsinə daxil olmayan məsələlər üzrə digər dövlət orqanlarının fəaliyyətinə qanunsuz müdaxilə etmək;

5) statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etmək;

6) normativ hüquqi aktların və digər orqanların qəbul edilməsi zamanı fiziki və ya hüquqi şəxslərə onların təyinatına uyğun olmayan üstünlüklər vermək;

7) vəzifə tutduğu və ya ona tabe olan, onun nəzarətində olan, habelə ona hesabat verən orqanların işi üzrə fiziki və ya hüquqi şəxslərin nümayəndəsi qismində iştirak etmək;

8) qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmuş məlumatların fiziki və ya hüquqi şəxslərə verilməsindən əsassız imtina etmək, belə məlumatların verilməsini gecikdirmək və yaxud natamam və ya təhrif olunmuş məlumatlar vermək;

9) qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmayan məlumatları və sənədləri fiziki və hüquqi şəxslərdən tələb etmək;

10) dövlət orqanları və ya yerli özünüidarəetmə orqanlarının maddi və maliyyə vəsaitlərini qanunsuz olaraq namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşəbbüs qruplarının seçki fonduna vermək;

11) qanunvericiliklə başqa hal nəzərdə tutulmamışdırsa, dövlət fondlarına, dövlət orqanlarının və ya yerli özünüidarəetmə orqanlarının təsərrüfat subyektlərinə məxsus olan maddi və maliyyə ehtiyatlarını qeyri-dövlət strukturlarına vermək;

12) fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq;

13) sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi ilə bağlı səlahiyyətləri belə fəaliyyəti həyata keçirən fiziki və hüquqi şəxslərə qanunsuz olaraq vermək.

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallardan başqa, vəzifəli şəxslərin fəaliyyətini tənzimləyən və ya statusunu müəyyən edən qanunvericilik aktlarında korrupsiya ilə əlaqədar digər hüquqpozmalar müəyyən edilə bilər.

Bələdiyyə üzvü barəsində tətbiq edilən intizam tədbirləri Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan RespublikasıQanununun 15-ci maddəsində təsbit edilmişdir. Həmin maddə ilə müəyyən edilmişdir ki, bələdiyyə üzvü barəsində aşağıda göstərilən intizam tədbirlərinin tətbiq edilməsi qaydası bələdiyyənin nizamnaməsi ilə tənzimlənir:

1) xəbərdarlıq;

2) söz kəsmə;

3) iclas zalından çıxarma;

4) töhmət;

5) bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi.

Bələdiyyə üzvünün məsuliyyəti nə əhali, nə dövlət, nə də fiziki və hüquqi şəxslər qarşısında müəyyən edilməmişdir. Göstərilən normalarda bələdiyyə üzvünün bələdiyyənin nümayəndəli orqanı qarşısında intizam məsuliyyəti nəzərdə tutulur.[54]

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanununda intizam məsuliyyətinin yaranma əsasları aşağıdakı kimi təsbit edilmişdir:

1) bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;

2) bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;

3) bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzürsüz səbəbə görə iştirak etmədikdə;

Bələdiyyə üzvünün məsuliyyətinin təhlilionun mandatının vaxtından tez itirilməsi və səlahiyyətlərinə xitam verilməsi əsaslarının qiymətləndirilməsi ilə diqqəti cəlb edir.Bələdiyyə üzvünün səlahiyyətlərinin vaxtından tez itirilməsininəsaslarıbələdiyyənin hüquqi məsuliyyətinin nəticəsi kimi xarakterizə etmək olmaz. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsinin əsasları məzmun etibari ilə məsuliyyət tədbirləri hesab edilmir. Onlar bələdiyyə üzvünün hüquqi vəziyyətinin dəyişməsinə səbəb olan obyektiv nəticədir. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 21-ci maddəsi ilə bələdiyyə üzvlərinin

[54] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.238

səlahiyyətlərinin itirilməsinin əsaslarına aşağıdakılar aid edilmişdir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 22-ci maddəsində bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi əsasları təsbit edilmişdir. Həmin maddəyə görə bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsinin iki növü fərqləndirilmişdir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir;

2) bələdiyyə üzvlərinin səlahiyyətlərinə səlahiyyət müddəti başa çatmadan vaxtından əvvəl xitam verilə bilər.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;

5) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxslərinin məsuliyyətinə dair münaibətləri tənzim edən normaların həyata keçirilməsinin təşkilati mexanizmi bələdiyyələrin Nizamnaməsi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli Qanunu ilə "Bələdiyyənin nümunəvi nizamnaməsi" [55] təsdiq edilmişdir. Nümunəvi nizamnamənin yeddinci hissəsi ilə bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növlərinə dair məsələlərin hüquqi tənziminin əsasları müəyyən edilmişdir. Həmin norma ilə müəyyən edilmişdir ki, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri öz fəaliyyətlərinə və qəbul etdikləri qərarlara, hüquqa zidd hərəkətlərinə (hərəkətsizliyinə) görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətini ümumi şəkildə ehtiva edən bu normanı genişləndirə və daha dəqiq surətdə məsuliyyətin formasını, habelə məsuliyyətə cəlb edilməsi mexanizmini göstərə bilərlər.

Bələdiyyə orqanları və vəzifəli şəxslərinin məsuliyyəti iki halda yarana bilər:

1) Qanunvericiliyin pozulmasına görə konkret hüquq pozuntusu törədildikdə (məsələn, bələdiyyə üzvü tərəfindən öz

---

[55] Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli 709-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №01, maddə 1

səlahiyyətlərinin icrası zamanı inzibati xətanın törədilməsi inzibati məsuliyyətlə nəticələnir);

2) Bələdiyyə üzvünün məsuliyyəti bələdiyyə hüquq normaları ilə öz vəzifələrini lazımi səviyyədə icra etməməsi, vətəndaş və konkret bələdiyyə əhalisinin yerli özünüidarəetmə hüququnun pozulmasının nəticəsi olaraq nəzərdə tutula bilər.

Yuxarıda qeyd edilənlərə əsasən belə qənaətə gəlmək olar ki, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxslərinin məsuliyyəti hüquqi kateqoriya olaraq kompleks xarakter daşıyır. Bu isə onunla bağlıdır ki, bələdiyyə üzvünün məsuliyyətini nizamlayan normalar şərti olaraq iki qrupa bölünür: bir tərəfdən onlar müstəqil hüquq sahəsinin (konstitusiya, cinayət, inzibati, mülki və s.) normalarıdır, digər tərəfdən isə bu məhz bələdiyyə hüquq normalarıdır.[56]

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxslərinin hüquqi məsuliyyəti ilə bağlı məsələlər sahəvi xarakterə malikdir. Buna görə də, onların məsuliyyəti müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

Ədəbiyyatda bələdiyyələrin məsuliyyətinin təsnifatı aparılmış[57] və onlar əsasən aşağıdakı üç qrupda birləşdirilmişdir:

1) Bələdiyyələrin konstituson-hüquqi məsuliyyəti;

2) Bələdiyyələrin yerli əhali qarşısında məsuliyyəti;

3) Bələdiyyə orqanlarının fiziki və hüquqi şəxslər qarşısında məsuliyyəti.

**Bələdiyyələrin konstitusion-hüquqi məsuliyyəti.**

Bələdiyyələrin dövlət qarşısında məsuliyyətini şərtləndirən əsas amillərdən bir onların konstitusion statusu ilə bağlıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 80-ci maddəsi[58] "Məsuliyyət" adlanır. Həmin maddə ilə müəyyən

---

[56] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.240-241

[57] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.241-248

[58] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009

edilmişdir ki, konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

Bələdiyyələrin konstitusion-hüquqi məsuliyyəti ilə bağlı normalar əsasən Azərbaycan Respublikasının Konstitusiyasının "Bələdiyyələrin müstəqilliyinin təminatı" adlanan 146-cı maddəsində [59] təsbit edilmişdir. Həmin maddəilə müəyyən edilmişdir ki:

1) Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər;

2) Bələdiyyələrin müstəqilliyi bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir;

3) Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir;

4) Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz;

5) Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir;

6) Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər;

7) Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə təminat verilir;

8) Bələdiyyələrin dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

Bu normalar bələdiyyələrin konstitusion-hüquqi məsuliyyətini özündə ehtiva edir. Azərbaycan Respublikasının Konstitusiyasında bələdiyyələrin, onların seçkili vəzifəli şəxslərinin məsuliyyətini müəyyənləşdirən müddəalar nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının

---

[59] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009

146-cı maddəsin1-ci hissəsində təsbit edilmişdir ki, bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir. Bu konstitusion normada bələdiyyə və onun vəzifəli şəxslərinə qarşı tətbiq edilə biləcək sanksiyaların dairəsi də təsbit edilmişdir. Bələdiyyə üzvünün konstitusion məsuliyyətinə müvafiq olaraq tətbiq ediləcək saksiyalar aşağıdakı kimi ifadə edilmişdir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması;
2) bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi;
3) bələdiyyələrin vaxtından əvvəl buraxılması.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması**. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması onların "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş hüquqlarının həyata keçirilməsinin müvəqqəti olaraq dayandırılmasından ibarətdir.

Bələdiyyə üzvlərinin səlahiyyətləri yuxarıda nəzərdə tutulmuş əsaslarla bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən bələdiyyə tərəfindən qərar qəbul edilənədək dayandırılır.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi.** Bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir. Bələdiyyə üzvlərinin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;

5) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

**Bələdiyyənin vaxtından əvvəl buraxılması**. Azərbaycan Respublikası Milli Məclisi ona "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununu 52-2-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq müraciət olduqda və bununla əlaqədar bələdiyyənin hesabatının dinlənilməsi nəticəsində onun fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bələdiyyənin vaxtından əvvəl buraxılması haqqında qərar qəbul edir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə bələdiyyənin vaxtından əvvəl buraxılması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edir.

**Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi qaydası.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 21-ci və 22-ci maddələrində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 144-cü və 145-ci maddələrinə müvafiq surətdə bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 21-ci maddəsinin 1-ci,

2-ci, 3-cü, 5-ci bəndlərində və 22-ci maddəsinin 1-ci, 3-cü, 5-ci, 6-cı bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir.

Bələdiyyənin nizamnaməsində digər orqanların yaradılması və müvafiq vəzifəli şəxslərin təyin olunması nəzərdə tutula bilər.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının[60] 8-ci maddəsində "Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət"ə dair normalar aşağıdakı kimi ifadə edilmişdir:

1. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət yalnız konstitusiya ilə yaxud qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş səlahiyyətləri lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın müdaxilə dərəcəsi bu müdaxilənin qorumağı nəzərdə tutduğu maraqların əhəmiyyətinə mütənasib olsun.

"Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasında nəzərdə tutulmuş bu müddəalar milli qanunvericilikdə də təsbit olunmuşdur. Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun "Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətinə inzibati nəzarət" adlanan 52-ci maddəsi ilə müəyyən edilmişdir ki,Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bələdiyyə, bələdiyyə

---

[60]"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2001-ci il 25 dekabr tarixli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №01, maddə 8

orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir. Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında"Azərbaycan Respublikasının2003-cü il 13 may tarixli Qanunu [61] ilə Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin hüquqi əsasları müəyyən edilmişdir. Qanunla bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət anlayışı aşağıdakı kimi təsbit edilmişdir. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət dedikdə, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılması məqsədi ilə həyata keçirilən fəaliyyət başa düşülür. Həmin Qanunun 4-cü maddəsi ilə inzibati nəzarətin həyata keçirilməsinin şərtləri müəyyən edilmişdir. Bu şərtlərə aşağıdakılar daxildir:

1) Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir;

2) Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir;

---

[61] "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında"Azərbaycan Respublikasının2003-cü il 13 may tarixli 454-IIQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, №06, maddə 268

3) Qanunvericilik və icra hakimiyyətləri tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq bələdiyyələrə verilən əlavə səlahiyyətlərin həyata keçirilməsinə nəzarəti həmin hakimiyyətlər inzibati nəzarəti həyata keçirən orqana həvalə edə bilərlər;

4) İnzibati nəzarət bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz;

5) İnzibati nəzarət həyata keçirilərkən bələdiyyələrin fəaliyyətinə edilən müdaxilə qanunda nəzərdə tutulan məqsədə mütənasib olmalıdır;

6) Azərbaycan Respublikasının Hesablama Palatası bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirir, rəy hazırlayır, təkliflər verir və zərurət yarandıqda audit yoxlamasını həyata keçirir.

Bələdiyyə qanunvericiliyində bələdiyyələrin öz səlahiyyətləri ilə yanaşı ayrı-ayrı dövlət səlahiyyətlərinin onlara verilməsi və bu səlahiyyətlərin həyata keçirilməsinə görə onların məsuliyyəti müəyyən edilmişdir. Lakin bu məsuliyyətin həcmi bələdiyyə orqanlarının dövlət tərəfindən onlara həvalə edilmiş ayrı-ayrı səlahiyyətlər üçün verilmiş maddi-iqtisadi resursların həcmindən asılıdır. Bu məsuliyyətin yaranmasının əsasını bələdiyyə orqanları və vəzifəli şəxslər tərəfindən konstitusiya və qanunların pozulması deyil, onlara həvalə edilmiş səlahiyyətlərin lazımi səviyyədə icra edilməməsi təşkil edir.

**Bələdiyyələrin yerli əhali qarşısında məsuliyyəti.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun2-ci maddəsində bələdiyyəyə aşağıdakı məzmunda anlayış verilmişdir. “Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu qanunla

səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər”. Bu anlayışın daxili komponentlərinə aşağıdakılar aiddir:

1) Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır;

2) Bələdiyyənin öz mülkiyyəti olur;

3) Bələdiyyənin öz yerli büdcəsi olur;

4) Bələdiyyə - Azərbaycan Respublikasının Konstitusiyası ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir;

5) Bələdiyyə - Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir;

6) Bələdiyyələr bərabərlik prinsipi əsasında qurulur;

7) Bələdiyyələr bərabərlik prinsipi əsasında fəaliyyət göstərirlər.

Bələdiyyələrə qanunverici tərəfindən verilmiş tərifin məzmununda vacib məsələlərdən biri yerli əhəmiyyətli məsələlərin əhali tərəfindən “müstəqil və öz məsuliyyəti altında” həyata keçirilməsidir. Əhali bu fəaliyyəti əsasən bələdiyyə orqanları vasitəsi ilə həyata keçirir. Buna görə də, bələdiyyə orqanları və vəzifəli şəxslərinin yerli özünüidarəetmənin əsas subyekti olan əhalidən asılılığı təmin edilməlidir. Bu bələdiyyə orqanları və vəzifəli şəxslərinin əhali qarşısında məsuliyyətinin qanunvericilikdə möhkəmləndirilməsində öz həllini tapır.

Bir qayda olaraq bələdiyyə orqanları və vəzifəli şəxslərinin əhali qarşısında məsuliyyəti etimadın itirilməsi nəticəsində yaranır. Etimadın olması və ya olmaması bələdiyyələrin nümayəndəli orqanının fəaliyyətinin legitimliyinin faktiki şərtidir. “Etimadsızlıq” və ya “inamın itirilməsi” terminlərinin mahiyyəti ondan ibarətdir ki, əhali seçdiyi nümayəndələrin fəaliyyətinin düzgünlüyünü şübhə altına alır. Digər ölkələrin təcrübəsi göstərir ki, yerli əhali bu inamsızlığı bələdiyyə

orqanları və bələdiyyənin vəzifəli şəxslərinə yerli rəy sorğusu vasitəsi ilə göstərə bilər. Bu üsulla əhali öz iradəsini ifadə edir, bələdiyyənin vəzifəli şəxsi və bələdiyyə orqanına münasibət bildirir. Adətən, bələdiyyə üzvünün məsuliyyətə cəlb edilməsi proseduru aşağıdakı mərhələlərdə həyata keçirilir:

1) əhalinin rəyinin müəyyən edilməsi (əhali tərəfindən bələdiyyə üzvlərinin fəaliyyətinin obyektiv qiymətləndirilməsi nəticəsində müxtəlif formalarda realizə olunur);

2) bələdiyyənin səlahiyyətli orqanı tərəfindən bələdiyyə üzvlərinin məsuliyyətə cəlb edilməsi forması barədə qərarın çıxarılması;

3) məsuliyyəti nəzərdə tutan hüquq normasının faktiki icrası və bələdiyyə üzvü üçün xoşagəlməz nəticənin baş verməsi.

Azərbaycan Respublikasının bələdiyyə qanunvericiliyində qeyd olunan subyektlərin əhali qarşısında etimadının itirilməsi əsası müəyyən edilməmişdir. Lakin hesab olunur ki, bələdiyyələrin Nizamnamələrində əhali tərəfindən bələdiyyə orqanları və vəzifəli şəxslərinin fəaliyyətinə nəzarətin formaları təsbit oluna bilər. Belə nəzarətin ən geniş yayılmış formalarından birinə bələdiyyə orqanları və vəzifəli şəxslərin əhali qarşısında 6 aydan gec olmayaraq hesabatı təşkil edir. Bundan başqa əhali tərəfindən bələdiyyələrin fəaliyyətinə nəzarətin digər forması kimi əhalinin təşəbbüsü ilə bələdiyyə orqanlarının fəaliyyətinə dair yerli rəy sorğusunun keçirilməsi tələbi, əhalinin bələdiyyə orqanları və vəzifəli şəxslərinə müraciətləri göstərilə bilər.

Bələdiyyə orqanları və vəzifəli şəxslərinin əhali qarşısında real məsuliyyətini, onların fəaliyyətinə nəzarəti təmin etmək üçün bələdiyyə əhalisinin təşəbbüskarlığı, özünütəşkili, öz hüquq və qanuni maraqlarını dərk etməsi, yerli əhəmiyyətli məsələlərin həllinə marağı tələb olunur.

Yerli əhalinin etimadının itirilməsi haqqında yalnız bələdiyyənin seçkili orqanları və vəzifəli şəxslərinə münasibətdə

danışmaq olar, çünki məhz onlar yerli əhəmiyyətli məsələləri həll etmək üçün əhalidən “mandat” alırlar.[62]

**Bələdiyyə orqanlarının fiziki və hüquqi şəxslər qarşısında məsuliyyəti.** Yerli özünüidarəetmə orqanlarının məsuliyyəti dedikdə, bu orqanların qəbul etdikləri qanunsuz aktlar nəticəsində, daşıdıqları funksiya və vəzifələri lazımi qaydada icra etmədikləri nəticəsində, törətdikləri pozuntular nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin nəticələrini aradan qaldırmaq vəzifəsi başa düşülür. Azərbaycan Respublikasında qüvvədə olan bələdiyyə qanunvericiliyin tələblərinə görə bələdiyyə orqanları əhali, dövlət, fiziki və hüquqi şəxslər qarşısında məsuliyyət daşıyırlar.

Bələdiyyələrin statusu haqqında Azərbaycan RespublikasıQanununun51-ci maddəsi "Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti" adlanır. Bu maddə ilə müəyyən edilmişdir ki, "Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar". Burada məsuliyyət daşıyan üç subyekt nəzərdə tutulmuşdur:

1) Bələdiyyələrin məsuliyyəti;
2) bələdiyyə orqanlarının məsuliyyət;
3) bələdiyyə orqanlarının vəzifəli şəxslərinin məsuliyyət.

Bu subyektlərin tərkib elementlərini aşağıdakı kimi ifadə etmək olar:

1) bələdiyyələr hüquqa zidd hərəkətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;
2) bələdiyyələr hüquqa zidd hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;
3) bələdiyyə orqanları hüquqa zidd hərəkətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;

[62] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.245

4) bələdiyyə orqanları hüquqa zidd hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;

5) bələdiyyə orqanlarının vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;

6) bələdiyyə orqanlarının vəzifəli şəxsləri hüquqa zidd hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar;

Bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin fiziki şəxslər qarşısında daşıdığı məsuliyyətin əsasını ilk olaraq Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq bələdiyyə orqanlarının insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq vəzifəsi təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasına dair Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müddəalar Azərbaycan Respublikasının müvafiq Qanunlarında və digər normativ hüquqi aktlarında daha da konkretləşdirilmiş və tətbiqi mexanizmləri müəyyən edilmişdir. Məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin "Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin vurduqları zərər üçün məsuliyyət"i adlanan 1100-cü maddəsi ilə müəyyən edilmişdir ki, "Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən dövlət orqanının və ya yerli özünüidarə orqanının qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzini Azərbaycan Respublikası və ya müvafiq bələdiyyə ödəməlidir".

Bələdiyyə orqanlarının fiziki və hüquqi şəxslər qarşısında məsuliyyəti bir neçə hallarda yarana bilər. Məsələn, bələdiyyə orqanları tərəfindən fiziki şəxsin qanunla müəyyən edilmiş hüquq və azadlıqları pozulduqda sonuncu bələdiyyə orqanlarının qanunsuz hərəkətindən (hərəkətsizliyindən) və qərarlarından məhkəməyə müraciət edə bilər. Düzdür, bələdiyyə orqanının

vəzifəli şəxsi tərəfindən fiziki şəxsin hüquq və ya azadlığı pozulduğu təqdirdə fiziki şəxs şikayətlə bələdiyyə orqanının sədrinə də müraciət edə bilər. Bu halda bələdiyyə orqanının rəhbəri vətəndaşın şikayətini araşdırıb şikayətə əsaslandırılmış cavab verməlidir. Lakin təcrübə göstərir ki, bələdiyyə orqanlarının vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən (hərəkətsizliyindən) bələdiyyə sədrinə etdikləri müraciətləri bir çox hallarda vətəndaşların hüquqlarının bərpası ilə nəticələnmir. Odur ki, fiziki və hüquqi şəxslərin pozulmuş hüquq və azadlıqların məhkəmə qaydasında müdafiə forması təcrübədə ən səmərəli müdafiə formasına aid edilə bilər.[63]

[63] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.246

# IV FƏSIL

# BƏLƏDİYYƏ QULLUQÇULARININ HÜQUQİ STATUSU

## 4.1. Bələdiyyə qulluqçularının hüquqları və vəzifələri

Yerli özünüidarəetmənin fəaliyyətinin şərtləndirən əsas amillərdən biri onun səmərəlili icra orqanına və peşəkar bələdiyyə qulluqçusuna məxsus olmasıdır.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi "Bələdiyyənin icra orqanı" adlanır. Həmin maddəyə əsasən bələdiyyənin icra orqanı dedikdə, bələdiyyənin icra aparatı başa düşülür. Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir. Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.Ehtiyac olduqda bələdiyyə bələdiyyə sədrinin müavinlərini seçir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur.Bələdiyyənin sədri və onun müavinləri aşağıdakı hallarda yuxarıda göstərilən qaydada vaxtından əvvəl vəzifədən azad edilə bilərlər:

1) öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı müraciət etdikdə;

2) bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlər barədə təkbaşına sərəncam verdikdə;

3) bələdiyyə qərarlarının icrasını təmin etmədikdə (qanunvericiliyə zidd olan və həlli imkan səlahiyyətlərindən kənar qərarlar istisna olmaqla);

4) əmək qabiliyyətinin fasiləsiz olaraq, 6 aydan çox müddətdə tam itirməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;

5) qanunvericiliklə üzərinə qoyulmuş vəzifələri 3 ay müddətində yerinə yetirmədikdə;

6) Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilən qaydada yerli büdcənin müzakirəsini və təsdiqini təşkil etmədikdə;

7) qanunvericilikdə və bələdiyyənin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda.

Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir. Səlahiyyət müddəti bitən və ya vaxtından əvvəl vəzifədən azad edilən bələdiyyə sədri və ya bələdiyyə sədrinin vəzifələrini həyata keçirən şəxs 10 gün müddətində bələdiyyənin fəaliyyəti ilə bağlı bütün sənədləri bələdiyyənin yeni sədrinə (bələdiyyə sədrinin vəzifələrini həyata keçirən şəxsə) təhvil verməlidir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə iclasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

İcra aparatının tərkibi ümumi əsaslarla aşağıdakılardan ibarətdir:

1) bələdiyyənin sədri;

2) Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunu ilə müəyyənləşdirilmiş qaydada formalaşan struktur bölmələri;

3) bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşan struktur bölmələri;

4) bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturları.

Bələdiyyənin icra aparatı aşağıdakıları həyata keçirir və təmin edir:

1) bələdiyyənin təşkilati məsələlərini həyata keçirir;

2) bələdiyyənin informasiya məsələlərini həyata keçirir;

3) bələdiyyənin kargüzarlıq məsələlərini həyata keçirir;

4) bələdiyyənin maddi-texniki təminat məsələlərini həyata keçirir;

5) bələdiyyənin daimi və başqa komissiyalarının təşkilati məsələlərini həyata keçirir;

6) bələdiyyənin daimi və başqa komissiyalarının informasiya məsələlərini həyata keçirir;

7) bələdiyyənin daimi və başqa komissiyalarının kargüzarlıq məsələlərini həyata keçirir;

8) bələdiyyənin daimi və başqa komissiyalarının maddi-texniki təminat məsələlərini həyata keçirir;

9) bələdiyyə sədrinin tapşırıqlarını yerinə yetirir;

10) bələdiyyənin qərarlarının icrasını təmin edir.

Bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərləri isə görülmüş işlər barədə bələdiyyə sədrinə və bələdiyyəyə hesabat verirlər. Onlar həmçinin daimi və başqa komissiyaların iclaslarında səlahiyyətlərinə aid məsələlər barəsində məlumat verirlər.

İşgüzar icra aparatı olmadan yerli hakimiyyət fəaliyyət göstərə bilməz, bu səbəbdən də hər bir bələdiyyə öz icra aparatını yaradır. Qüvvədə olan qanunvericilik bələdiyyələrə icra aparatını yaratmaqda azadlıq verir. Bir qayda olaraq bələdiyyənin ərazisi, əhalinin sayı, iqtisadiyyatının xarakteri, qarşısında duran məsələlərin həcmi icra orqanının sayına, tərkibinə, hüquqi statusuna və funksiyalarına təsir göstərir. İcra aparatının strukturuna qeyd olunan obyektiv faktorlarla yanaşı subyektiv faktorlar da təsir göstərə bilər. Bu faktorlar sırasında bələdiyyə başçısının iş təcrübəsi və bacarığını göstərmək olar. Kolegiallıq prinsipinə əsasən nümayəndəli orqandan fərqli olaraq bələdiyyənin icra orqanı təkbaşınalıq və vahidlik prinsipləri əsasında fəaliyyət göstərir.[64]

---

[64] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.169

Azərbaycan Respublikasının 1999-cu il 15 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyənin nümunəvi nizamnaməsi"nə əsasən bələdiyyənin icra aparatı yerli əhaliyə xidmət, iqtisadi, ekoloji, sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan idarə, şöbə və digər struktur bölmələrdən ibarət ola bilər. Yerli əhaliyə xidmət, iqtisadi və sosial proqramları həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyənin qərarına əsasən vəzifəyə təyin edilirlər. Digər işçiləri isə birbaşa bələdiyyənin sədri vəzifəyə təyin edir. Bələdiyyənin icra aparatının strukturu onun qarşısında duran vəzifələrdən və maliyyə vəziyyətindən asılı olaraq bələdiyyə iclasının qərarı ilə təsdiq edilir. "Bələdiyyənin nümunəvi nizamnaməsi"nin 5-ci hissəsi ilə bələdiyyənin icra aparatının səlahiyyətlərinə aşağıdakılar aid edilmişdir:

1) bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən büdcə layihələrinin hazırlanması;

2) bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən plan layihələrinin hazırlanması;

3) bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən proqram layihələrinin hazırlanması;

4) bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən qərar layihələrinin hazırlanması;

5) bələdiyyənin qəbul etdiyi qərarların yerinə yetirilməsi;

6) bələdiyyə sədrinin qəbul etdiyi qərarların yerinə yetirilməsi;

7) bələdiyyənin qanunla müəyyən olunmuş səlahiyyətlərinin həyata keçirilməsinin təşkili;

8) bələdiyyə mülkiyyətinin idarə edilməsi;

9) bələdiyyənin istifadəsinə verilmiş başqa mülkiyyətin idarə edilməsi;

10) qanunvericiliyə əsasən ona həvalə edilmiş digər səlahiyyətləri həyata keçirir.

İcra aparatının struktur bölmələri arasında sahəvi, funksional və xidmət bölmələrini fərqləndirmək olar. **Sahə** struktur bölməsi bələdiyyənin fəaliyyətinin ayrı-ayrı sahələrinə, yəni, əhaliyə konkret xidmətin göstərilməsinə (mənzil-kommunal təsərüfatı, nəqliyyat, səhiyyə, təhsil, sosial müdafiə, tikinti, ticarət və s.) cavabdehlik daşıyır. **Funksional** bölmə ümumi məsələləri həyata keçirir (hüquqi, iqtisadi, maliyyə və s. xidmətlər). Xidməti və köməkçi bölmələr icra aparatının işini təmin edirlər. Bunlara icra aparatının kadr xidməti, informasiya şöbəsi və s. aid edilir.[65]

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunun 2-ci maddəsində verilmiş əsas anlayışlar sırasına bələdiyyə qulluğu anlayışı da daxil edilmişdir. Həmin maddəyə əsasən bələdiyyə qulluğu dedikdə, yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyəti başa düşülür.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunun 25-ci maddəsi "Bələdiyyə qulluğu" adlanır. Həmin maddə ilə bələdiyyə qulluğu ilə bağlı ümumi xarakterli məsələlər müəyyən edilmişdir. Bələdiyyə orqanlarında vəzifə tutan işçilər bələdiyyə qulluqçuları hesab edilir. Başqa sözlə, bələdiyyə qulluqçusu dedikdə, bələdiyyə orqanlarında vəzifə tutan işçilər başa düşülür. Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir. Bələdiyyə orqanlarında qulluq müddəti dövlət qulluğu haqqında qanunvericiliyə uyğun olaraq güzəştlər və təminatlar verilməsi üçün hesablanan staja daxil edilir.

[65] Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ. Dərs vəsaiti. Bakı: Təknur, 2011, s.170-171

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının 1999-cu il 30 noyabr Qanununu[66] bələdiyyə qulluğu ilə bağlı münasibətləri və Azərbaycan Respublikasında bələdiyyə qulluqçularının hüquqi vəziyyətini tənzimləyir. Həmin Qanunun 1-ci maddəsi ilə bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydasına dair normaları özündə birləşdirən bələdiyyə qulluğu haqqında qanunvericilik sisteminə aşağıdakılar aid edilmişdir:

1) Azərbaycan Respublikasının Konstitusiyası;

2) Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu;

3) Azərbaycan Respublikasının digər qanunvericilik aktları;

4) bələdiyyənin nizamnaməsi.

Bələdiyyə qulluğu haqqında Azərbaycan RespublikasıQanununun 2-ci maddəsi ilə bələdiyyə qulluğu və bələdiyyə qulluqçusu anlayışları verilmişdir. Bələdiyyə qulluğu dedikdə, yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyəti anlaşılır. Bələdiyyə qulluqçusu dedikdə isə, yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən işçi başa düşülür. Qanunla bələdiyyə qulluqçusu hesab edilməyən şəxslərin dairəsi də müəyyən edilmişdir. Belə ki, bələdiyyə üzvləri və bələdiyyələrin fəaliyyətinin təmin olunması ilə birbaşa bağlı olmayan vəzifələri yerinə yetirən şəxslər bələdiyyə qulluqçusu hesab edilmirlər. Həmçinin bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz.

Bələdiyyə qulluqçularının üzərinə düşən vəzifələrdən biri də yerli özünüidarəetmənin səlahiyyətlərinə aid yerli əhəmiyyətli məsələlərin təcrübədə səmərəli həyata keçirilməsidir. Bələdiyyə qulluqçularının peşəkarlıq

---

[66] "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 30 noyabr tarixli 765-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №12, maddə 687

səviyyəsindən və bələdiyyə qulluğuna münasibətindən asılı olaraq bələdiyyə hakimiyyətinin səmərəli həyata keçirilməsini təmin etmiş olur. Bununla yanaşı bələdiyyə hakimiyyətində bələdiyyə qulluqçusunun səmərəli fəaliyyəti üçün zəruri olan bütün şərait yaradılmalıdır.

"Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 6-cı maddəsi ilə müəyyən edilmişdir ki, yerli hakimiyyət orqanları daha ümumi qanunvericilik müddəalarını pozmadan, yerli tələbata cavab verən və səmərəli idarəetməni təmin edən öz daxili inzibati strukturlarını özləri müəyyənləşdirmək hüququna malik olmalıdırlar. Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti elə olmalıdır ki, təcrübə və səriştəliliyin nəzərə alınması prinsiplərinə əsaslanan yüksək ixtisaslı kadrlar seçimini təmin etmək mümkün olsun; bundan ötrü peşə hazırlığının, əməyin ödənilməsinin və vəzifədə irəliçəkilmənin müvafiq şərtlərinin təmin edilməsi zəruridir.

Bələdiyyə qulluqçusunun hüquqi statusuna dair ümumi müddəalar Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunun 25-ci maddəsində, xüsusi müddəalar isə Bələdiyyə qulluğu haqqında Azərbaycan RespublikasıQanununda təsbit edilmişdir. Ümumiyyətlə, bələdiyyə qulluqçularının hüquqi vəziyyəti və bələdiyyə qulluğu keçmə ilə bağlı məsələlər Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda daha dəqiq normalarla tənzimlənir.

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 3-cü maddəsində "Bələdiyyənin icra aparatı"nın hüquqi statusu ilə bağlı normalar aşağıdakı məzmunda təsbit edilmişdir. Bələdiyyənin icra aparatı bələdiyyənin sədrindən, onun Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanunu və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilmiş qaydada formalaşdırdığı struktur bölmələrdən və digər icra strukturlarından ibarətdir. Bələdiyyənin icra aparatının strukturunu, ştat cədvəlini, bələdiyyə qulluqçusunun vəzifə

təlimatını və saxlanması xərcləri smetasını bələdiyyə təsdiq edir. Bələdiyyənin icra aparatına rəhbərliyi bələdiyyənin sədri həyata keçirir. Bələdiyyənin icra aparatı bələdiyyənin, habelə bələdiyyənin daimi və başqa komissiyalarının təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini həyata keçirir, bələdiyyə sədrinin tapşırıqlarını yerinə yetirir, bələdiyyənin qərarlarının icrasını təmin edir. Bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərləri görülmüş işlər barədə bələdiyyə sədrinə və bələdiyyəyə hesabat, daimi və başqa komissiyaların iclaslarında səlahiyyətlərinə aid məsələlər barəsində məlumat verirlər.

**Bələdiyyə icra aparatının tərkibi.** Bələdiyyə icra aparatının tərkibi bələdiyyənin fəaliyyət göstərdiyi əraziyə və konkret iş vəziyyətinə uyğun olaraq, müvafiq bələdiyyənin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada və sayda aşağıdakı kimi təşkil olunur:

1) idarə rəisləri;
2) rəis müavinləri;
3) şöbə müdirləri;
4) müdir müavinləri;
5) mütəxəssislər;
6) müfəttişlər;
7) digər işçilər.

**Bələdiyyə qulluğunun təşkili.** Bələdiyyə sədri və bələdiyyənin icra aparatı struktur bölmələrinin rəhbərləri bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi həyata keçirirlər. Onlar aşağıdakı vəzifələri daşıyırlar:

1) Bələdiyyə qulluğu haqqında Azərbaycan RespublikasıQanununun yerinə yetirilməsi üzərində nəzarət;
2) əlavə təhsil sahəsində işin təşkil edilməsi;
3) bələdiyyə qulluqçularının yerdəyişməsinə dair təkliflərin verilməsi;
4) bələdiyyə tərəfindən qəbul edilmiş qərarların icra edilməsi.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərləri bələdiyyənin qərarına əsasən işə qəbul edilirlər. Digər işçiləri isə blədiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq bələdiyyənin sədri təyin edir. Göründüyü kimi bələdiyyənin icra aparatının tərkibi formalaşdırılarkən işə qəbulun iki forması nəzərdə tutulmuşdur. Bunlar aşağıdakılardan ibarətdir:

1) icra strukturlarının rəhbərləri bələdiyyənin qərarı əsasında işə qəbul eilirlər;

2) digər işçiləri isə blədiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq bələdiyyənin sədri tərəfindən işə qəbul eilirlər.

**Bələdiyyə qulluğuna qəbul**. Bələdiyyə qulluğuna qəbul üzrə münasibtələri tənzim edən normalar "Bələdiyyə qulluğu haqqında" Azərbaycan RespublikasıQanunun 5-1-ci maddəsində təsbit edilibdir. Həmin maddəyə əsasən yuxarıda qeyd edilən işə qəbul üzrə normaların tələbləri nəzərə alınmaqla bələdiyyə qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilirlər. Bələdiyyə qulluğuna qəbulun müsabiqə əsasında keçirilməsi üçün 5 nəfər bələdiyyə üzvü və qulluqçusundan ibarət bələdiyyənin müsabiqə komissiyası (bundan sonra - müsabiqə komissiyası) yaradılır. Müsabiqə komissiyasının tərkibi, sədri və sədrinin müavini bələdiyyənin qərarı ilə təsdiq edilir. Müsabiqə komissiyası öz fəaliyyətini iclaslar vasitəsilə həyata keçirir. Müsabiqə komissiyasının iclasları üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Sədr olmadıqda iclaslara sədrin müavini sədrlik edir.

Müsabiqə komissiyasının fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir;

1) qanunçuluq;
2) obyektivlik;
3) şəffaflıq;
4) bərabərlik.

Müsabiqə komissiyasının işinə müdaxilə yolverilməzdir. Müsabiqə komissiyası namizədlərin müvafiq vəzifəyə uyğunluğunu aşağıdakı meyarlara əsasən qiymətləndirir:

1) namizədlərin bilik səviyyəsinə əsasən;

2) namizədlərin peşə hazırlığına əsasən;

3) namizədlərin ümumi dünyagörüşünə əsasən;

4) namizədlərin müvafiq vəzifə üçün tələb olunan keyfiyyətlərinə əsasən.

Müsabiqə komissiyasının işinə müvafiq sahələr üzrə ekspertlər cəlb edilə bilər.Müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, keçirilməsi və nəticələrinin qiymətləndirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

**Müsabiqə komissiyası üzvlərinin hüquq və vəzifələri, təşkilati məsələlər.**

**Müsabiqə komissiyası üzvlərinin aşağıdakı hüquqları vardır:**

1) müsabiqə komissiyasının səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək hüququ;

2) təkliflər vermək hüququ;

3) komissiyanın qərarı ilə tanış olmaq hüququ;

4) komissiyanın protokolu ilə tanış olmaq hüququ;

5) komissiyanın digər sənədləri ilə tanış olmaq hüququ;

6) komissiyanın qərar, protokol və digər sənədləri ilə razılaşmadıqda xüsusi rəy vermək hüququ.

**Müsabiqə komissiyası üzvlərinin vəzifələrinə aşağıdakılar daxildir:**

1) müsabiqə komissiyasının iclaslarını üzrsüz səbəbdən buraxmamaq;

2) vaxtında müsabiqənin keçirilmə yerində olmaq;

3) müsabiqə komissiyasının iclaslarında baxılan məsələlər üzrə səsvermədə iştirak etmək;

4) müsabiqə komissiyası üzvünün adına və qərəzsizliyinə xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməmək.

**Müsabiqə komissiyasının üzvləri müsabiqə zamanı aşağıda göstərilən tələblərə əməl etməlidirlər:**

1) namizədin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmaq;

2) namizədə müvafiq vəzifəyə yararlı olub-olmaması barədə fikir bildirməmək;

3) müsabiqənin keçirildiyi otağı tərk etməmək;

4) rabitə vasitələrindən istifadə etməmək.

Müsabiqə komissiyasının üzvü namizədlərdən hər hansı biri ilə yaxın qohumluq, şəxsi yaxınlıq, asılılıq münasibətində olduqda, yaxud obyektiv qiymətləndirməyə mənfi təsir edə bilən hallar mövcud olduqda, özü-özünə etiraz etməlidir. Eyni qaydada namizəd belə əsaslar olduqda, müsabiqə başlamazdan əvvəl müsabiqə komissiyasının hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər. Qeyd olunanlara uyğun olaraq əsaslandırılmış etiraz verildikdə, barəsində etiraz verilmiş müsabiqə komissiyası üzvü həmin etirazın verilməsinə səbəb olmuş namizədə münasibətdə müsabiqə komissiyasının qiymətləndirməsində iştirak edə bilməz. Əgər etiraz nəticəsində müsabiqə komissiyasının fəaliyyətini həyata keçirməsi mümkün olmazsa, həmin namizədə münasibətdə müsabiqə komissiyası yenidən təşkil olunur.

Müsabiqə komissiyasının iclaslarında baxılan məsələlər üzrə qərarlar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, sədrlik edənin səsi həlledicidir. Müsabiqə komissiyasının iclası protokollaşdırılır, protokol iclasda iştirak edən bütün müsabiqə komissiyası üzvləri tərəfindən imzalanır. Müsabiqə komissiyası üzvünün xüsusi rəyi olduqda, protokolda bununla bağlı qeyd aparılır və xüsusi rəy protokola əlavə olunur.Müsabiqə zamanı namizədin arzusu ilə videoçəkilişdən istifadə edilə bilər. Bu halda videoçəkiliş müsabiqə komissiyasının normal fəaliyyətinə maneçilik törətməməlidir.

Müsabiqənin nəticəsi ilə razı olmayan namizədlər həmin nəticələr elan olunduğu gündən 30 gün müddətində Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada bələdiyyəyə və ya məhkəməyə şikayət verə bilərlər.

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 5-3-cü maddəsi ilə "Bələdiyyə qulluğuna qəbulla bağlı məhdudiyyətlər" aşağıdakı kimi təsbit edilmişdir.

Şəxslər bələdiyyə qulluğuna aşağıdakı hallarda qəbul edilə bilməz:

1) onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə;

2) məhkumluğu ödənilməmiş və ya götürülməmişsə;

3) bələdiyyənin sədri, bələdiyyə sədrinin müavinləri və bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi bələdiyyə qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;

4) barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa.

Bələdiyyə qulluğu haqqında Azərbaycan RespublikasıQanunun 6-cı maddəsində "Bələdiyyə qulluqçularının hüquqları" təsbit edilmişdir. Həmin maddəyə əsasən bələdiyyə qulluqçularının aşağıdakı hüquqları vardır:

1) işə qəbul etmək və işdən azad etmək səlahiyyətinə malik olan vəzifəli şəxsdən öz xidməti vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını tələb etmək;

2) vəzifə səlahiyyətlərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq orqanlardan, idarə, təşkilat və vətəndaşlardan zəruri məlumat və sənədləri almaq;

3) səlahiyyətləri daxilində məsələlərin baxılmasında və onların həlli ilə əlaqədar qərar qəbul edilməsində iştirak etmək;

4) həmkarlar ittifaqı yaratmaq, onlara daxil olmaq və təmsil etmək;

5) əlavə təhsil almaq;

6) bələdiyyə qulluğunun təkmilləşdirilməsi üzrə təkliflər vermək;

7) öz hüquq və azadlıqlarının müdafiəsinin təminatını tələb etmək.

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 7-ci maddəsi ilə "Bələdiyyə qulluqçularının vəzifələri" aşağıdakı kimi müəyyən edilmişdir:

1) öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etmək;

2) vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə öz səlahiyyətləri çərçivəsində və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxmaq ;

3) rəhbərliyin Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;

4) rəhbərliyin Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;

5) rəhbərliyin Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;

6) rəhbərliyin bələdiyyələrin nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;

7) əmək və icra intizamına riayət etmək;

8) yerli icra hakimiyyətinin müvafiq strukturları ilə fəaliyyətlərini əlaqələndirmək;

9) yerli icra hakimiyyətinin müvafiq strukturları ilə yerli problemlərin həllində qarşılıqlı fəaliyyət göstərmək.

Bələdiyyə qulluqçularına bələdiyyələrdə qulluğa təyin edildikdən sonra xidməti vəsiqə verilir.

### 4.2. Bələdiyyə qulluğu ilə bağlı qadağalar və təminatlar

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi "Bələdiyyə qulluğu ilə bağlı qadağalar" adlanır. Həmin maddə ilə bələdiyyə qulluqçuları üçün bələdiyyə qulluğu ilə bağlı aşağıdakı qadağalar nəzərdə tutulur:

1) qanunverici orqanlarında vəzifə tutmaq;
2) icra orqanlarında vəzifə tutmaq;
3) məhkəmə orqanlarında vəzifə tutmaq;
4) Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü olmaq;
5) vəzifəsinin icrası ilə bağlı ona bəlli olan məlumatdan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə etmək.

Bələdiyyə qulluğu haqqında Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində "Bələdiyyə qulluqçusunun iş vaxtı, məzuniyyəti, pensiyası və digər sosial təminatları"na dair normalar təsbit edilmişdir. Bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaların və başqa müavinətlərin təyin edilməsi və verilməsi qaydası və digər sosial təminatları Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq digər kompensasiyalar və ödənişlər, habelə müavinətlər verilə bilər. Bələdiyyələrin nizamnaməsi ilə, bələdiyyə qulluqçularına digər imtiyaz və zəmanətlərin verilməsi nəzərdə tutula bilər. Bələdiyyə üzvlərinin

səlahiyyət müddətinin qurtarması bələdiyyə qulluqçularının vəzifələrindən azad edilmələri üçün əsas ola bilməz.

Bələdiyyə vəzifələrində işləyən və Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq müvafiq seçki komissiyasının həlledici səs hüquqlu üzvü olan şəxslər seçki komissiyasında fəaliyyətləri dövründə özlərinin razılığı olmadan işəgötürənin təşəbbüsü ilə başqa işə keçirilə bilməzlər və ya vəzifələrindən azad oluna bilməzlər.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq namizədliyi qeydə alınmış bələdiyyə vəzifəsində işləyən şəxs namizəd kimi müvafiq seçki komissiyasında qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək bələdiyyə orqanının təşəbbüsü ilə işdən çıxarıla bilməz, öz razılığı olmadan başqa işə, başqa yerdə işləməyə keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz.

Bələdiyyə qulluqçularının əmək haqqı bələdiyyələrin büdcəsi hesabına, onun maliyyə imkanlarına uyğun olaraq bələdiyyə tərəfindən təsdiq edilmiş ştat cədvəli əsasında müəyyən edilir.

Bələdiyyə qulluqçularının qanunsuz qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) bələdiyyələrin struktur bölmələrinin rəhbərlərinə, bələdiyyə sədrinə və ya məhkəməyə şikayət verilə bilər.

Bələdiyyə qulluqçusu işə əmək müqaviləsi əsasında qəbul edilir.

Əmək hüquq elmində əmək müqaviləsi əsasən üç aspektdə öyrənilir. Birincisi, vətəndaşların konstitusion əmək hüququnun realizəsinin forması kimi; ikincisi, əmək hüquq münasibətlərinin yaranmasının və müəyyən müddətə mövcud olmasının əsası kimi, yəni hüquqi fakt kimi; üçüncüsü, əmək hüququnun xüsusi hissəsinin bir institutu, yəni əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamını tənzim edən hüquq normalarının sistemi kimi.

Əmək bazarında vətəndaşlar konstitusion əmək hüququnu əsasən aşağıdakı formalarda həyata keçirirlər: əmək müqaviləsinin bağlanması; səhmdar cəmiyyətə üzv qəbul olunması; dövlət qulluğuna girmək; fərdi sahibkarlıq fəaliyyəti. Əmək hüququnun faktiki həyata keçirilməsi bir halda vətəndaşın, ikinci halda isə işəgötürənin mülahizəsindən, üçüncü halda isə vəzifəyə seçilmə və ya təyin edilmə kimi əlavə hüquqi faktlarla şərtlənir.

Hal-hazırda vətəndaşların konstitusiyada təsbit edilmiş əmək hüququnun həyata keçirilməsinin əsas və aparıcı forması əmək müqaviləsidir. Çünki məhz əmək müqaviləsi əməyin muzdlu xarakterinə əsaslanan bazar əmək münasibətlərinin tələbatına tam cavab vermək qabiliyyətinə malikdir. Bu gün dünya sivilizasiyası da əmək müqaviləsini əsas forma kimi qəbul edir, ona görə ki, burada əməyin əsl azadlığı prinsipi öz təcəssümünü tapmışdır.[67]

Azərbaycan Respublikasının Konstitusiyasının "Əmək hüququ" adlanan 35-ci maddəsinə[68] əsasən "əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət

[67] Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.221
[68] Azərbaycan Respublikasının Konstitusiyası. B.: Hüquq ədəbiyyatı, 2009

işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir".

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin[69] 43-cü maddəsinə (Əmək müqaviləsinin məzmunu) əsasən əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir.

Əmək müqaviləsində mütləq aşağıdakı əsas şərtlər və məlumatlar göstərilməlidir:

a) işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

b) işəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

c) işçinin iş yeri, vəzifəsi (peşəsi);

ç) əmək müqaviləsinin bağlandığı və işçinin işə başlamalı olduğu gün;

d) əmək müqaviləsinin müddəti;

e) işçinin əmək funksiyası;

ə) işçinin əmək şəraitinin şərtləri - iş və istirahət vaxtı, əmək haqqı və ona əlavələr, əmək məzuniyyətinin müddəti, əməyin mühafizəsi, sosial və digər sığorta olunması;

f) tərəflərin əmək müqaviləsi üzrə qarşılıqlı öhdəlikləri;

g) işçiyə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə, idman-sağlamlıq turizmi ilə məşğul ola bilməsi üçün şəraitin yaradılması;

[69]Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı. Qanun, 2015

ğ) ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);

h) işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd;

x) tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumatlar.

Əmək müqaviləsi bağlanarkən, həmçinin əmək münasibətlərinə xitam verilənədək Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə işçilər üçün müəyyən edilmiş hüquq və təminatların səviyyəsi azaldıla bilməz. Azərbaycan Respublikasının Əmək Məcəlləsində başqa hal nəzərdə tutulmayıbsa, əmək müqaviləsinin şərtləri birtərəfli qaydada dəyişdirilə bilməz.

### 4.3. Bələdiyyə qulluqçularının etik davranış qaydaları

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının uğurla həyata keçirdiyi dövlət siyasətinin və islahatların əsas istiqamətlərindən birini yerli özünüidarəetməyə dair qanunvericiliyin mütəmadi olaraq təkmilləşdirilməsi və müasir dövrün tələblərinə cavab verən yeni hüquqi aktların qəbul edilməsi təşkil edir.

Müasir dövrdə bələdiyyələrin o cümlədən də, bələdiyyə qulluqçularının fəaliyyətini tənzim edən hüquqi aktların təkmilləşdirilməsi, yeni hüquqi aktların qəbul edilməsi hüquqi dövlət quruculuğu prosesinin ayrılmaz tərkib hissəsi kimi diqqəti cəlb edir.

Qanunun aliliyinin, insan hüquqlarının və azadlıqlarının, demokratik prinsiplərin və etik davranış qaydalarının təmin edilməsi sahəsində bələdiyyə qulluqçularının üzərinə böyük vəzifələr düşür. Bu baxımdan bələdiyyə qulluçularının fəaliyyətində mühüm yer tutan məslələrdən biri də onların etik davranış qaydalarıdır. Bələdiyyə qulluqçuları etik davranış qaydalarına mütəmadi olaraq riayət etməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2012-ci il 5 sentyabr tarixli Sərəncamı[70] ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın "Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi" adlanan bölməsində nəzərdə tutulmuş məsələrdən biri də "Bələdiyyə qulluqçularının etik davranış qaydalarının hazırlanması" olmuşdur. Buna müvafiq olaraq Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli Qanunu[71] qəbul edilmişdir. Qanunda təsbit edilmiş normalara aşağıda diqqət yetirilmişdir.

Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanunu ilə bələdiyyə qulluqçuları üçün etik davranış qaydaları və prinsipləri, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı hüquqi mexanizmlər müəyyən edilmişdir. Həmin Qanun bələdiyyə qulluqçusu statusu olan bütün şəxslərə şamil edilir və onların üzərinə düşən vəzifələr sistemini yaradır.

Qanunvericiliyə müvafiq olaraq hər bir bələdiyyə qulluqçusunun üzərinə düşən vəzifələrdən biri də onların öz fəaliyyətində aşağıdakıları rəhbər tutmalarıdır:

1) qanunun aliliyi;
2) insan hüquqları;
3) demokratik prinsiplər;
4) etik davranış qaydaları.

---

[70]“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №9, maddə 872

[71]“Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1278-IVQ nömrəli Qanunu / Respublika Qəzeti, 11.06.2015, №124

Bələdiyyə qulluqçularının üzərinə düşən vəzifələrdən biri də Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununun müddəalarına əməl etməsidir. Bu onların vəzifə borcları sisteminə daxildir.

Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununun məqsədləri sırasına aşağıdakılar daxildir:

1) yerli özünüidarə orqanlarının nüfuzunun artırılması;

2) bələdiyyə qulluğunun nüfuzunun artırılması;

3) vətəndaşların yerli özünüidarə orqanlarına etimadının yüksəldilməsi;

4) vətəndaşların bələdiyyə qulluqçularına etimadının yüksəldilməsi;

5) yerli özünüidarə orqanlarının fəaliyyətində səmərəliliyin artırılması;

6) yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması;

7) bələdiyyə qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması;

8) bələdiyyə qulluqçularının fəaliyyətində şəffaflığın artırılması;

9) yerli özünüidarə orqanlarında korrupsiyanın qarşısının alınması;

10) bələdiyyə qulluqçularının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması;

11) bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi;

12) bələdiyyə qulluqçularından gözlənilən davranışı barədə vətəndaşların məlumatlandırılması;

13) yerli özünüidarə orqanlarının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsir imkanlarının genişləndirilməsi;

14) bələdiyyə qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsir imkanlarının genişləndirilməsi.

**Bələdiyyə qulluqçusunun xidməti davranışı.** Bələdiyyə qulluqçusunun xidməti davranışı dedikdə, onun qanunla müəyyən olunmuş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyəti başa düşülür. Bələdiyyə qulluqçusunun xidməti davranışı Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununu ilə müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

Bələdiyyə qulluqçusunun xidməti davranışını tənzim edən hüquqi aktlara aşağıdakılar daxildir:

1) Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu;

2) digər müvafiq normativ hüquqi aktlar;

3) müvafiq yerli özünüidarəetmə orqanının qəbul etdiyi qərarlar.

Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununun 2-ci fəslində bələdiyyə qulluqçularının etik davranış qaydalarına dair münasibətləri tənzim edən normalar təsbit edilmişdir. Qanunla bələdiyyə qulluqçusunun peşəkarlıq və fərdi məsuliyyətinin artırılması məqsədi ilə aşağıdakılar müəyyən edilmişdir:

1) şəxsin maraqları naminə bələdiyyə qulluqçusu öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur;

2) cəmiyyətin maraqları naminə bələdiyyə qulluqçusu öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur;

3) bələdiyyənin maraqları naminə bələdiyyə qulluqçusu öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur;

4) dövlətin maraqları naminə bələdiyyə qulluqçusu öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur;

5) bələdiyyə qulluqçusu öz fəaliyyətini qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində yerinə yetirməyə borcludur;

6) bələdiyyə qulluqçusu öz fəaliyyətini peşəkarlıqla yerinə yetirməyə borcludur.

7) bələdiyyə qulluqçusu etik davranışı və peşəkar fəaliyyəti ilə yerli özünüidarə orqanlarına inamı artırmalı və möhkəmləndirməlidir.

Bələdiyyə qulluqçularının fəaliyyətində loyallıqda mühüm yer tutur. Loyallıq dedikdə, daha yüksək intellekt tələb edən peşə nümayəndələrinə xas olan keyfiyyət başa düşülür.

Bələdiyyə qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda bəzi hərəkətləri həyata keçirməməlidir. Belə ki, bələdiyyə qulluqçuları yerli özünüidarə orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu hal bələdiyyə qulluqçusunun elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil edilmir.

Bununla yanaşı bələdiyyə qulluqçusu bələdiyyə qulluğu ilə bağlı vəzifələrin icrasına uyğun olmayan və onun adına xələl gətirə biləcək, habelə yerli özünüidarə orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Eyni zamanda bələdiyyə qulluqçusu bələdiyyə qulluğu ilə bağlı qanunla nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməlidir.

İnsanların hüquq və azadlıqlarına, qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna, həmçinin hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət sahəsində bələdiyyə qulluqçularının üzərinə düşən vəzifələr sisteminə aşağıdakılar daxildir:

1) bələdiyyə qulluqçularının fəaliyyəti insanların hüquq və azadlıqlarının, qanuni maraqlarının təmin olunmasına (qorunmasına) xidmət etməlidir;

2) bələdiyyə qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar

nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir;

3) bələdiyyə qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olan məlumatların konfidensiallığını təmin etməlidir;

4) bələdiyyə qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı digər bələdiyyə qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olan məlumatların konfidensiallığını təmin etməlidir;

5) bələdiyyə qulluqçusu hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

Bələdiyyə qulluqçularının xidməti fəaliyyətində mədəni davranış da mühüm əhəmiyyət kəsb edir. Bələdiyyə qulluqçusunun mədəni davranışı dedikdə, bələdiyyə qulluqçusunun bütün şəxslərlə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyindəki şəxslərlə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olması başa düşülür.

Bələdiyyə qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanunlara uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur. Bələdiyyə qulluqçusu birbaşa və ya yuxarı rəhbəri tərəfindən ona verilən əmr, sərəncam və ya tapşırığın qanuna və ya digər normativ hüquqi akta zidd olmasına əmindirsə, bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməlidir. O, birbaşa rəhbərindən bu əmr, sərəncam və ya tapşırığın yazılı şəkildə təsdiq olunmasını tələb etməlidir. Birbaşa rəhbərindən yazılı şəkildə əmr, sərəncam və ya tapşırıq almasına baxmayaraq, bələdiyyə qulluqçusu onların normativ hüquqi akta zidd olduğuna inanmaqda davam edərsə, o, həmin əmr, sərəncam və ya tapşırığın yerinə yetirilməsindən imtina edə bilər. Lakin bələdiyyə qulluqçusu tərəfindən qanuni göstərişlərin yerinə yetirilməməsi onun intizam məsuliyyətinə səbəb olur.

Bələdiyyə qulluqçularının fəaliyyətində qərəzsizlik prinsipi də mühüm əhəmiyyət kəsb edir. Bələdiyyə qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalıdır. Bələdiyyə qulluqçusu irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməlidir.

Bələdiyyə qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur. Bələdiyyə qulluqçusu özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsir göstərməsinə yol verməməlidir. Həmçinin belə təsir üçün şərait yaratmamalıdır.

Bələdiyyə qulluqçularının fəaliyyətində bəzi qadağalarda nəzərdə tutulmuşdur. Belə ki, bələdiyyə qulluqçusu qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməməlidir və ya qərarlar qəbul etməməlidir. Bələdiyyə qulluqçusu onun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

Bələdiyyə qulluçusunun fəaliyyətində korrupsiyaya şərait yaradan halların qarşısının alınması ən mühüm şərtlərdən biri hesab olunur. Belə ki, bələdiyyə qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, bələdiyyə qulluqçusu onlardan imtina etməlidir. Onlar bələdiyyə qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməlidir və qulluq keçdiyi bələdiyyə orqanına akt üzrə təhvil verilməlidir.

Tərəflərindən biri bələdiyyə qulluqçusunun qulluq keçdiyi bələdiyyə orqanı olan əqdlərdə həmin bələdiyyə qulluqçusu digər tərəf kimi çıxış edə bilməz.

**Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər.** Bələdiyyə qulluqçusu xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya belə təsir təəssüratı yaradan, yaxud onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya belə mükafat təəssüratı yaradan hədiyyələri özü və digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir. Bələdiyyə qulluqçusu hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

Bələdiyyə qulluqçularının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması sisteminə aşağıdakılar daxildir:

1) bələdiyyə qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir;

2) bələdiyyə qulluqçusu qulluq etdiyi dövrdə qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir;

3) bələdiyyə qulluqçusunun xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda o, bələdiyyə qulluğuna qəbul olunduqda, habelə bundan sonrakı dövrdə həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur;

4) bələdiyyə qulluqçusu başqa vəzifəyə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda bu barədə bələdiyyə orqanının rəhbərinə məlumat verməlidir.

5) bələdiyyə qulluqçusu vəzifəyə təyin edilərkən və bundan sonrakı müddətdə etik davranış qaydaları, korrupsiyaya qarşı

mübarizə və maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı normativ hüquqi və normativ xarakterli aktlarla tanış olmalıdır;

6) həmin aktlara əməl edilməsi ilə bağlı bələdiyyə qulluqçusunda hər hansı sual yarandıqda, bu barədə birbaşa və ya yuxarı rəhbərinə müraciət etməlidir.

**Əmlakdan istifadə.** Bələdiyyə qulluqçusu istifadəsində olan aşağıda göstərilən əmlakdan qənaətlə və səmərəli istifadə etməlidir:

1) bələdiyyə əmlakından;

2) maliyyə vəsaitlərindən;

3) rabitə, kompyuter və digər kommunikasiya sistemlərindən;

4) nəqliyyat vasitələrindən;

5) digər maddi-texniki təchizat avadanlığından.

Bələdiyyə qulluqçusuna yuxarıda qeyd olunan əmlakdan şəxsi maraqları naminə, habelə xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etmək qadağandır.

**Məlumatlardan istifadə.** Bələdiyyə qulluqçusu xidmət etdiyi yerli özünüidarə orqanının sərəncamında olan məlumatların qanunla müəyyən olunmuş qaydada əldə olunmasının və yayılmasının mümkünlüyünü təmin etməli və yerli özünüidarə orqanında müəyyən olunmuş xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməlidir. Bələdiyyə qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatlardan şəxsi maraqları üçün istifadə edə bilməz.

Bələdiyyə qulluqçularının ictimai və ya siyasi fəaliyyəti ilə bağlı aşağıdakılar nəzərdə tutulmuşdur:

1) bələdiyyə qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır;

2) bələdiyyə qulluqçusunun ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır;

3) bələdiyyə qulluqçusu qulluq mövqeyindən istifadə edərək, digər bələdiyyə qulluqçularını ictimai və ya siyasi birliklərin, yaxud dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir;

4) bələdiyyə qulluqçusuna bələdiyyə orqanlarında ictimai və ya siyasi birliklərin (həmkarlar ittifaqları istisna olmaqla), yaxud dini təşkilatların struktur bölmələrini yaratmaq və ya həmin orqanlarda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək qadağandır;

5) bələdiyyə qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının xeyrinə istifadə etmək qadağandır.

Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanunun 3-cü fəslində "Etik davranış qaydalarının həyata keçirilməsinin təmin edilməsi"nə dair normalar aşağıdakı kimi təsbit edilmişdir.

Bələdiyyə qulluqçularının etik davranış qaydalarına əməl olunmasına nəzarət bələdiyyənin sədri tərəfindən həyata keçirilir. Bələdiyyənin sədri nəzarət funksiyasını həyata keçirərəkən aşağıdakıları etməlidir:

1) öz davranışı ilə etik davranış qaydalarına əməl olunmasına nümunə göstərməlidir;

2) tabeliyində olan bələdiyyə qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalıdır;

3) tabeliyində olan şəxsləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq etməməlidir;

4) rəhbərlik etdiyi yerli özünüidarə orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməlidir;

5) etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;

6) tabeliyində olan bələdiyyə qulluqçularına etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verməlidir;

7) etik davranış qaydalarını pozan bələdiyyə qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir;

8) vətəndaşları və təşkilatları etik davranış qaydaları, eləcə də bələdiyyə qulluqçularının həmin qaydalara əməl etməsini tələb etmək hüququna malik olduqları barədə məlumatlandırmaq üçün tədbirlər görməlidir;

9) etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə vətəndaşları, təşkilatları və bələdiyyə orqanlarını məlumatlandırmalıdır;

10) etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması, habelə bələdiyyə orqanına ictimai etimadın artırılması üçün tədbirlər görməlidir.

**Etik davranış qaydalarının pozulmasına görə məsuliyyət.** Bələdiyyə qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsaslardan biri də etik davranış qaydalarının pozulması hesab edilir. İntizam icraatına başlanılan hallara aşağıdakılar daxildir:

1) Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanunun müddəalarının bələdiyyə qulluqçusu tərəfindən pozulduğu barədə hüquqi və ya fiziki şəxslərdən şikayət və ya digər məlumatın daxil olması;

2) kütləvi informasiya vasitələrində bələdiyyə qulluqçusu tərəfindən Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanunun müddəalarının pozulduğu və maraqların toqquşmasına yol verildiyi barədə məlumatın dərc edilməsi.

İntizam icraatı zamanı bələdiyyə qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar

edildikdə, həmin əlamətləri aşkar etmiş bələdiyyə orqanının rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

**Etik davranış qaydalarının pozulmasına görə intizam məsuliyyətinin növləri.** Etik davranış qaydalarının pozulmasına görə aşağıdakı intizam məsuliyyəti tədbirlərindən biri tətbiq edilə bilər:

1) töhmət vermək;
2) sonuncu xəbərdarlıqla şiddətli töhmət vermək;
3) aşağı vəzifəyə keçirmək;
4) bələdiyyə qulluğundan azad etmək.

İntizam tənbehi tətbiq edilərkən bələdiyyə qulluqçusunun şəxsiyyəti, kollektivdə nüfuzu, peşəkarlıq səviyyəsi, onun törətdiyi xətanın xarakteri nəzərə alınmalıdır. Yuxarıda göstərilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan bələdiyyə qulluqçusuna yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər. Etik davranış qaydalarını pozmuş bələdiyyə qulluqçusu barəsində intizam məsuliyyəti tədbiri pozuntunun aşkar edildiyi gündən etibarən 30 gün ərzində tətbiq edilir.